Xalqın qəzeti!

# Xalq qəzeti

№ 211 (30327) 29 sentyabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Günün xəbəri

Qarabağda keçirilmiş lokal antiterror tədbirləri sarsıdıcı zərbə ilə dinc erməni sakinləri uzun illər girovluqda saxlamış, əzablı həyata məhkum etmiş cinayətkar Xankəndi xuntasını çökdürdü. Sentyabrın 28-də qondarma rejim özünü buraxdı.

## Xilaskar lider azad torpaqlarımızda



## Cəbrayıl şəhərində inzibati binanın təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Cəbrayıl rayonuna səfər edib.**

Dövlətimizin başçısı Cəbrayıl şəhərində inzibati binanın təməlini qoyub.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Baş plana əsasən, inzibati bina işgüzar zona kimi müəyyən olunmuş bir hektar ərazidə tikiləcək. Layihəyə əsasən, ərazidə dörd bina inşa ediləcək. Hər bina müasir üslubda layihələndirilib. İlkin mərhələdə 4-5 mərtəbədən ibarət ikikorpuslu bina kompleksinin tikintisi planlaşdırılır və binalar körpü vasitəsilə əlaqələndiriləcək. Digər 3-4 mərtəbəli binaların tikintisi isə ikinci mərhələ üçün nəzərdə tutulur. Binaların fasadında müasirlik və milliliyin ahəngi əsas götürülüb. Belə ki, eyvanlarda milli elementimiz olan şəbəkədən istifadə olunacaq.

Layihəyə əsasən, inzibati bina kompleksinin həyətində sakinlərin istirahəti üçün park salınacaq. Buradakı avtomobil dayanacağı elektrik doldurma məntəqələri ilə təmin olunacaq.

Kompleksin elektrik enerjisi təminatını qismən ödəmək məqsədilə binaların damında və istifadə olunmayan boş ərazilərində günəş panelləri quraşdırılacaq.

Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.

## Xoşbəxtik ki…

### İlham Əliyev nəhəngliyi… qondarma "DQR" üçün nekroloq əvəzi



**Bəli, biz tarixi anların şahidləriyik. Biz 200 illik erməni layihəsinin, avantürizminin məhvinin şahidləriyik. Biz nəinki bunun şahidləriyik, eyni zamanda, zəhərli bir avantürizmi məhv etmiş xalqıq.**

Çağdaş zamanda bir ilkə imza atdıq: separatizmə qalib gəldik. Müasir dünyada elə bir xalq yoxdur ki, separatizmi diz çökdürsün. Bunu biz bacardıq. Qətiyyətlə demək olar ki, qondarma "Dağlıq Qarabağ Respublikası"nın "fəaliyyətini" dayandırmağa məcbur edilməsi Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik liderlik bacarığının, nəhəng siyasətçi obrazının növbəti təntənə səhnəsidir. Bu səhnədə illərin zəhməti, gərgin və fədakar əməyi, qətiyyət və prinsipiallıq xarakteri var. Bu səhnədə Azərbaycana misilsiz sevgi, onun hər dağına, hər daşına, hər qayasına sahiblənmək əzmi var. Nəhayət, bu səhnədə Ata irsinə mükəmməl sahiblik, dərin Oğul sədaqəti var.

Əminliklə onu da demək olar ki, bu gün ümummilli liderimiz Heydər Əliyevin ruhu şaddır. Onun böyük əmək verdiyi, heçdən var edərək ideoloji məfkurə səviyyəsinə qaldırdığı Azərbaycanın suverenliyinin bərpası amalı tam bir reallıqdır. Həqiqətən, bu, çox böyük hadisədir, nəsillərə örnək olacaq tarixi nailiyyətdir.

*(ardı 5-ci səhifədə)*

## Könüllü təslim: Növbədə kimdir?!

**Məgər Xankəndidəki keçmiş separatçı rejimin "məmurları" başqa aqibətə ümid edə bilərdilər? Əlbəttə yox! Onların hamısını Qarabağdan Ermənistana qaçmaq istəyərkən saxlanılan Ruben Vardanyanın üzləşdiyi acı aqibət gözləyir. Hazırda istintaq qarşısında göz yaşlarını tökən Qarabağ iqtisadi rayonumuzun çağırılmamış qonağı, kənardan göndərilmiş "desant" beş ay bundan əvvəl hətta Ermənistanın baş naziri ilə ultimatum dilində danışırdı. O, Qarabağ ermənilərinin "vahid müdafiə cəbhəsindən", "sona qədər mübarizə" aparacaqlarından, "qədim artsax xalqının hüquqlarını" qoruyacağından dəm vururdu. Bəs, axırı nə oldu?**




Bəlkə kənardan qızışdırılan bu haylar düşünürdülər ki, Xankəndidəki separatçı rejimi maliyyələşdirməklə, Ermənistandan gətirilmiş quldurları silahlandırmaqla, Qarabağ ermənilərini girovluqda saxlayan xunta rejiminin ömrünü uzatmağa çalışmaqla nəyəsə nail ola biləcəklər? Yəqin Bakının xoşməramlı təklif və çağırışlarına məhəl qoymayanda ağıllarının ucundan da keçirmirdilər ki, "dəmir yumruq" gec-tez başlarına enəcək və indi üzləşdikləri miskin duruma düşəcəklər. Amma vədə tamam olub vaxt yetişəndə Azərbaycan Ordusu dediyi sözünün üstündə durdu, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Qarabağın o ərazisində lokal antiterror tədbirləri ilə bir sutkaya hər şeyi yerbəyer etdi.

*(ardı 6-cı səhifədə)*

## Kilsənin Paşinyanı devirmək planı

### Qarabağ ermənilərini "hərəkətə gətirilir"

**Dahi Cəlil Məmmədquluzadə özünün "Erməni keşişi və azərbaycanlı axundun fərqi haqda" hekayəsində azərbaycanlı mollanı tənqid edir. Amma hekayənin adından da göründüyü kimi, yazıçının tənqid hədəfi yalnız o deyil. Erməni din xadimini siyasi təbliğatçı qiyafəsində göstərən C.Məmmədquluzadənin yanaşması həmin din xadiminin ifrat millətçiliyinin də diqqətə çatdırılmasıdır. O millətçiliyin ki, erməni avantürizmini, pozuculuğunu şərtləndirir. Deməli, yazıçı qələmi həm də erməni din xadiminin dindən uzaqlığına eyham vurub.**

Yada salaq ki, erməni kilsəsi Birinci Qarabağ müharibəsində olduğu kimi, İkinci Qarabağ savaşı zamanı da təxribatçı mövqe tutub. Eçmiədzin qisas və işğal çağırışları səsləndirib. Həmin vaxt sosial şəbəkələrin erməni seqmentini əlində avtomat tutmuş erməni din xadimlərinin, keşişlərin şəkilləri "bəzəyirdi". Din adına rəzalət olan katolikos II Qaregin isə qəzəb və hiddət püsgürməkdə ən öndə idi.

*(ardı 9-cu səhifədə)*

## Biz haqq-ədalət tələb edirik



**Azərbaycanın sentyabrın 19-20-də yüksək peşəkarlıqla keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin uğurlu olması okeanın o tayındakı qatı ermənipərəst dairələrin yuxusunu ərşə çəkib. Belə ki, ABŞ Konqresinin həm yuxarı, həm də aşağı palatasının (Senat və Nümayəndələr Palatası) 96 üzvündən ibarət ikipartiyalı qrup Dövlət katibi Antoni Blinkeni və Maliyyə naziri Canet Yelleni Azərbaycana sanksiya tətbiq etməyə çağırıblar.**

Onlar qeyd ediblər ki, dövlət katibi və maliyyə naziri Qlobal Maqnitski Aktına uyğun olaraq, diskresion səlahiyyətlərindən istifadə etməli və bu addımı atmalıdırlar. Konqresmenlər və senatorlar öz fikirlərini Azərbaycanın Qarabağın erməni azlığın yaşadığı hissəsini "9 aydan çox sərt blokadada saxlaması və 120 minlik yerli (?) xristian erməni əhalisinə hücumlar etməsi ilə" "əsaslandırmağa" çalışıblar.

Qeyd edək ki, müraciətin hazırlanmasında Amerika Erməni Milli Komitəsi (ANCA) xüsusi cənfəşanlıq göstərib. Qurumun icraçı direktoru Aram Ambaryan deyib ki, ABŞ Prezidenti Co Bayden "soyqırımını təşviq etməyi" (?) dayandırmalı və təqsirkarları (?) məsuliyyətə cəlb etməyə başlamalıdır. Onun sözlərinə görə, bu, Azərbaycana hərbi yardımı dayandırmaqdan və sanksiyalar tətbiq etməkdən başlamalıdır".

Konqresmenlərin və senatorların Dövlət katibi və Maliyyə nazirinə müraciəti barədə ilk məlumatı isə ABŞ-nin "Politico National Security Daily" qəzeti yayıb. Qeyd edib ki, müraciət Rod-Aylend ştatını təmsil edən demokrat senator Şeldon Vaythaus, Los-Ancelesdən respublikaçı Bill Kessidi, konqresmenlərdən isə yenə Rod-Ayleнddən demokrat Set Maqaziner, Floridadan respublikaçı Has Bilirakis və Nyu-Cersidən demokrat Frenk Pallone tərəfindən hazırlanıb.

Onu da bildirək ki, Azərbaycana hansısa sanksiyaların tətbiq olunması məsələsi ermənilərin ən böyük arzu və istəklərindən biridir. Sentyabrın ortalarında Ermənistan parlamentinin sədri Alen Simonyan Azərbaycana qarşı beynəlxalq sanksiyaların tətbiqini zəruri hesab etdiyini bildirmişdi. O, bunu Fransa Milli Assambleyasının Xarici əlaqələr komitəsinin sədri Jan-Lui Burlanjla görüşündə demişdi. Simonyan qeyd etmişdi ki, o, "Qarabağ əhalisinin təhlükəsizliyini təmin etmək və humanitar fəlakəti pisləmək üçün fransalı tərəfdaşların fəal addımlarının davamını gözləyir".

*(ardı 6-cı səhifədə)*



## Bakı kosmik müzakirə orbitinə çıxır

**Gələn həftə Bakı şəhəri daha bir mötəbər beynəlxalq tədbirə evsahibliyi edəcək. Oktyabrın 2-6-da paytaxtımızda keçiriləcək 74-cü Beynəlxalq Astronavtika Konqresinə hazırlıq işləri tam başa çatdırılıb. Hazırlıq işləri Beynəlxalq Astronavtika Federasiyası tərəfindən yüksək qiymətləndirildiyindən qurumun icraçı direktoru Kristian Faytinger bir qədər əvvəl Bakının evsahibliyi edəcəyi konqresin heyrətamiz hadisə olacağını bəyan etmişdi.**

Azərbaycan Kosmik Agentliyinin ("Azərkosmos") və Beynəlxalq Astronavtika Federasiyasının tərəfdaşlığı ilə keçiriləcək 74-cü konqres çərçivəsində konfranslar, 190-dan çox texniki sessiya və sərgilər təşkil olunacaq. Tədbirdə kosmik agentliklərin, dövlət sektorunun, investorlar və özəl kosmik şirkətlərin nümayəndələri, yerli və beynəlxalq media qurumlarının təmsilçiləri iştirak edəcəklər.

*(ardı 7-ci səhifədə)*

## Azərbaycan qazının etibarlı Avropa marşrutu

Səhifə ⇨ 7

## Xalq sənətlərimiz Özbəkistan sərgilərində

Səhifə ⇨ 10

# Cəbrayılda yaşayış kompleksi salınır

**Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl şəhərində Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən inşa edilən ilk yaşayış məhəlləsi – Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanış olub.**



Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlətimizin başçısına tikinti işlərinin gedişi barədə məlumat verdi.

Qeyd olundu ki, ümumi sahəsi 7,9 hektar olan yaşayış kompleksi 33 binadan ibarətdir. Dördmərtəbəli və beşmərtəbəli binalarda ümumilikdə 718 mənzil olacaq. Onların 8-nin birotaqlı, 136-nın ikiotaqlı, 8-nin ikiotaqlı studio tipli, 392-nin üçotaqlı, 168-nin isə dördotaqlı olması nəzərdə tutulur. Birotaqlı mənzillərin sahəsi 40-50 kvadratmetr, ikiotaqlı mənzillərin sahəsi 55-90 kvadratmetr, ikiotaqlı studio tipli mənzillərin sahəsi 98-100 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 90-108 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 110-120 kvadratmetr təşkil edəcək.

Altı kvartaldan ibarət kompleksin inşası sürətlə və keyfiyyətlə həyata keçirilir. Bütün mənzillər tam təmirli olacaq, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz ediləcək. Binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin olunacaq.

Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək.

Dövlətimizin başçısına Şirvan, Lənkəran və Yevlax Yaşayış kompleksləri barədə də məlumat verildi.

Qeyd olundu ki, 8 hektardan çox ərazidə 25 binadan ibarət Şirvan Yaşayış Kompleksinin inşasına başlanılıb. Burada 9 mərtəbəli 14, 12 mərtəbəli 11 bina inşa ediləcək. Kompleksdə 32-si studio tipli, 216-sı ikiotaqlı, 768-i üçotaqlı və 248-i dördotaqlı olmaqla ümumilikdə 1264 mənzil olacaq. Bundan başqa, 960 şagird yerlik orta məktəb binası və 80 yerlik uşaq bağçası da tikiləcək.

Tikintisi yekunlaşmaqda olan Lənkəran Yaşayış Kompleksində doqquzmərtəbəli 5 bina inşa edilib. Binalarda ümumilikdə 240 mənzil var. Mənzillərin 32-si birotaqlı (studio tipli), 36-sı ikiotaqlı, 104-ü üçotaqlı, 68-i isə dördotaqlıdır.

Yeddimərtəbəli 6 binadan ibarət Yevlax Yaşayış Kompleksinin inşasına tezliklə başlanılacaq. Kompleksdə 28-i birotaqlı, 14-ü studio tipli, 84-ü ikiotaqlı, 139-u üçotaqlı, 64-ü isə dördotaqlı olmaqla ümumilikdə 329 mənzil olacaq.

# Zəngilanın Alıbəyli kəndində təməlqoyma





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan rayonunda olub.**

Dövlətimizin başçısı Alıbəyli kəndinin təməlini qoyub.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına Alıbəyli kəndi barədə məlumat verdi.

Alıbəyli kəndi Həkəri çayının sahilində, Bərgüşad silsiləsinin ətəyində, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun üzərində yerləşir. İşğaldan azad olunmuş ərazilərin ümumi planına əsasən, Alıbəyli kəndi Birinci Alıbəyli, İkinci Alıbəyli, Sarıl və Xumarlı kəndləri ilə birlikdə layihələndirilir. Kəndin mövcud məskunlaşma ərazisi 103,5 hektar sahəni əhatə edir. Layihələndirilən ərazinin sahəsi isə 170,3 hektardır.

Bildirildi ki, Alıbəyli kəndində 2568 sakin üçün 498 fərdi evdən və 144 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin layihələndirilməsi nəzərdə tutulur. Birinci mərhələdə 772 sakin üçün 197 fərdi evin layihələndirilməsi və tikilməsi planlaşdırılır.

Kənddə inzibati bina, klub icma mərkəzi və qonaq evi, idman sağlamlıq mərkəzi, məktəb binası, bazar kompleksi, mərasim zalı, iaşə obyektləri və digər müəssisələr olacaq.

Qeyd olundu ki, Alıbəyli kəndində əhali üçün tələbata uyğun ümumilikdə 462 şagird yerlik iki tam orta məktəb binasının tikintisi planlaşdırılır. Birinci mərhələdə 143 şagird yerlik məktəb binası inşa olunacaq. Üçmərtəbəli məktəbin ərazisində həm şagirdlər, həm də əhali üçün qaçış zolağı olan geniş idman meydançasının yaradılması nəzərdə tutulur.

Kənddə məskunlaşacaq əhali üçün ümumilikdə 160 yerlik iki uşaq bağçası da inşa olunacaq.

Əhalinin resurslardan istifadəsini əlçatan etmək məqsədilə geniş istifadə olunan qeyri-yaşayış obyektləri bir neçə mövqedə yerləşdirilib.

Sonra Alıbəyli kəndinin inkişaf planı barədə videoçarx nümayiş etdirildi.

Prezident İlham Əliyev Alıbəyli kəndinin təməlini qoydu.

# Rəqəmsal İdarəetmə Mərkəzi işə düşdü





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin açılışını edib.**

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, ölkəmizin elektroenergetika sektorunda texnoloji innovasiyaların tətbiqi və infrastrukturun rəqəmsal transformasiyasının sürətləndirilməsi istiqamətində Cəbrayıl şəhərində Prezident İlham Əliyev tərəfindən 2022-ci il oktyabrın 19-da təməli qoyulan "Azərişıq" ASC-nin Rəqəmsal İdarəetmə Mərkəzi yüksək səviyyədə inşa olunub.

Bildirildi ki, Rəqəmsal İdarəetmə Mərkəzi 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyasından qidalanır. Mərkəz Cəbrayıl şəhərinin elektrik enerjisinə tələbatının bir hissəsini təmin etməklə yanaşı, tikintisi nəzərdə tutulan digər güc mərkəzlərinin rəqəmsal platforma üzərindən idarəetməsini həyata keçirməyə imkan verəcək. Rəqəmsal İdarəetmə Mərkəzində tətbiq olunacaq müasir dispetçer idarəetmə sistemi elektrik enerjisinin real vaxt rejimində istehlakçıya çatdırılmasında abonent məmnunluğunu təmin edəcək. Rəqəmsal İdarəetmə Mərkəzi şəhərin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə olan tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda idarə edilməsinə imkan yaradacaq. Müasir tipli Mərkəz vasitəsilə ətraf ərazilərin də elektrik təchizatının etibarlılığı və dayanıqlılığına nəzarət təmin ediləcək. Rəqəmsal Elektrik Şəbəkələrinin İdarəolunması Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin artırılmasına zəmin yaradacaq. Eyni zamanda, burada mühəndis–texniki heyətin effektiv işini təmin edən müasir avadanlıqlarla təchiz edilmiş iş otaqları, vətəndaş qəbulu üçün bütün şərait nəzərdə tutulub.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzini işə saldı.

Məlumat verildi ki, 35/0,4 kilovoltluq "Cəbrayıl şəhər" yarımstansiyası qovşaq yarımstansiyası olmaqla 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyası, Zəngilan, Qubadlı rayonları və Hadrut qəsəbəsi ilə əlaqələndirilməklə 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olacaq.

Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin dispetçer idarəetmə sistemi həm mərkəzləşdirilmiş, həm də müstəqil funksional rejimlərdə istismar imkanına malikdir. Binanın dam örtüyündə yaradılan "yaşıl enerji" mənbəyinin şəbəkəyə inteqrasiyası həyata keçirilib.

# Konqres Mərkəzinin açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışını edib.**

Dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, ərazisi 2,2 hektar olan Zəngilan Konqres Mərkəzi Kompleksi iki hissədən ibarətdir. Kompleksə daxil olan 600 yerlik korpusda ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün müasir standartlara uyğun şərait yaradılıb. Digər korpusda isə kiçik həcmli müxtəlif çoxfunksiyalı tədbirlərin keçirilməsi üçün zal, mətbəx və VIP otaqlar mövcuddur.

Məlumat verildi ki, Zəngilan Konqres Mərkəzi Kompleksi yerli və xarici mütəxəssislər cəlb olunmaqla altı ay ərzində inşa edilib. Kompleksin tikintisinin qısa müddətdə başa çatdırılması üçün üçnövbəli iş qrafiki tətbiq olunub. Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşlarının da fəal iştirakı ilə tikinti işləri yüksək keyfiyyətdə və standartlara uyğun şəkildə aparılıb.

Kompleksin ərazisində yaşıllıq zonaları, yerüstü parklanma sahəsi mövcuddur. Mərkəzin binasının dam hissəsində günəş panelləri yerləşdirilib.

Gələcəkdə bu mərkəzdə ölkə və beynəlxalq əhəmiyyətli müxtəlif tədbirlərin keçirilməsi mümkün olacaq.



# “Cahangirbəyli” SES-in açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin “Cahangirbəyli” Su Elektrik Stansiyasının açılışında iştirak edib.**

“AzərEnerji” ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə yeni “yaşıl enerji” potensialının yaradılması ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, 2022-ci ilin payız aylarında “AzərEnerji” ASC tərəfindən Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində dörd yerdə hər birinin gücü 10,5 meqavat, ümumi gücü 42 meqavat olan su elektrik stansiyaları (SES) silsiləsinin tikintisinə başlanılıb. Artıq “Sarıqışlaq”, “Şayıflı” və “Zəngilan” SES-lərdə işlər yekunlaşmaqdadır, “Cahangirbəyli” SES-də isə işlər tamamlanıb.

Bildirildi ki, “Cahangirbəyli” SES üçün tikilən maşın zalında 5,25 meqavat gücündə Avropa istehsalı olan yaşıl sertifikatlı frensis tipli iki ekoturbin, generatorlar, məsafədən idarəedilən rəqəmsal avadanlıqlar quraşdırılıb. Stansiyada il ərzində 30 milyon kilovat-saatdan çox elektrik enerjisi istehsal ediləcək.

Prezident İlham Əliyevin cari ilin mayında tikintisinə baxış keçirdiyi bu 4 stansiyadan ibarət 42 meqavatlıq “Zəngilan” Su Elektrik Stansiyalar Silsiləsi işğaldan azad edilən ərazilərdə tamamilə yeni inşa edilən ilk ən böyük enerji istehsalı layihəsidir. Bu layihə rekord müddətdə – cəmi bir ilə ərsəyə gəlib. İndiyədək nə Azərbaycanda, nə də digər yerlərdə bu sayda, bu gücdə və bu müddətdə SES-lərin tikilməsi faktına rast gəlinməyib.

Bu dörd stansiyanı su ilə təmin etmək üçün “AzərEnerji” tərəfindən dəniz səviyyəsindən 600 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib. Eni 450, uzunluğu 250 metr olan qurğunun su tutumu 400-450 min kubmetrə bərabərdir. Bu qurğunun yaradılması enerji istehsalından əlavə, kənd təsərrüfatı və ekoloji cəhətdən olduqca əhəmiyyətli hadisədir. Baş suqəbuledicinin tikilməsi 30 il müddətində çirklənən çay yatağının təmizlənməsinə, flora və faunanın dirçəlməsinə də yardım edəcək.

Baş suqəbuledicidən çayın suyunun 35 faizi məcrasında saxlanılmaqla 23 kilometr məsafədə qoşa derivasiya boruları çəkilib. Borudan çıxan su təkrar çaya buraxılır. “Cahangirbəyli” SES-in ətrafında 8 mindən çox ağac əkilib.

Dövlətimizin başçısı “Cahangirbəyli” Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edək ki, Oxçuçay üzərindəki SES-lərin tikilməsi ilə bağlı Dövlət Ekoloji Ekspertiza Agentliyinin təşkilatçılığı və aidiyyəti dövlət qurumlarının, media və qeyri-hökumət təşkilatlarının iştirakı ilə açıq ictimai dinləmələr keçirilib və layihəyə yüksək qiymət verilib.

İşğaldan azad edilən ərazilərdə bolsulu çaylar üzərində “AzərEnerji” tərəfindən tikilən və gələcəkdə inşa olunacaq 370 meqavat gücündə SES-lər say və güc baxımından ölkənin digər yerlərində fəaliyyət göstərən azsulu çayların üzərində yerləşən 1060 meqavat gücündə böyük SES-lərdən üç dəfə az olmasına baxmayaraq, daha çox enerji istehsal edəcək. Çünki əsasən Azərbaycan ərazisində formalaşan bolsulu və iti axan dağ çayları üzərində tikilən yeni stansiyalar ölkənin digər yerlərindəki stansiyalardan fərqli olaraq, suyun azalan vaxtı da məhsuldar işləyir. Belə ki, avqust-sentyabr aylarında istehsal həcmi 25-30 faizə düşsə də, aprel-may aylarında 80 faizdən yuxarı olur və ilin bütün fəsillərində orta hesabla 40-42 faiz güclə çalışır. Digər yerlərdə isə bu göstərici 10-12 faizdir.

Beləliklə, işğaldan azad edilən ərazilərdə tam yeni tikilən 4 stansiyadan ibarət “Zəngilan” su elektrik stansiyaları silsiləsində il ərzində 130 milyon kilovat-saatdan artıq “yaşıl enerji” istehsal ediləcək. Bu da alternativ enerji mənbələrinə keçiddə çox böyük rol oynamaqla, Prezident İlham Əliyevin regionu “Yaşıl enerji” zonasına çevirməklə bağlı tapşırığının icrasına mühüm töhfədir. Silsilə SES layihəsi regionun enerji və iqtisadi inkişafına töhfə verməklə bərabər, əhalinin məşğulluğu baxımından da əhəmiyyətlidir.

# Zəngilanda şəhər məscidi



**Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən inşa edilən Zəngilan şəhər məscidində görülən işlərlə tanış olub.**

Dövlətimizin başçısına məsciddə görülən işlər barədə məlumat verildi.

Qeyd edək ki, Ermənistanın torpaqlarımızı işğal altında saxladığı illərdə Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən tövlə kimi istifadə olunub. İşğal altındakı ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində də bərpa-tikinti işləri başlanılıb. Heydər Əliyev Fondu tərəfindən təşkil olunan yerli və xarici ekspertlərdən ibarət işçi qrup məscidin mövcud binasını qiymətləndirib, binanın konservasiyası və bərpasına, o cümlədən bu ərazidə yeni məscidin tikilməsinə qərar verilib.

Zəngilanda inşa olunan məscidin təməli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2021-ci il aprelin 26-da qoyulub.

Ötən müddətdə yeni məscidin layihəsi işlənilib və tikintiyə başlanılıb. Məscidin inşası “Paşa Holding” MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib.

Hazırda məscidin daxili interyerində işlər davam etdirilir, o cümlədən, ərazidə abadlaşdırma işləri aparılır. Layihənin 2024-cü ilin aprelində başa çatdırılması nəzərdə tutulur.

# 160 yerlik uşaq bağçası tikilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 160 yerlik uşaq bağçasının təməlini qoyub.**



Dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, uşaq bağçası bir hektar ərazidə inşa olunacaq. Məktəbəqədər təhsil müəssisəsinin ikimərtəbəli binasında qrup, inzibati, texniki və tibb otaqları, idman və musiqi zalları, mətbəx, camaşırxana yaradılacaq. Burada uşaqların rahatlığı, ilkin biliklərə yiyələnmələri və əylənmələri üçün hər cür şərait təmin ediləcək.

Bağçanın həyətində oyun meydançaları salınacaq, avtodayanacaq və digər zəruri infrastruktur yaradılacaq.

Prezident İlham Əliyev uşaq bağçasının təməlini qoydu.

Qeyd edək ki, Azərbaycanda uşaqların təlim-tərbiyəsinə, sosial müdafiəsinin gücləndirilməsinə, vətənpərvər ruhda və sağlam yetişmələrinə daim xüsusi diqqət yetirilir. Bu məsələ işğaldan azad olunan ərazilərdə də diqqət mərkəzində saxlanılır. Hər cür şəraitə malik uşaq bağçalarının inşası Azərbaycan dövlətinin gələcəyimiz olan uşaqlarla bağlı bütün məsələlərə xüsusi həssaslıqla yanaşdığını bir daha sübut edir. İşğaldan azad olunmuş ərazilərdə bu cür müəssisələrin yaradılması bərpa edilən şəhər və kəndlərimizin simasına da əlavə rəng qatır.

***AZƏRTAC***

# Zəngilan kəndi bərpa edilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan rayonunda Zəngilan kəndinin təməlini qoyub.**

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Zəngilan kənd inzibati ərazisinə daxil olan bu kənd şəhər mərkəzindən 3,1 kilometr məsafədə, Oxçuçayın sahilində, Zəngilan-Mincivan yolunun üzərində düzənlik ərazidə yerləşir. Baş plana əsasən, Zəngilan kəndi İçəri Müşlan və Məlikli kəndləri ilə birlikdə layihələndirilib. Kəndin layihələndirilən ümumi ərazisi 111,3 hektardır.

Zəngilan kəndində 1631 sakin üçün 306 fərdi evin və 102 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin tikilməsi nəzərdə tutulur. Birinci mərhələdə Zəngilan kəndinə 489 sakinin köçürülməsi üçün 127 fərdi ev tikiləcək.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı və qonaq evinin tikintisi planlaşdırılıb. Burada əhalinin məşğulluğu üçün hər cür şərait yaradılacaq.

Bu kənddə də əhalinin resurslardan istifadəsini əlçatan etmək məqsədilə geniş istifadə olunan qeyri-yaşayış obyektləri bir neçə mövqedə yerləşdiriləcək.

Zəngilan kəndində 294 şagird yerlik tam orta məktəb, 60 və 40 yerlik iki uşaq bağçası da inşa olunacaq.

Dövlətimizin başçısı kəndin inkişaf planından bəhs edən videoçarxa baxdı.

Prezident İlham Əliyev Zəngilan kəndinin təməlini qoydu.

# Yeni yaşayış kompleksləri ucaldılacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 2-ci yaşayış kompleksinin təməlini qoyub.**

Dövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Bildirildi ki, Zəngilan şəhərinin Baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. Şəhərdə daha əvvəl təməli qoyulan 110 mənzildən ibarət ilk yaşayış kompleksinin layihələri hazırdır və yaxın vaxtlarda tikinti işlərinə başlanacaq.

Məlumat verildi ki, “Böyük Qayıdış” proqramına uyğun olaraq, növbəti yaşayış məhəllələrinin salınması çərçivəsində 410 mənzildən ibarət yeni yaşayış komplekslərinin tikintisi nəzərdə tutulur. İkinci yaşayış kompleksi Qələbə və Memorial parkların yaxınlığında, şəhərin azsıxlıqlı zonasında yerləşməklə, əsasən “taunhaus” tipli evlərdən ibarət olacaq. Plana əsasən, burada 87 mənzil nəzərdə tutulur.

Prezident İlham Əliyev 2-ci yaşayış kompleksinin təməlini qoydu.

* * *

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 3-cü yaşayış kompleksinin təməlini qoyub.**

Dövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Qeyd olundu ki, yaşayış kompleksi iki sahəyə bölünüb və hər biri üçün özünəməxsus konsepsiya hazırlanıb. Binaların memarlıq baxımından fərqliliyini təmin etmək məqsədilə onlar müxtəlif üslubda layihələndirilib.

Məlumat verildi ki, ümumi sahəsi iki hektar olan yaşayış kompleksində tikiləcək 3, 4 və 5 mərtəbəli çoxmənzilli binalar 8 blokdan və 192 mənzildən ibarət olacaq.

Prezident İlham Əliyev 3-cü yaşayış kompleksinin təməlini qoydu.

* * *

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 4-cü yaşayış kompleksinin təməlini qoyub.**

Dövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Bildirildi ki, kompleksin inşa olunacağı ərazi şəhərin ortasıxlıqlı çoxfunksiyalı zonasında, inzibati mərkəzin yaxınlığında yerləşir. Bu yaşayış kompleksinin ərazisi iki hektardır. Şəhərin təsdiq edilmiş Baş planına uyğun olaraq, kompleksdə 3, 4 və 5 mərtəbəli çoxmənzilli binaların inşası nəzərdə tutulur. Konsepsiyaya əsasən, buradakı yaşayış binalarının 131 mənzildən ibarət olması planlaşdırılır.

Prezident İlham Əliyev 4-cü yaşayış kompleksinin təməlini qoydu.

# Akademik Ziya Bünyadovun 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü ilin dekabr ayında Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, görkəmli tarixçi və şərqşünas alim, tanınmış ictimai xadim, tarix elmləri doktoru, professor, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun anadan olmasının 100 ili tamam olur.

Akademik Ziya Bünyadov zəngin elmi yaradıcılıq yolu keçmiş, respublikamızda şərqşünaslıq və tarix elmlərinin yeni mərhələyə yüksəlməsinə, ümumən, elmin təşkili işinə böyük əmək sərf etmişdir. Geniş erudisiyalı alim mənbəşünaslıq və orta əsrlər dövrü üzrə professional hazırlığa malik mütəxəssislərdən ibarət elmi məktəb formalaşdırmışdır. Ziya Bünyadovun fundamental araşdırmalarında orta əsr müsəlman Şərqi dövlətlərinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı dərin təhlillər əsasında dolğun əksini tapmışdır. İlk dəfə onun elmi ictimaiyyətə çatdırdığı və dilimizə mükəmməl surətdə çevirərək əhatəli müqəddimə və şərhlərlə nəşr etdirdiyi bir çox nadir mənbələr bu gün də davamlı istinad olunan ən mötəbər qaynaqlar sırasındadır. Ziya Bünyadov Azərbaycan xalqının tarixinin saxtalaşdırılması cəhdlərinə qarşı daim ardıcıl və qətiyyətli mübarizə aparmış, taleyüklü milli məsələlərə münasibətdə hər zaman vətənpərvər ziyalı mövqeyi ilə seçilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə tarix elminin inkişafına dəyərli töhfələr vermiş akademik Ziya Bünyadovun 100 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası akademik Ziya Bünyadovun 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 28 sentyabr 2023-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Qarabağ probleminin sülh yolu ilə həlli üçün 30 il gözlədikdən sonra məcburən müharibə edərək qalib gəldiniz. Böyük Zəfər qazanmağınız münasibətilə Sizi bir daha təbrik edirəm. Təəssüf ki, beynəlxalq aləmdə haqlı olmaq problemi həll etmir. Hərbi sahədə güclü olmaq lazımdır. Güclü olan haqlıdır. Siz Qarabağda bunu sübut etdiniz, güclü oldunuz və qalib gəldiniz.

Bu yaxınlarda Qarabağda həyata keçirilən antiterror tədbirləri zamanı şəhid olanlara Allahdan rəhmət, onların ailələrinə səbir diləyirəm.

Cənab Prezident, fürsətdən istifadə edərək onu da bildirirəm ki, sentyabrın 20-21-də Nyu-Yorkda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XXVI toplantısı uğurla keçdi. Nailiyyətlərin davamlı olmasını arzu edirəm.

Sizə cansağlığı arzulayır, dərin ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Hikmət ÇƏTİN,***
***1991-1994-cü illərdə Türkiyənin xarici işlər naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

* * *

**Hörmətli cənab Prezident!**

Sizi gözəl ölkənizin öz suverenliyini bərpa etməsi kimi tarixi nailiyyət münasibətilə təbrik edirəm. Bu hadisə həm də tarixi ədalətin bərpa olunmasıdır. Azərbaycan uzun illər işğaldan əziyyət çəkib, xeyli müddət yüz minlərlə vətəndaşınız öz evlərinə qayıda bilməyib.

Təqdirəlayiq haldır ki, dünyada qeyri-sabitliyin hökm sürdüyü bir vaxtda Sizin liderliyiniz və əzmkarlığınız sayəsində Azərbaycan suverenliyin və ərazi bütövlüyünün bərpa oluna, hüquqları pozulmuş insanların inamı özünə qaytarılmaqla işğala son qoyula və münaqişələrin həll edilə bilinəcəyi presedentini yarada bildi.

İşğalın yaratdığı çətinliklərə baxmayaraq, Azərbaycan ehtiyacla üzləşdikləri böhranlı vaxtlarda Gürcüstan və Ukrayna kimi strateji tərəfdaşlara həmişə dəstək olub.

Sizin Azərbaycanın bütün vətəndaşlarının təhlükəsizliyini və rifahını təmin edən, uğurlu multikultural və çoxmillətli cəmiyyət nümunəsi yaradan, eləcə də regional və qlobal təhlükəsizliyə töhfə verən siyasətinizin nailiyyətlərini görmək şərəfdir.

Sizə işlərinizdə uğurlar arzulayıram.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

# Baş nazir Əli Əsədov Tacikistanda

**Sentyabrın 28-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tacikistan Respublikasının Baş naziri Koxira Rasulzodanın dəvəti ilə "Düşənbə-2023" Beynəlxalq İnvestisiya Forumunda iştirak etmək üçün Düşənbə şəhərinə işgüzar səfərə gəlib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, səfər çərçivəsində Əli Əsədovun bir sıra ikitərəfli görüşləri planlaşdırılır.

***XQ***

# Qarabağın erməni sakinləri dinc həyata qaytarılır

**Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etmələrinə imkan yaradılması məqsədilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli üzrə İşçi qrupa həmin şəxslərin hüquqi statusunun müəyyən olunması ilə bağlı müvafiq tapşırıqlar verilib.**

Bu fəaliyyət çərçivəsində ilkin mərhələdə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin qeydiyyatının aparılması nəzərdə tutulur. Müraciətlərin qəbulu və qeydiyyata alınma prosesi Dövlət Miqrasiya Xidməti tərəfindən bu məqsədlə yaradılmış xüsusi portal vasitəsilə müraciət edən şəxslərin maksimum rahatlığı və informasiya əlçatanlığını təmin edəcək şəkildə elektron qaydada həyata keçiriləcəkdir.

İlkin qeydiyyata alınma Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bütün dövlət xidmətlərindən səmərəli şəkildə yararlanmasına, həmçinin sosial-iqtisadi və humanitar ehtiyaclarının qarşılanmasına imkan yaradacaqdır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası nəzərə çatdırır ki, Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilkin qeydiyyata alınmaq üçün könüllü şəkildə reintegration.gov.az portalına və ya aşağıdakı əlaqə vasitələri ilə müraciət edə bilərlər:

Telefon nömrəsi: +994 12 526 09 19

WhatsApp nömrəsi: +994 70 527 09 19

Elektron poçt ünvanı: info@reintegration.gov.az

Əlavə olaraq, yaxın zamanda müraciətlərin yerlərdə qəbulu təşkil ediləcəkdir.

***

Azərbaycan Respublikasının Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli və orada yaşayan erməni sakinlərinin ehtiyaclarının təmin olunması üçün təxirəsalınmaz tədbirlər davam etdirilir.

Sentyabrın 27-də bağçaların, təcili tibbi yardım və yanğın-söndürmə xidmətlərinin yanacaq-sürtkü materialları ilə təmin edilməsi məqsədilə Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə 32 ton benzin dolu növbəti avtomobil yola salınıb.

***

Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində ehtiyat yanacaq çənləri parkında baş vermiş yanğın 2023-cü il sentyabrın 26-da əraziyə göndərilən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri tərəfindən qısa müddətdə söndürülüb.

Hadisə ilə əlaqədar ərazidə axtarış-xilasetmə və digər zəruri təhlükəsizlik tədbirlərinin görülməsi məqsədilə 2023-cü il sentyabrın 27-də FHN-in növbəti 10 xüsusi təyinatlı nəqliyyat vasitəsi 50 nəfərdən ibarət şəxsi heyətlə Ağdam-Əsgəran-Xankəndi yolu ilə yola salınıb və artıq onlar tərəfindən müvafiq işlər həyata keçirilir.

***Azərbaycan Respublikası Prezidentinin Administrasiyası***

# Müsadirə edilmiş hərbi vasitələr

**Müdafiə Nazirliyi Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə sentyabrın 28-i saat 18:00-a olan məlumatı açıqlayıb.**

Həmin məlumatı təqdim edirik:

**SİLAHLAR**

1. Atıcı silahlar – 1151
2. Qumbaraatanlar – 84
3. Top və haubitsalar – 16
4. Minaatanlar – 39
5. Tank əleyhinə silahlar – 22
6. HHM silahları – 132

**TEXNİKA**

1. Zirehli texnika – 18
2. Avtomobil texnikası – 120
3. Qoşqular – 21
4. Yardımçı texnika – 5

**DÖYÜŞ SURSATLARI**

1. Raketlər – 984
2. Top və haubitsa mərmiləri – 2722
3. Zenit top mərmiləri – 2627
4. Minaatan mərmiləri – 6653
5. Qumbaralar – 2266
6. Əl qumbaraları – 1368
7. Patronlar – 652842
8. Digər sursatlar – 2132

**CİHAZLAR**

1. Optik cihazlar – 216
2. Digər cihazlar – 31

**TƏCHİZAT**

1. Fərdi təchizat vasitələri – 677
2. Müxtəlif silahların qurğuları – 8
3. Digər təchizat vasitələri – 2076

# Birinci vitse-prezident Mehriban Əliyeva Qənirə Paşayevanın dəfni ilə bağlı məsələləri nəzarətə götürüb

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, Milli Məclisin deputatı Qənirə Paşayevanın dəfni ilə bağlı məsələlər nəzarətə götürülüb.**

Bu barədə jurnalistlərə açıqlamasında deputatın əmisi Qəzənfər Paşayev deyib. O bildirib ki, Qənirə Paşayevanın dəfn mərasimi sabah İkinci Fəxri xiyabanda olacaq.

Qeyd edək ki, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, deputat Qənirə Paşayeva sentyabrın 28-də müalicə olunduğu Mərkəzi Klinik Xəstəxananın Reanimasiya şöbəsində vəfat edib.

***XQ***

# Elçin Əmirbəyov: dinc qonşuluqdan başqa yol yoxdur




**Azərbaycan Qarabağın erməni sakinlərinin öz ana dilindən, mədəniyyətindən və dinindən istifadə etməklə bağlı hüquq və imkanlarını heç bir şəkildə məhdudlaşdırmaq niyyətində deyil.**

Bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov BBC-yə müsahibəsində deyib.

"Bizim üçün heç vaxt keçilməsinə icazə verməyəcəyimiz yeganə qırmızı xətt suverenliyimizi və ərazi bütövlüyümüzü şübhə altına ala biləcək məsələlərdir", – o vurğulayıb. Onun sözlərinə görə, Azərbaycan və Ermənistanın mehriban qonşu olmaqdan başqa yolu yoxdur: "Əgər bizim bir-birimizlə düşmənçilik üçün heç bir əsasımız yoxdursa, Azərbaycan və Ermənistan liderləri ən yüksək siyasi səviyyədə ərazi bütövlüyünün tanındığını bəyan ediblərsə, deməli, Ermənistanın dinc qonşu olmaqdan başqa yolu yoxdur".

Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi qeyd edib ki, Azərbaycan hərbçiləri son ildırımsürətli antiterror tədbirləri zamanı mülki əhali arasında itkilərin qarşısını almaq üçün mümkün olan hər şeyi etməyə çalışıblar: "Antitteror tədbirləri bir gündən az davam edib və cərrah dəqiqliyi ilə həyata keçirilib. Bütün bunlar hərbi hədəfləri zərərsizləşdirməyə yönəlmiş yüksək dəqiqliklə həyata keçirilmiş addımlar idi".

* * *

Hazırda Qarabağ bölgəsinin erməni sakinlərinin Azərbaycan ərazisini tərk etməsi onların könüllü və fərdi qərarıdır. Bunun məcburi yerdəyişmə və ya Azərbaycanın onların tərk etmək istəyi ilə heç bir əlaqəsi yoxdur. Onların həqiqətən seçimi var. Xüsusilə vurğulamaq lazımdır ki, biz onları çoxmillətli Azərbaycanın tərkibində qalmağa və bir hissəsi olmağa çağırdıq. Baxın, Azərbaycan hakimiyyəti son bir neçə gündə nə edir - hər cür humanitar yardım, zəruri mallar, dərmanlar çatdırır, yanğınsöndürən maşınlar göndərir, biz artıq gecə-gündüz elektrik təchizatı qurmuşuq.

Bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov BBC-yə müsahibəsində deyib.

"Azərbaycanı tərk edən ermənilər geri qayıda biləcəklər. Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağda baş verdiyi iddia edilən qondarma "etnik təmizləmə" ilə bağlı bəyanatını qətiyyətlə pisləyir və rədd edirik. O, təkcə sentyabrın 21-də Azərbaycan hakimiyyəti tərəfindən yerli ermənilərə heç bir təhlükə olmadığını deyən öz bəyanatlarından geri çəkilmir, həm də onun dedikləri Azərbaycanın yerli ermənilərə humanitar yardım çatdırmaq səylərini və reinteqrasiya prosesini pozmağa yönəlib. Bu, həm də Azərbaycan və Ermənistan arasında sülh sazişinin mümkün perspektivlərini sarsıdır", - deyə Elçin Əmirbəyov bildirib.

Qeyd edək ki, Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirləri separatçıların təslim olması ilə nəticələnib. Sentyabrın 28-də isə Qarabağdakı separatçılar özlərini buraxdıqlarını elan ediblər.

***XQ***

# XİN: görüşlər, danışıqlar, bəyanatlar



**Sentyabrın 28-də xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifələrini icra edən Yuri Kimlə görüşüb.**

Görüşdə Azərbaycanın antiterror tədbirlərindən sonra bölgədə cari vəziyyət, eləcə də humanitar yardım məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədə əsas təhdid olan qanunsuz erməni silahlı qüvvələrinin mövcudluğuna son qoyulmasının sülh və sabitliyə xidmət edəcəyini diqqətə çatdırıb.

Tərk-silah prosesi, erməni sakinlərin ehtiyaclarının qarşılanması istiqamətində ölkəmizin həyata keçirdiyi tədbirlər, erməni sakinlərin reinteqrasiyası üzrə aparılan danışıqlar barədə qarşı tərəfə məlumat verilib.

Hazırda Azərbaycana qarşı davam edən qarayaxma kampaniyasının heç bir əsasının olmadığı, Azərbaycanın erməni sakinlərə heç bir təhdid törətmədiyi diqqətə çatdırılıb. Azərbaycana qarşı səslənən iddiaların əsassız olduğunun, bunun sübut edilməsi üçün Azərbaycanın BMT-nin ölkəmizdəki Rezident Əlaqələndiricisinin rəhbərliyi altında BMT orqanlarının Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkil edilməsinə hazır olduğumuz bildirilib.

Görüşdə tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov ilə Böyük Britaniyanın Avropa regionu üzrə dövlət naziri Leo Dokerti arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı, iki ölkə arasında əməkdaşlıq gündəliyi, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycan tərəfindən Qarabağ bölgəsində görülən lokal antiterror tədbirlərindən sonra bölgədə mövcud vəziyyət barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Görülən antiterror tədbirlərinin, eyni zamanda, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin cəmiyyətimizə reinteqrasiyasına təkan verdiyi, bu xüsusda Azərbaycan Hökumətinin nümayəndəsi ilə yerli erməni sakinlərin nümayəndələri arasında aparılan təmasların nəticəsində həmin sakinlərin ehtiyaclarının qarşılanması istiqamətində tərəfimizdən əməli addımların atıldığı bildirilib.

***

**Dünən xarici işlər naziri Ceyhun Bayramov ilə Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov arasında telefon danışığı olub.**

Nazir Ceyhun Bayramov Özbəkistanın paytaxtı Daşkənd şəhərində beynəlxalq hava limanı yaxınlığında baş vermiş partlayış ilə əlaqədar qardaş Özbəkistan dövləti və xalqına öz başsağlığını çatdırıb, partlayış nəticəsində yaralananlara şəfa arzu edib. Nazir Baxtiyor Saidov, başsağlığı və dəstək mesajına görə təşəkkür edərək, bu dəstəyin ölkələrimiz arasındakı dostluq, qardaşlıq və həmrəyliyə əsaslanan münasibətlərin daha bir göstəricisi olduğunu diqqətə çatdırıb.

***

**Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin, guya, "etnik təmizləmə"yə məruz qaldığı barədə sentyabrın 28-də verdiyi bəyanatını qətiyyətlə pisləyir və rədd edirik.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin sözügedən bəyanata dair şərhində bildirilib. Qeyd olunub ki, bu "rəvayət" Ermənistan baş nazirinin Azərbaycan tərəfindən erməni sakinlərə qarşı heç bir təhlükənin olmadığını söylədiyi 21 sentyabr tarixli bəyanatı ilə ziddiyyət təşkil edir. Bununla yanaşı, sonuncu bəyanat Azərbaycanın humanitar dəstək və reinteqrasiya istiqamətində göstərdiyi səyləri pozmağa və iki ölkə arasında sülhün mümkün perspektivlərini sarsıtmağa hədəflənib.

Ermənistan rəhbərliyi, Azərbaycanın mərkəzi hökumət institutlarının operativ şəkildə Qarabağ bölgəsində yaşayan erməni sakinlər üçün zəruri humanitar dəstək tədbirlərinin həyata keçirilməsinə və təcili ehtiyaclarının ödənilməsinə başladığını nəzərdən qaçırır.

"Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin gedişinin onların şəxsi və fərdi qərarı olduğu, bunun məcburi yerdəyişmə ilə heç bir əlaqəsi olmadığı baş nazir Paşinyana yaxşı məlumdur. Əgər erməni sakinlərinin hansısa seqmenti Azərbaycan qanunvericiliyi və hakimiyyəti çərçivəsində yaşamaq və ona tabe olmaq istəmirsə, onları buna məcbur edə bilmərik. Bunun əksinə, biz erməni sakinləri öz yaşayış yerlərini tərk etməməyə və multietnik Azərbaycan cəmiyyətinin bir hissəsi olmağa çağırırıq", - deyə XİN-in şərhində vurğulanıb.

***

**Ermənistan Xarici İşlər Nazirliyinin 27 sentyabr tarixli, 44 günlük Vətən müharibəsi, habelə müharibədən sonra görülən tədbirlər barədə beynəlxalq ictimaiyyəti yanlış yönləndirən bəyanatını qətiyyətlə pisləyirik.**

Bu fikir Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistan XİN-in bəyanatına dair şərhində əksini tapıb. Qeyd olunub ki, Ermənistan Xarici İşlər Nazirliyi bu bəyanatı ilə Azərbaycan ərazilərinin 30 ildən artıq hərbi təcavüzünə və işğalına, Azərbaycana qarşı törədilmiş kütləvi qırğınlara və insanlığa qarşı cinayətlərə görə məsuliyyətini açıq şəkildə inkar edərək saxta rəvayətlər yaymaqda davam edir.

"Azərbaycanın Ermənistanın işğalına və təcavüzünə qarşı apardığı müharibə hər zaman ədalətli olub və bu ilin sentyabrında Azərbaycanın antiterror tədbirləri beynəlxalq hüququn bütün norma və prinsiplərinə açıq şəkildə zidd olaraq Azərbaycanda yerləşdirilmiş qeyri-qanuni erməni silahlı qüvvələrinin yaratdığı təhlükəni legitim olaraq aradan qaldırıb.

Vurğulayırıq ki, üstəlik, Ermənistan XİN-in yalanlarına zidd və Ermənistanın özündən fərqli olaraq, Azərbaycan heç bir zaman dinc erməni əhalisini hədəf almayıb. Biz bir daha bildiririk ki, Qarabağ bölgəsində yaşayan yerli erməni sakinlərin Ermənistana və ya başqa ölkəyə köçmək qərarı ilə Azərbaycanın heç bir əlaqəsi yoxdur.

Ermənistanın Azərbaycan ərazilərində qurduğu separatçı rejimin onun gözləri qarşısında necə dağıldığını və yox olduğunu görməsinin nə qədər ağrılı olduğunu anlayırıq, lakin indi onlar üçün Azərbaycanla ərazi bütövlüyünə və suverenliyə həm sözdə, həm də əməldə hörmətə əsaslanan sülh və etimad qurmağa diqqət yetirmək daha yaxşı olardı", - deyə Azərbaycan XİN-in şərhində bildirilib.

***XQ***

# FHN axtarış-xilasetmə işlərini davam etdirir

**Azərbaycan Fövqəladə Hallar Nazirliyinin əməkdaşları Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində baş vermiş yanğın və partlayışla əlaqədar hadisə yerində axtarış-xilasetmə işlərini davam etdirirlər.**

Azərbaycanın Xankəndi şəhərinin yaxınlığında yanacaqdoldurma məntəqəsində baş vermiş yanğın Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri tərəfindən qısa müddətdə söndürülüb.

Qeyd edək ki, ötən gün axtarış-xilasetmə və digər zəruri təhlükəsizlik tədbirlərinin görülməsi məqsədilə FHN-in 10 avtomobili və 50 nəfərlik heyəti hadisə yerinə yola salınıb.



***XQ***

# Xoşbəxtik ki...



## İlham Əliyev nəhəngliyi... qondarma "DQR" üçün nekroloq əvəzi

*(əvvəli 1-ci səhifədə)*

Bəli, 200 illik erməni layihəsi məhv oldu. Elə bir layihə ki, hədəfi təkcə Azərbaycan yox, bütövlükdə, Türk dünyası idi. Axı, ermənilər Qafqaza türk-müsəlmanlar içərisinə, belə demək mümkünsə, paz olmaq, rəxnə salmaq üçün yerləşdirilmişdilər. XIX əsrin əvvəllərində onların bu coğrafiyaya köçürülməsinin məqsədi bu idi. "Erməni pazı"nı bölgəmizə yeridənlər onların millətçiliyinə, hər cür qansızlığına, başımıza gətirdikləri oyunlara, faciələrə, soyqırımı aktlarına susqunluqla, ölü sükutla yanaşdılar. Hesab etdilər ki, məqsəd vasitəyə bəraət qazandırır.

Azərbaycan 1918-ci il müstəqilliyini əldə edəndə də bu şirin neməti xalqımıza çox gördülər. Torpaqlarımız hesabına erməni dövləti yaratdılar. Sanki, müstəqil dövlət olduğumuz üçün erməni millətçiliyi ilə cəzalandırıldıq. Cəzalandırmaq hissi o qədər böyük oldu ki, SSRİ dövründə də ərazilərimizi Ermənistana mükafat, pay olaraq verdilər. Ulu öndər Heydər Əliyev Azərbaycanda birinci dəfə rəhbərliyə gəlməklə, növbəti itkilərimizin qarşısını aldı, digər mənfur planların önündə canlı sipərə çevrildi. Dahi şəxsiyyətin SSRİ rəhbərliyindən uzaqlaşdırılması isə dərhal erməni avantürizminə qol-qanad verdi.

Bəli, SSRİ-nin birinci və sonuncu prezidenti Mixail Qorbaçovun keçmiş imperiya rəhbərliyində hakimiyyətə gəlməsi erməni millətçiliyi üçün tarixi şans idi. Nəzərə alaq ki, 1987-ci ildə Heydər Əliyevə qarşı məkrli oyunda da bu millətçilik öz mənfur işini görmüşdü. Bütün bəlalarımız elə o zamandan başlamışdı. Azərbaycanın tərkibində hələ 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayəti özünün "müstəqillik" sevdasına düşməyə başlamışdı. Nəhayət, 10 dekabr 1991-ci ildə azərbaycanlıların boykot etdiyi və yalnız ermənilərin qatıldığı "referendumun" nəticəsinə görə, ərazi "müstəqillik" qazanmış, 6 yanvar 1992-ci ildə isə bu "müstəqillik" elan edilmişdi. Bunadək isə bölgənin dinc azərbaycanlılarına qarşı quldurluq əməlləri həyata keçirilmiş, onların qovulmasına start verilmişdi.

Ardınca baş verənlər hamıya yaxşı məlumdur. Ermənistan və havadarları 1992–1994-cü illərdə nəinki Qarabağın, eyni zamanda, keçmiş DQMV-dən kənarda olan Azərbaycan torpaqlarının da işğalını həyata keçirdilər. Bir milyondan çox azərbaycanlını öz doğma yurd-yuvalarından didərgin saldılar, onlara məcburi köçkünlük taleyi yaşatdılar. Otuz ilə yaxın davam etmiş bu dövrdə Azərbaycanımız çox ağrı-acılara şahidlik etdi. Lakin xalqımız sınmadı.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı erməni məkrinin digər niyyətlərinin də gerçəkləşməsinə maneçilik törətdi. Ölkəmiz iqtisadi tənəzzül dövrünü geridə qoyaraq, inamlı inkişaf yoluna qədəm qoydu. Əvvəldə də vurğuladığımız kimi, Heydər Əliyev Qarabağ niskilinə ideoloji məzmun qazandırdı. Bu fəaliyyət Ermənistanla yanaşı, onun tərəfindən dəstəklənən qondarma "DQR"in də legitimliyinə nail olmaq cəhdlərinin qarşısına böyük sədd çəkdi. Heydər Əliyev dünyanın ən nüfuzlu tribunlarından Azərbaycanın haqq səsini, Qarabağ həqiqətlərini səsləndirdi. Ulu öndər həmin nüfuzlu tədbirlərdə tariximizi, milli kimliyimizi yüksək səslə ifadə edərək, erməni yalanlarına qarşı cəbhə açdı, ölkəmizin ədalətli mövqeyini təbliğ və təşviq etdi. Ən əsası isə xalqımızın Qarabağın azad edilməsinə olan inamını sarsılmağa qoymadı.

Prezident İlham Əliyev Heydər Əliyev tərəfindən əsası qoyulmuş Qarabağ savaşının həm ideoloji motivlərini zənginləşdirdi, həm bu davanın aparıldığı beynəlxalq platformaların sırasını genişləndirdi, həm də Azərbaycanı qüdrətli dövlətə çevirərək Qarabağı və digər torpaqlarımızı işğaldan qurtarmaq üçün təpər yaratdı. Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti Qarabağ əzmini daim diri saxlamağa, doğma yurd-yuvalarımıza qovuşmaq inamını dərinləşdirməyə hesablanmışdı. Cənab İlham Əliyev düşünülmüş siyasəti, rasional və proqmatik yanaşmaları ilə Qələbənin öz anını gözlədi. Ona güvənən, taleyini ona əmanət edən xalqımız da dövlət başçısı ilə birgə səbrini sınağa çəkdi. Nəhayət, o an yetişdi.

***

44 günlük müharibə həm Ermənistana, həm dünya erməniliyinə, həm də bu iki qütbün bəslədiyi qondarma "DQR"ə böyük təlatüm yaşatdı. Vətən müharibəsi nəticəsində Ermənistanın təkcə ordusu məhv olmadı, eyni zamanda, işğalçı ölkənin Qarabağ adlı çürük ideologiyasına da böyük zərbə vuruldu. 200 illik avantüranın söykəndiyi bütün "müqəddəsliklər" yerə çırpıldı. Əslində, "DQR"in "ölüm hökmü" məhz onda çıxarılmışdı. Sadəcə, separatçı rejimin quldur başçıları buna inanmır, özlərini elə aparırdılar ki, sanki, müstəqil dövlətdirlər. Bu sarsaq "müstəqillər" kimlərinsə xaricdən onlara kömək edəcəyinə, beləliklə, saxta sevdalarının davamının gələcəyinə ümid bəslədilər. Ancaq bu, daha çox suda boğulanın saman çöpündən yapışmasına bənzədi.

Azərbaycan Prezidenti İlham Əliyevin 44 günlük müharibədən sonra da davam etdirdiyi inamlı siyasəti ilə Qarabağda separatizm çənbəri hər ötən gün getdikcə daralmağa başladı. Dövlətimizin başçısının mahir gedişləri sayəsində həm Ermənistanın, həm də "DQR"in xilas çırpıntıları boşa çıxdı. Ölkəmiz bütün dünyaya əzmlə göstərdi ki, öz ərazisində hansısa separatçı birləşmənin mövcudluğuna imkan verməyəcək.

"Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm!", – deyən Prezident İlham Əliyev bütün vədlərinə əməl etdiyi kimi, özünün Qarabağ məramını da tam şəkildə yerinə yetirdi. Ölkəmizin bu il sentyabrın 19-da başlatdığı və cəmi 23 saat 43 dəqiqə davam etmiş lokal xarakterli antiterror tədbirləri "Artsax" sarsaqlığına tarixdə heç vaxt görünmədiyi tərzdə toy tutdu. Necə deyərlər, "Dağlarda toy"un ikinci hissəsi yaşandı. Halbuki, Azərbaycan lideri hələ 2019-cu ildə Soçidə Valday Diskussiya Klubunda iştirakı zamanı demişdi: "Hazırda özləri üçün qondarma adlar uyduran separatçılar, – biri özünü prezident adlandırır, biri özünü nazir adlandırır, biri nə bilim nə, parlament sədri adlandırır, – bu təlxəklər toplusu, nəhayət bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz".

Prezident İlham Əliyev 44 günlük müharibədən sonra, 2020-ci ilin dekabrın 1-də də bildirmişdi: "Azərbaycan qondarma "Dağlıq Qarabağla" danışıqlar aparmalıdır, hanı o şərt? Cəhənnəmə getdi. "Dağlıq Qarabağ Ermənistandır və nöqtə" – bunu necə deyərlər, belə böyük həvəslə, bir qəhrəman kimi Xankəndidə bəyan etdi və hamı da ona əl çalırdı. Nə oldu? Qarabağ Ermənistandır? Gəlsin desin bunu. Qarabağ Azərbaycandır! Ona o əl çalanlar, o kriminal rejimin nümayəndələri indi ya məhv olublar, ya fərarilik ediblər".

Bəli, 44 günlük müharibədən sonra gördük ki, nə Ermənistan, nə də Qarabağdakı separatçı rejim xəbərdarlıqlardan nəticə çıxarmır. Onlar nəinki nəticə çıxarmadılar, üstəlik, müxtəlif xarici qüvvələrin verdikləri dəstək bəyanatlarına güvənib illüziyalara qapıldılar. Belə bir durumda Prezident İlham Əliyev 2023-cü il mayın 28-də Laçın rayon sakinləri ilə görüş zamanı qondarma "DQR" üçün, belə demək mümkünsə, nekroloq səsləndirdi: "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb – Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Guya, orada "parlament" fəaliyyət göstərir, guya, orada prezident var, guya, nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki, hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər. Onu da bildirməliyəm ki, son vaxtlar beynəlxalq təşkilatlar faktiki olaraq bizim mövqeyimizlə tamamilə razılaşıblar. Bunu mən müxtəlif görüşlər əsnasında artıq görürəm. Yəni, nəyə görə razılaşıblar? Ona görə ki, biz haqlıyıq və ona görə ki, biz mövqeyimizdən kənara bir addım belə atmırıq. Ona görə bu gün nə müstəqillikdən, nə muxtariyyətdən, nə başqa bir şeydən heç kim artıq söhbət açmır. Sadəcə olaraq, bizə gələn son mesajlar belədir ki, bəs orada dırnaqarası rəhbərliyin aqibəti necə olacaq? Onlara amnistiya düşürmü, düşmürmü? Mən isə deyirəm ki, buna baxmaq lazımdır".

***

Sonda əvvəldə ifadə etdiyimiz fikir notlarına bir daha qayıtmaq istərdik. Biz, sözün əsl mənasında, xoşbəxt xalqıq. Xoşbəxtik ki, inanılmazı gerçəkləşdirmişik, xəyallarımızı reallaşdırmışıq, arzularımızı çin eləmişik. Xoşbəxtik ki, ərazi bütövlüyümüzə nail olmuş, suverenliyimizi tam bərpa etmişik. Xoşbəxtik ki, namusumuzu təmizləmişik, bizə illərlə rahatlıq verməyən vicdanımızdakı ləkəni söküb atmışıq. Bu gün dünyaya məğrurluq, yenilməzlik, barışmazlıq örnəyiyik.

Üzümüz ağ, alnımız açıqdır. Xoşbəxtik ki, müstəqil, güclü və qüdrətli dövlətimiz – müstəqil Azərbaycanımız var. Nəhayət, çox xoşbəxtik ki, Prezident İlham Əliyev kimi müdrik, qalib liderimiz var.

***Əflatun AMAŞOV,***
***baş redaktor***

# Oğulların qanı ilə qazanılan Haqq

## *Azərbaycan əsgərinin qeyrəti "Artsax"ı gora göndərdi*



**Böyük Mustafa Kamal Atatürk "Türk gəncliyinə müraciət"ində bildirmişdi: "Ey türk istiqbalının övladı! Bax, belə bir vəziyyət və şəraitdə də vəzifən türk istiqlal cümhuriyyətini xilas etməkdir. Möhtac olduğun qüdrət damarlarındakı əsl qanda mövcuddur!"**

Bəli, biz də iki əsr idi ki, bir qüdrətə möhtac idik. O qüdrət bizim əsgər, zabit balalarımızın qanında imiş. O qan, sanki, bizim hər birimizə çinar qaməti verdi, biləyimizi polada, ürəyimizi dağa döndərdi və babamızın torpaqlarında qurulmuş "gavur dövləti"ni tarixin arxivinə göndərdi.

Azərbaycan oğulları Qarabağda və Şərqi Zəngəzurda indiki uğurları qazanmaq üçün nə qədər qan tökdü, İlahi! Qeyrətli, aslanbiləkli övladlarımızın yaralı damarından axan, adı çəkilən ərazilərimizin hər addımını "qızardan" türk qanı nə qədər qüdrətli imiş? Su dəyəndə palçıq olan torpaq, qan qarışanda Vətən oldu. Bu qan çoxsaylı himayədarlarının köməyi ilə 200 il xalqımıza qarşı min bir fitnə-fəsad quran düşmənin "öz əli ilə öz dövlətini tarixdən silməsinə əmr, fərman imzalatdı. Nə xoş xəbərdir.

Ölkəmizin və regionun kütləvi informasiya vasitələrində dünən yayılan "Dağlıq Qarabağ Respublikası" buraxıldı" adlı xəbəri eşidəndə ürəyimdən Azərbaycan əsgərinin rəşadətinə, dövlət başçımızın siyasi iradə və qətiyyətinə, xalqımızın Ali Baş Komandana və orduya heç zaman olmadığı kimi nümayiş etdirdiyi sədaqətə şükr etmək istəyi keçdi. Baş verənləri əlli milyonluq xalqın iki əsr gözlədiyi xoş xəbərin yayılması kimi qəbul etdim.

Söhbət ondan gedir ki, işğalçı qonşularımızın Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədləri daxilində yaratdıqları tanınmamış "Dağlıq Qarabağ Respublikasının" prezidenti Samvel Şahramanyan sentyabrın 28-də "Dağlıq Qarabağ Respublikasının" mövcudluğuna son qoyulmasını nəzərdə tutan fərman imzalayıb. Başqa vaxt olsaydı, "Muştuluğu məndən" deyərdim. Amma indi nəmərə ehtiyac yoxdur. Çünki onların nəmərini bizim cavanlar 44 günlük İkinci Qarabağ müharibəsi zamanı veriblər. Bəli, adı çəkilən sənədə görə, rejimin bütün "dövlət qurumları" və "təşkilatları" 1 yanvar 2024-cü il tarixinədək buraxılacaq. Jurnalistlərin sözü olmasın, "başqa sözlə desək" Qarabağ 1989-cu ildən bəri ilk dəfə azad nəfəs alacaq. Azad nəfəs isə böyük sərvətdir.

Araik Arutyunyanın "Yusif Sərraca çevirdiyi" Samvel Şahramanyanın imzaladığı sənəddə göstərilir ki, Dağlıq Qarabağın əhalisi, o cümlədən, respublikadan kənarda yerləşən əhali bu fərman qüvvəyə mindikdən sonra gələcəkdə Qarabağda yaşamaq barədə müstəqil və fərdi qərar qəbul etmək üçün Azərbaycan Respublikasının təqdim etdiyi "Dağlıq Qarabağda qalma (qayıtmaq) mümkünlüyü haqqında" reinteqrasiya şərtləri ilə tanış olsunlar."

Bunun isə açması odur ki, SSRİ-nin ilk və sonuncu prezidenti Mixail Qorbaçovun Cənubi Qafqazdakı əl izlərindən daha biri cəhənnəmə vasil olur. Xatırladaq ki, məhz Qorbaçovun start verdiyi yenidənqurma siyasəti SSRİ məkanında "yenidənqırma" kimi davam etdirilmiş, müttəfiq respublikalara qarşı açıq-açığına ayrıseçkilik siyasəti aparılmışdır. Elə tanınmamış "Dağlıq Qarabağ Respublikası" da həmin sarsaq siyasətin eybəcər "övladı" idi.

Heç kəsin yadından çıxmayıb, bu "respublika" 10 dekabr 1991-ci ildə yerli azərbaycanlıların baykot etdiyi və yalnız erməni sakinlərin qatıldığı referendumdan sonra 6 yanvar 1992-ci ildə elan edilmişdi. Ancaq həmin uydurma qurum Ermənistan da daxil olmaqla heç bir ölkə tərəfindən dövlət kimi tanınmamışdı. Mən bilən, bundan sonra da tanınmayacaq. Ancaq, sonralar Artsax kimi sarsaq ad verilmiş həmin respublika hamı tərəfindən "bic doğulduğuna görə anası tərəfindən öldürülmüş uşaq" kimi tarixə düşdü.

Sonda bir mühüm məqamı yada salmaq istəyirəm. Belə ki, bu il iyulun 22-də Şuşada "Euronews" televiziyasına müsahibə verən Azərbaycan Prezidenti İlham Əliyev Qarabağda yaşayan erməniəsilli vətəndaşlarımıza müraciət edərək demişdi: "Onlar qondarma liderlərinin arxasınca getməməlidirlər. Bu "liderlər" – hazırkı və bundan əvvəlki "liderlər", – onlara bütün bu müddət ərzində – müharibədən əvvəl, müharibə zamanı qalib gəldiklərini deyəndə yalan danışıblar. Hətta biz Şuşaya nəzarəti ələ alanda onlar deyirdilər ki, Şuşa onların nəzarəti altındadır. Onlar bunu çox yaxşı bilirlər. Onlar Xankəndidə hakimiyyəti ələ keçirmiş və əsas məqsədi öz maraqlarını güdmək olan bugünkü rejimin girovuna çevrilməməlidirlər. Qarabağdakı ermənilərə xatırlatmaq istərdim ki, biz onlarla təmaslara dərhal başladıq".

Dövlət başçımızın həmin müsahibədə Ermənistan rəhbərliyinə ünvanlanan mesajları da olduqca maraqlı idi: "Mənim konkret olaraq bu vəziyyətdə Ermənistan hökumətinə artıq çatdırdığım başqa bir mesaj ondan ibarətdir ki, onlar üçün seçim çox pis və qəbulolunan arasındadır ki, qəbulolunan seçim sağlam düşüncəyə, beynəlxalq hüquqa və azərbaycanlıların 30 il ərzində məhrum edildikləri öz torpaqlarında yaşamaq hüququnun tanınmasına əsaslanır".

Bəli, azərbaycanlılar, türk dünyası və ümumiyyətlə, mütərəqqi bəşəriyyət Cənubi Qafqazda haqqın, ədalətin bərpasını istəyir və tələb edirdi. Çox gec olsa da, regionumuz həmin haqqa, ədalətə qovuşa bildi. Bizi bu vüsala çatdıran şəhidlərimizə və qazilərimizə daim borclu olacağıq. Zəfərin mübarək, Azərbaycan!

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Dünya prokurorları Bakıya toplaşacaq

**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının 28-ci illik konfransı və ümumi yığıncağında iştirak etmək məqsədilə Londonda işgüzar səfərdə olub. Tədbirdə qərara gəlinib ki, Ümumdünya prokurorlarının növbəti iclası Bakıda keçirilsin.**




Assosiasiyanın təntənəli bayraq mərasimində çıxış edən Baş prokuror təşkilatın bayrağını rəsmən qəbul edərək, tədbir iştirakçılarını 2024-cü ilin sentyabrında Bakıda keçiriləcək ümumdünya prokurorlarının 29-cu konfransına dəvət edib.

Səfər çərçivəsində Baş prokuror Britaniyanın Kral Prokurorluq Xidmətinin rəhbəri Maks Hill ilə görüşüb. Kamran Əliyev ötən ilin avqustun 4-də Azərbaycanın Londondakı səfirliyinin inzibati binasına hücum edən radikal dini qruplaşma üzvlərinin cinayət məsuliyyətinə cəlb edilərək məhkum edilmələri və bu məsələdə Azərbaycan prokurorluğu ilə sıx əməkdaşlığa görə təşəkkür ifadə edib.

Baş prokuror Krallığın Daxili İşlər Nazirliyinin Ekstradisiya məsələləri üzrə rəhbəri Harj Dersi ilə görüşündə isə cinayət törətməkdə təqsirləndirilərək beynəlxalq axtarışa verilmiş şəxslərin təhvil verilməsi məsələləri müzakirə edilib, bu sahədə birgə fəaliyyət və sıx əməkdaşlıq edilməsi barədə razılıq əldə olunub.

Həmçinin Baş prokuror Sinqapur, ABŞ, Braziliya, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, Ukrayna, Monqolustan və digər ölkələrdən olan həmkarları ilə görüşlər keçirib, sentyabrın 19-da müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Qarabağ bölgəsində aparılan lokal antiterror tədbirləri barədə onları məlumatlandırıb.

Konfrans çərçivəsində ölkəmizin sədrliyi ilə Assosiasiyanın Anti-korrupsiya Prokurorları Şəbəkəsinin xüsusi maraq qrupunun növbəti sessiyası keçirilib.

***XQ***

# ÇXR-in 74 illiyi münasibətilə qəbul

**Sentyabrın 28-də Gülüstan sarayında Çinin Azərbaycandakı səfirliyi milli bayram – Çin Xalq Respublikasının yaradılmasının 74-cü ildönümü münasibətilə qəbul təşkil edib.**

Çinin Azərbaycandakı səfiri xanım Quo Min çıxış edərək Çinin son 74 ildə əldə etdiyi böyük nailiyyətlərdən danışıb.

Səfir Quo Min qeyd edib ki, 31 il bundan əvvəl əsası qoyulan Çin–Azərbaycan diplomatik münasibətləri beynəlxalq vəziyyətin dəyişməsi fonunda zamanın sınağından çıxıb. İki ölkəni möhkəm dostluq, tərəfdaşlıq və ortaq tale birləşdirir. Ötən ilin sentyabrında Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddə keçirilən sammiti zamanı Çin Sədri Si Cinpinlə Azərbaycan Prezidenti İlham Əliyev arasında uğurlu görüş keçirilib və ikitərəfli münasibətlərin gələcək inkişafının istiqamətləri müəyyənləşdirilib.

Baş nazirinin müavini Şahin Mustafayev çıxışında dost Çin xalqını milli bayram münasibətilə təbrik edib və iki ölkə arasında dostluğun qədim tarixə malik olduğunu və Çinin Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu qeyd edib. O bildirib ki, dövlət başçılarının şəxsi təşəbbüsü və dəstəyi sayəsində Azərbaycan ilə Çin arasında siyasi qarşılıqlı etimad daim dərinləşir, müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin səmərəli nəticələri əldə edilir, beynəlxalq əməkdaşlıq inkişaf edir.

***XQ***

# Biz haqq-ədalət tələb edirik



## Sanksiya təşəbbüsünü də uğursuzluq gözləyir

(əvvəli 1-ci səhifədə)

Bu arada Azərbaycanla bağlı daim qərəzli qətnamələr qəbul edən, əsasən çağırışlar ünvanlayan Avropa Parlamentinin 60-dan çox üzvü ölkəmizə sanksiyaların tətbiqinə çağırıblar. Ancaq dünən "Politico Europe" nəşri yazıb ki, sanksiyalar Avropa Parlamentinin üzvləri deyil, üzv dövlətlər tərəfindən razılaşdırılmalıdır.

Danışıqlardan birbaşa xəbəri olan və adının açıqlanmasını istəməyən iki diplomatın sözlərinə görə, ölkələr arasında qapalı danışıqlarda Azərbaycana sanksiya tətbiq etmək istəyənlər azdır. Diplomatların sözlərinə görə, yalnız Litva bütün variantları nəzərdən keçirməyi təklif edib, Macarıstan isə ən çox skeptisizm nümayiş etdirib. Rumıniya və Avstriya kimi digər ölkələrin də mövqeyi Budepeştin mövqeyinə yaxındır. "Hazırda məsələ çıxılmaz vəziyyətdədir. Bu məsələdə yekdil fikir yoxdur", – deyən diplomatlardan biri qeyd edib ki, ölkələrin Azərbaycanla möhkəm əlaqələri əsas səbəblər sırasındadır.

"Politico Europe" Azərbaycan Prezidentinin köməkçisi – Prezidentin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin ölkəmizin Avropa İttifaqından sanksiya gözləmədiyi barədə sözlərindən də sitat gətirib. "Biz belə bir risk görmürük, çünki bu, irrasional addım olardı",– deyə Hikmət Hacıyev qeyd edib. Qəzet onu da əlavə edib ki, Azərbaycan rəsmisi sentyabrın 26-da Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanla danışıqlardan əvvəl Brüsseldə keçirdiyi brifinqdə ölkəmizi cəzalandırmaq üçün emosional çağırışlar edən avropalı deputatları tənqid edib.

Son illərdə ermənipərəstliyi az qala dövlət siyasətinə çevirən Kanada parlamentində isə sentyabrın 27-də Qarabağdakı vəziyyətlə bağlı dinləmələr keçirilib. Dinləmələrdə ölkənin xarici işlər naziri Melani Coli Azərbaycana qarşı sanksiyaların tətbiq oluna biləcəyini istisna etməyib. Deputat İv Peron xarici işlər nazirindən Kanadanın Azərbaycana qarşı iqtisadi sanksiyalar tətbiq etməyi planlaşdırıb-planlaşdırmayacağına və bu məsələnin avropalı tərəfdaşlarla müzakirə edilib-edilməməsinə münasibət bildirməsini istəyib. Nazir buna cavab olaraq deyib: "Biz bu ölkəyə maksimum təzyiq göstərmək üçün bir sıra başqa ölkələrlə də sanksiyalar məsələsini nəzərdən keçirməyə meylliyik. Bir sözlə, hər şey müzakirə olunur".

***

Göründüyü kimi, Azərbaycanla bağlı xoşagəlməz çağırış edənlər əsasən parlament üzvləridir. Həm ABŞ-də, həm Aİ ölkələrində, həm də Kanadada onların seçiciləri arasında ermənilərin kifayət qədər nümayəndəsi var. Onlar erməni seçicilərinin könlünü xoş etmək, həmçinin gələcək seçkidə onlardan yenidən səs almaq üçün bu cür fikirlər səsləndirirlər. Deputatların daşıdıqları məsuliyyət dövlətlərin məsuliyyət yükü qədər böyük deyil. Deputatlar seçiciləri qarşısında məsuliyyət daşıyırlar. Dövlətlər isə bütün xalq üçün cavabdehdirlər. Bu mənada, dövlətlər daha məsuliyyətli davranırlar.

Ermənistan istisna olmaqla hələ heç bir dövlət Azərbaycana sanksiyalarla bağlı fikir səsləndirməyib. Çünki onlar yaxşı başa düşürlər ki, Qarabağ iqtisadi rayonunun hər qarışı Azərbaycanın beynəlxalq hüquqla tanınmış ərazisidir. Ölkəmiz 1992-ci ilin martında BMT-yə 86,6 min kvadratkilometrlik ərazi hüdudları çərçivəsində qəbul olunub. Bu ərazidə baş verən hər bir məsələ Azərbaycanın daxili işidir.

Bundan başqa, böyük dövlətlər onu da yaxşı bilirlər ki, rəsmi Bakı Qarabağın erməni sakinləri ilə bağlı beynəlxalq humanitar hüquqdan kənar heç bir addım atmır. Qarabağın erməni sakinləri bölgədən zorla çıxarılmır, əksinə dövlətimiz onların qalmasında maraqlıdır. Elə Xarici İşlər Nazirliyinin dünən yaydığı məlumatda da bu barədə bildirilib: "Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin gedişinin onların şəxsi və fərdi qərarı olduğu, bunun məcburi yerdəyişmə ilə heç bir əlaqəsi olmadığı baş nazir Paşinyana yaxşı məlumdur. Əgər erməni sakinlərinin hansısa seqmenti Azərbaycan qanunvericiliyi və hakimiyyəti çərçivəsində yaşamaq və ona tabe olmaq istəmirsə, onları buna məcbur edə bilmərik. Bunun əksinə, biz erməni sakinləri öz yaşayış yerlərini tərk etməməyə və multietnik Azərbaycan cəmiyyətinin bir hissəsi olmağa çağırırıq".

Bundan əlavə, hətta, ölkəmizə hansısa sanksiyalar tətbiq olunsa belə, bu, Azərbaycanın başladığı və artıq sona çatdırmaq üzrə olduğu haqq işini dayandıra bilməz. Bununla bağlı Prezident İlham Əliyev iyunun 23-də Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağını təqdim etdikdən sonrakı çıxışında demişdi: "Bu gün bizə qarşı aparılan çirkin kampaniyanın heç bir əhəmiyyəti yoxdur və olmayacaq. Bizim iradəmizə heç kim təsir edə bilməz. Əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün təbii ki, heç kim təsir edə bilməz. Yenə də deyirəm, biz haqq-ədalət tələb edirik".

Avqustun 26-da Laçın Şəhəri Günü bayram tədbirində demişdi: "Bu gün isə biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik. Müharibədən sonra keçən 3 ilə yaxın müddətdə də bunu sübut etməyə məcburuq. Çünki bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq".

Bəli, dövlət başçımızın dediyi kimi, Ermənistan və dünya erməniliyi Azərbaycanla bağlı çirkin niyyətlərindən nə qədər tez uzaqlaşsalar, ilk növbədə, elə onların özü üçün yaxşı olar.

***Səxavət HƏMİD***
***XQ***

### EKSPERT RƏYİ



**Azər HƏSRƏT,**
**siyasi şərhçi**

– Konqresmen və senatorların Azərbaycana sanksiya çağırışı, ümumilikdə, təbliğat üçün qida rolunu oynasa da, ABŞ-nin siyasətini kökündən dəyişə bilməyəcək. Çünki ABŞ müstəqillik qazanmış Azərbaycanla uzun illərdir işbirliyi içindədir, Bakı onun üçün etibarlı tərəfdaşdır. Özəlliklə də terrorla mücadilədə Azərbaycan Güney Qafqaz, həmçinin Orta Asiya bölgəsi baxımından ABŞ-yə hava-su kimi lazımdır. Digər tərəfdən, Azərbaycan yüksəlməkdə olan Türk Dövlətləri Təşkilatının mühüm dövləti olmaqla da ABŞ-yə çox gərəklidir. Üstəlik, Avropanın enerji təminatı məsələsində də Azərbaycan açar ölkə rolunu oynayır. Belə bir dövlətə qarşı çıxış etmək, onunla münasibətləri gərəksiz yerə gərginləşdirmək ABŞ-a heç bir xeyir verə bilməz. Bu amilləri nəzərə alaraq birmənalı şəkildə deyə bilərik ki, ABŞ Azərbaycanla münasibətləri gərginləşdirəcək sərt addımlara gedən deyil.

Hələ onu da əlavə edək ki, Azərbaycanla, onun lideri İlham Əliyevlə danışmaq, anlaşmaq imkanları varkən ABŞ nədən gərəksiz yerə münasibətləri gərginləşdirsin ki? O çağırış edənlər hər zamankı kimi, erməni təbliğat maşınının könüllü vintcikləridir. Bu vintciklər elə Vətən müharibəsi günlərində də hay-küy salmışdılar. Nəticəsi nə oldu? Bir müddət danışıb susdular. ABŞ-Azərbaycan münasibətləri isə daha da irəli getdi. Bunların çağırışları bir nəticə verməsə də, sadəcə olaraq, bizim, müəyyən mənada, vaxtımızı alacaq. Nə deyirik ki? Bizimlə üz-üzə gəlirlərsə, qarşılarından qaçmayacağıq.

"Politico Europe"da dərc olunmuş məqalə ilə bağlı qeyd etmək istərdim ki, yazının başlığına çıxarılmış, əslində isə sadə bir erməninin dilindən səslənən sual ("Fransa, Amerika və Şarl Mişel haradadır?") şəxsən mənim üçün qeyri-adi deyil. Çünki biz illərdir erməni ictimai rəyinə izah etməyə çalışırıq ki, sizin nicatınız Azərbaycanla anlaşmaqdan keçir. Yəni heç bir Avropa, ABŞ və ya Rusiya sizin dərdinizi çəkmir. Hər dövlətin, hər böyük gücün öz marağı var və bu maraq üçün də ermənilərdən alət kimi istifadə edirlər. Bunu biz ermənilərə izah etməyə çalışmışıq. Amma onlar uzun illər ərzində özlərini aldadaraq o yalanlara inanıblar. İnandıqları üçün də bugünkü acınacaqlı duruma düşüblər. Üstəlik, belə bir durumda da Azərbaycana böhtan atırlar ki, guya, onlara qarşı etnik təmizləmə aparılıb. Halbuki, Prezident İlham Əliyevin özü də şəxsən dəfələrlə çağırışlar edib ki, ermənilər qalıb rahat yaşaya bilərlər.

Yazıda bir məqam da diqqətimi çəkdi. Müəlliflər Avropadan Azərbaycanı cəzalandırmasını gözləyirlər. Sual olunur: niyə? Avropa Azərbaycanı niyə cəzalandırmalıdır? Axı Azərbaycan Avropa və digər böyük güclərlə açıq dialoq içindədir və masa arxasında bütün məsələləri müzakirə edir. Yəni belə bir dövləti cəzalandırmaq üçün əsas da yoxdur. O baxımdan müəlliflərin cəza istəyi bir daha göstərir ki, bəziləri hələ də ikili standart və əsassız tərəfkeşlikdən əl çəkə bilmirlər. Çəkməsinlər, özləri bilərlər. Biz kiminlə necə danışacağımızı bilirik, ona görə də işlərimiz irəli getməkdə davam edəcək. Yəni yazıda deyildiyi kimi, Avropa Parlamentinin 60 üzvünün Azərbaycana qarşı sanksiya çağırışı da nəticəsiz qalacaq.

Yeri gəlmişkən, bu yazıda Azərbaycana isti münasibəti baxımından adı keçən Macarıstan Türk Dövlətləri Təşkilatının üzvüdür və bu faktor da Avropada bizim üçün olduqca önəmli rol oynayır.

# Könüllü təslim: Növbədə kimdir?!

(əvvəli 1-ci səhifədə)

Qarabağda son üç ildə "at oynadan" hələ çox separatçı-daşnak ünsürünü bax beləcə, Ruben Vardanyan kimi, qolları qandallı, başı təzimə əyilmiş vəziyyətdə görəcəyik. Səbail Rayon Məhkəməsində Qarabağdakı keçmiş separatçı-terrorçu qurumun "dövlət naziri" vəzifəsində çalışmış Ermənistan vətəndaşı Ruben Vardanyan barəsində Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq İdarəsinin təqdimatına baxılıb. Keçirilən prosesdə təqdimat təmin edilib və məhkəmə tərəfindən Ruben Vardanyan barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Oxuculara xatırladaq ki, Ruben Vardanyan iki gün əvvəl Azərbaycanın Laçın yolundakı dövlət sərhəd nəzarət-buraxılış məntəqəsindən Ermənistana keçmək istəyərkən saxlanılıb. Hazırda Ermənistan vətəndaşı olan 1968-ci il təvəllüdlü R.Vardanyanın Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak etmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə nəzərdə tutulan cinayət əməllərini törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Bununla bağlı DTX-nin yaydığı məlumatda deyilir ki, irəli sürülən ittihama əsasən müəyyən edilib: "Ruben Vardanyan xarici ölkə vətəndaşı olduğu halda terror-təxribat əməlləri törətmək məqsədilə 2022-ci ilin sentyabr ayında Azərbaycan Respublikasının dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənar, qanunsuz keçərək, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi əraziyə daxil olmuş, həmin ərazidə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılması və fəaliyyətinin təşkilində, habelə idarələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə insanların həlak olmasına və digər ağır nəticələrə səbəb olan basqınlar etmiş sözügedən qanunsuz hərbi birliklərin silah, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchiz edilməsində iştirak edib. Bundan başqa o, pul vəsaitlərini həmin qanunsuz silahlı birləşmələrin terrorçuluq fəaliyyətinin təşkil olunmasına yönəltməklə terrorçuluğu maliyyələşdirib".

***DOSYE: 1968-ci il təvəllüdlü Ruben Vardanyan Qarabağdakı keçmiş qanunsuz separatçı qurumun sabiq "dövlət naziri" olub. O, ilk dəfə 2011-ci ildə 500 milyon dollar sərvətlə ən zəngin rusların siyahısına daxil olub. 2017-ci ildə "Forbes" jurnalı Vardanyanın varidatını 950 milyon dollar dəyərində qiymətləndirib və o, "yüzlər"in sırasında 99-cu yeri tutub.***

"Ermənistan XİN Ruben Vardanyanın hüquqlarının müdafiəsi və onun geri alınması üçün bütün mümkün tədbirləri görəcək. Bununla bağlı biz Rusiya Federasiyasının, eləcə də digər beynəlxalq tərəfdaşlarımızın dəstəyinə ümid edirik". Belə bir bəyanatla Ermənistan xarici diplomatiya idarəsinin sözçüsü Ani Badalyan çıxış edib. Bundan başqa, xarici ölkələrdə də Vardanyanın hazırda düşdüyü durumundan narahat şəxslərin və qüvvələrin səsləri eşidilməyə başlanıb. Bunlardan biri "Avrora" humanitar təşəbbüslərin həmtəsisçisi, erməni mənşəli amerikalı sahibkar Nubar Afeyan "Dağlıq Qarabağın keçmiş "dövlət naziri"nin saxlanması ilə bağlı narahat" olduğunu bildirib. Özünün mikrobloqunda bu barədə paylaşım edən Afeyan yazıb ki, indi Ruben Vardanyanın taleyinə görə təkcə onun ailəsi deyil, Vardanyanı tanıyan və qiymətləndirən hər kəs narahatdır. "Onlar qanunun aliliyinə və beynəlxalq razılaşmaların ədalətinə inanırlar. Artıq böyüməkdə olan böhrandan üzünüzü çevirməyin. Soyqırımın (?) qarşısının alınması olduqca böyük, qlobal məsuliyyətdir", – Nubar Afeyan yazıb.

***

Erməni mənşəli amerikalı iş adamının "qlobal məsuliyyət" barədə utopik mülahizələrini bir kənara qoyub, vəziyyətin hüququ tərəfini araşdırmağa çalışaq. Əslində haqqında yazdığımız halın geniş hüquqi araşdırmaya ehtiyacı da yoxdur. Çünki nə Azərbaycanın daxili qanunvericiliyində, nə də beynəlxalq hüquqda Ruben Vardanyan kimiləri üçün əlahiddə maddə, imtiyaz, yaxud status nəzərdə tutulmayıb. Bu müstəvidə söhbət yalnız əmələ görə məsuliyyət daşımaqdan gedir.

**Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov da Vardanyanın həbsi ilə bağlı diqqəti məhz beynəlxalq hüququn norma və prinsiplərinə yönəltdi:**



"Vardanyan fiziki şəxs olaraq, Azərbaycan qanunlarını pozub. Buna görə də cavab verməlidir. Bizim ərazimizdə törətdiyi qanunsuz əməllərinə görə, konkret maddələr üzrə ədalət məhkəməsi qarşısında durmalıdır. Doğrudur, Azərbaycanın qoşulduğu beynəlxalq təşkilatlar qarşısında götürdüyü müəyyən öhdlikləri var. Yəni, hər hansı insan cinayət məsuliyyətinə cəlb olunanda belə həmin şəxsin müəyyən hüquqları gözlənilməlidir. Saxlanılan şəxsə qarşı ittiham irəli sürüləndə o, vəkillə təmin edilməlidir. Bundan başqa, onun saxlanma şəraiti qənaətbəxş olmalı, heç bir fiziki işgəncəyə məruz qalmamalı, ona psixiloji təzyiq göstərilməməlidir. Həm yerli, həm də beynəlxalq qanunvericilikdə nəzərdə tutulmuş bu prinsiplərə Azərbaycan riayət edir və edəcək".

Təcrübəli politoloq sözlərinə onu da əlavə edib ki, əgər bu həbslə bağlı Azərbaycana hansısa irad ürəli sürülərsə, hüquq-mühafizə sistemimiz buna adekvat cavab verəcək. R.Musabəyov, həmçinin deyir ki, beynəlxalq hüquqda bu cür şəxslər üçün hansısa əlahiddə imtiyazlar yoxdur: "Konkret olaraq Ruben Vardanyana qarşı irəli sürüləcək ittihamlarla bağlı Azərbaycanın qarşısında heç bir hüquqi məhdudiyyət qoyula bilməz. Yerli qanunları pozub və ölkəmizin ərazisində yaxalanıb. Sadəcə indi o, məhkum kimi bütün hüquqlarla təmin ediləcək. Bəli, müxtəlif beynəlxalq təşkilatlar Vardanyanın günahsız olması ilə bağlı hay-küy qaldıra bilərlər. Ona Cinayət Prosessual Məcəlləsinin konkret maddələri üzrə ittihamlar irəli sürüləcək. Sadəcə, dediyim kimi, belə hallar üçün nəzərdə tutulan hüquqi prosedurlara riayət olunmalıdır".







Siyasi ekspert R.Vardanyanın hansı hallarda əfv oluna bilməsi məsələsinə də aydınlıq gətirib: "Əgər o, günahını boynuna alandan sonra əfv olunması üçün Azərbaycan rəhbərliyinə müraciət edərsə, buna baxıla bilər. Amma bütün hallarda məhkəmə cinayətkar barədə öz hökmünü çıxarmalıdır. Yaxud amnistiya elan olunarsa və onun əməlləri bu akta düşəcəyi təqdirdə, azadlığa çıxmaq şansı var. Hələlik, rəsmi Bakı amnistiya barədə qərarını açıqlamayıb".

* * *

"Bizim bu həbslərdən xəbərimiz var. Hazırda vəziyyətlə diqqətlə izləyirik. Hələlik bu barədə başqa şərhimiz yoxdur". Bu sözləri ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller dünən keçirdiyi brifinqdə dilə gətirib.

Məlum həbslə bağlı ən maraqlı açıqlama isə Rusiya Federasiya Şurasından gəldi. RF FŞ-nin Konstitusiya komitəsinin üzvü Aleksandr Başkinin sorğuya cavabı birmənalı və məntiqi olub: "Dağlıq Qarabağın keçmiş "dövlət nazırı" Ruben Vardanyanın Rusiya vətəndaşlığından çıxmasının fəsadları şəxsi seçiminin yekunu olmaqla bərabər Rusiya pasportunun dəyərinə şübhə ilə yanaşanlar üçün yaxşı illüstrasiya ola bilər. Vardanyan Rusiyadan yardım ala bilməz. O, vətəndaşlıqdan könüllü şəkildə imtina etdiyinə görə bunun bütün hüquqi nəticələrini də göz önünə almalı idi. Kiməsə belə bir uğur, taleyin hədiyyəsi anadangəlmə qismət olur. Bu isə ondan xəbər verir ki, valideynlərin və taleyin bəxşişini dəyərləndirmək və qorumaq necə də vacibdir". Kifayət qədər aydın və ibrətamiz cavabdır.

Dünən Qarabağdakı növbəti erməni terrorçu Vitali Balasanyanın həbs xəbəri yayıldı. Bu, həmin Balasanyandlr ki, Serj Sərkisyanla birlikdə Azərbaycan torpaqlarının işğal edilməsində yaxından iştirak edib. Onlar birlikdə 90-cı illərdən Qarabağda erməniləri döyüşə cəlb etmək üçün fəaliyyət göstəriblər. Müharibəyə getmək istəməyən ermənilərin qız-gəlinlərini zorlayıb, sakinlərdə qorxu yaradıblar. Xocalıda insanlığa sığışmayan dəhşətlər törədiblər. Şahidlər danışırlar ki, o zaman qızların, qadınların qızıl əşyalarını Serj, kişilərin qızıl dişlərini isə Vitali toplayırdı.

***DOSYE: Vitali Balasanyan 5 mart 1959-cu ildə Əskəranda doğulub. "Daşnaksütyun" partiyasının üzvü olan Balasanyan 1990-cı ildən Əsgərandakı silahlı birləşmələrə komandirlik edib. Həm qondarma "artsax rejimi"nin, həm də Ermənistanın "xaç qəhrəmanı"dır. Onun əsgərlərinin Xocalı qırğınından sağ qalan soydaşlarımızı uçuruma doğru apardıqları və oradan atdıqlarını təsdiq edən video-kadrlar durur.***

**Mövzu ilə bağlı qəzetimizə danışan Siyasi Proseslərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev belə hallar üçün beynəlxalq təcrübədə nəzərdə tutulan mövcud qaydalardan bəhs etdi:** "Ölkə ərazisində



xarici vətəndaş saxlanıldığı təqdirdə ona ilk növbədə konsul xidməti göstərilir. Konsulluq həmin şəxsin saxlanılması şəraiti ilə tanış olur, ona hüquqlarını xatırladır. Azərbaycanın Ermənistanla diplomatik əlaqələrimiz yoxdur. Düzdür, MDB çərçivəsində hansısa hüquqi sənədlər ola bilər, onlara nəzər yetirilməlidir. Məlumdur ki, Vardanyan artıq Rusiya vətəndaşı deyil. 2022-ci il dekabrın 22-də Rusiya Prezidenti Vladimir Putin onu ölkə vətəndaşlığından çıxarıb. O, Ermənistan vətəndaşı kimi Azərbaycan torpağında cinayətlər törədib. Əslində onun xarici ölkənin vətəndaşı kimi respublikamızın ərazisində qalmağa ixtiyarı yox idi. On beş gündən sonra qeydiyyatdan keçmək proseduru mövcuddur. Amma Vardanyanın cinayətləri daha ciddidir. Azərbaycanın Konstitusiyasına, ərazi bütövlüyümüzə qarşı cinayət əməlləri var. Yəni, hüququ baxımdam onu mühakimə etməkdən ötrü bütün hüquqi bazamız var. Bəli, xarici ölkə vətəndaşı kimi hüquqi yardımla təmin edilməlidir. Fəqət Ermənistanla aramızda diplomatik əlaqələrin olmadığı indiki şəraitdə burada müəyyən suallar ortaya çıxır. Beynəlxalq hüquqa görə, belə hallarda, adətən, yerli tərəf müdafiəni təmin edə bilər".

***

Dünən günün ikinci yarısında Qarabağdakı erməni separatçılardan daha birinin saxlanıldığı xəbəri yayıldı. Məlum oldu ki Xankəndidəki keçmiş separatçıbaşının sabiq "müşaviri" David Babayan könüllü şəkildə Azərbaycanın hüquq-mühafizə orqanlarına təslim olub. "Azərbaycan tərəfi müvafiq araşdırma aparmaq üçün mənim Bakıya gəlməyimi tələb etdi. Bu gün (dünən-red) Xankəndidən Şuşaya getmək qərarına gəldim". Bunu Babayan Feysbuk səhifəsində yazıb.

***DOSYE: David Klimi Babayan 5 aprel 1973-cü ildə Xankəndi şəhərində anadan olub. 28 dekabr 2013-cü ildən qondarma "dqr" rejiminin informasiya departamentinin rəhbəri, eyni zamanda "dqr prezidenti"nin aparatında "sədr müavini" vəzifəsində çalışıb. Babayan 26 may 2020-ci ildə "prezidentin" xarici əlaqələr üzrə müşaviri (?), 4 yanvar 2021-ci ildə isə "xarici işlər naziri" (?) təyin olunub. Bundan başqa, "Artsax mühafizəkarlar martiyası"nı qurub və ona rəhbərlik edib.***

Azərbaycan Ordusunun sentyabrın 19 və 20-də sürətli antiterror tədbirlərindən və qondarma rejimin özünü buraxması haqqında "fərman" imzalamasından sonra David Babayan Azərbaycanın nəzarətində olan Şuşaya getdiyini və könüllü təslim olduğunu elan edib. Qarabağdan kənara qaçmağın mümkünsüzlüyünü görən daha bir separatçı düzgün qərar qəbul edib və könüllü təslim olub. Növbədə kimdir?

***İmran BƏDİRXANLI***
***XQ***

# 7 ayda Çinlə ticarətin həcmi 1,6 milyard dolları ötüb

*Asiya nəhəngi respublikamızın dördüncü ən böyük iqtisadi tərəfdaşıdır*

**Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Quo Min mediaya müsahibəsində ölkəsinin Azərbaycanda həyata keçirilən "yaşıl" islahatlara göstərdiyi səylərə diqqət yetirərək bərpaolunan enerji istehsalı layihələrində iştirak edən ilk dövlətlərdən biri olduqlarını bildirib. O, Çin şirkətləri tərəfindən respublikamızda reallaşdırılan irimiqyaslı yeni enerji layihələrinin ilk partiyasına 230 MVt gücündə fotoelektrik və 240 MVt gücündə külək elektrik stansiyalarının daxil olduğunu vurğulayıb.**

Qeyd edək ki, adıçəkilən önəmli layihələrdən olan fotoelektrik stansiyasının tikintisi cəmi altı aydır ki, davam edir və tezliklə bu infrastruktur 5,5 kvadratkilometrlik bir ərazinin enerji təminatını ödəyəcək. Yaxın gələcəkdə həmin stansiyanın enerji şəbəkəsinə qoşulması da gözlənilir ki, bu da Azərbaycanın enerji strukturunun transformasiyasında müsbət rol oynayacaq.

Quo Minin sözlərinə görə, bu gün bir çox Çin şirkəti təmiz enerji sahəsində investisiya layihələrini fəal şəkildə təşviq edir ki, bu da Azərbaycana birbaşa investisiyalar və qabaqcıl texnologiyalar gətirməklə yanaşı, məşğulluğun artırılmasını və sənayenin inkişafını sürətləndirir. Bununla yanaşı, hazırda respublikamızda yeni enerji mənbələrindən yararlanan daha çox Çin, eləcə də digər xarici ölkə avtomobillərinin yerli sakinlər tərəfindən məmnunluqla istifadə edilməsi müşahidə olunur. Bütün bunlar isə nəzərə alınaraq Çin Azərbaycanla əməkdaşlığı davam etdirməyə, "yaşıl enerji" və elektrik enerjisi sahələrində qarşılıqlı fəaliyyət potensialını araşdırmağa daim maraq göstərir.




Səfirin sözlərinə görə, ölkəsi gələcəkdə də Azərbaycanla "yaşıl enerji"nin inkişafı, enerjinin saxlanması və bu sahədə yükün azaldılması, enerjinin ötürülməsi və çevrilməsi, enerjiyə qənaət və emissiyaların aşağı salınması, yeni enerji daşıyıcılarının populyarlaşdırılması, yardımçı obyektlərin tikintisi və digər sahələrdə sıx əməkdaşlıq etmək niyyətindədir. Məqsəd isə daha çox layihələrin həyata keçirilməsini asanlaşdırmaq və "Bir kəmər, bir yol"un Çin–Azərbaycan birgə tikintisinə yeni təkan verməkdir.

Onu da deyək ki, hazırda Çin şirkətləri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpasında da fəal iştirak edirlər. Bu müəssisələr işğaldan azad edilən ərazilərimizdə yerli "yaşıl iqtisadiyyat"ın inkişafını daha da sürətləndirmək məqsədilə fotovoltaik elektrik stansiyalarının investisiya və tikinti layihələrini səylə təşviq edirlər.

Vətən müharibəsindən ötən müddətdə Çin şirkətləri tərəfindən erməni faşizminin dağıdıb xarabalığa çevirdiyi yaşayış sahələrində dərin araşdırmalar aparılaraq "ağıllı kənd"lər və hava limanları üçün sınaq avadanlıqlarının tədarükü kimi layihələr reallaşdırılıb. Eyni zamanda, Qarabağda "yaşıl iqtisadiyyat"ın inkişafının gerçəkləşdirməsi üçün fotovoltaik elektrik stansiyalarının investisiya və tikinti layihələrini fəal şəkildə təşviqi diqqət mərkəzində saxlanılıb.

Çin hökuməti "Bir kəmər, bir yol"un birgə tikintisini Orta Dəhliz konsepsiyasına uyğun həyata keçirməyə də xüsusi həssaslıqla yanaşır. Dost ölkə bunun üçün həmin birgə layihə çərçivəsində Azərbaycanla nəqliyyat əməkdaşlığını dərinləşdirməyə və iki ölkənin müvafiq idarə və müəssisələri arasında sənaye mübadiləsini təşviq etməyə böyük önəm verir.

Çin gömrük rəsmiləşdirilməsinin və malların həddən artıq yüklənməsinin səmərəliliyinin artırılması yollarını, həmçinin tranzit daşımaları prosedurlarının sadələşdirilməsi və unifikasiyası, logistika və nəqliyyatın informasiyalaşdırılması, nəqliyyat xərclərinin azaldılması, Çin–Avropa qatarlarının istismar sabitliyinin artırılması ilə bağlı müxtəlif məsələlərin araşdırılmasını da daim diqqət mərkəzində saxlayır.

Çin bu gün Avropa ilə Asiyanı birləşdirən Orta Dəhlizin əlverişli coğrafi mövqeyinə böyük əhəmiyyət verir və infrastrukturun regional əlaqələrin gücləndirilməsində, regional iqtisadi inkişafın təşviqində, qlobal sənaye və logistika zəncirlərinin sabitliyinin təmin edilməsində önəmini yüksək dəyərləndirir. Çünki yuxarıda vurğulandığı kimi, "Bir kəmər, bir yol"un birgə layihəsi Orta Dəhliz konsepsiyasına tam uyğundur. Nəqliyyat kommunikasiyaları sahəsində Çin və "Bir kəmər, bir yol" boyunca yerləşən ölkələrin, o cümlədən, Azərbaycanın ümumi maraqları da var. Ümumiyyətlə, dost ölkə Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi–Orta Dəhliz boyunca əlaqələrin sürətləndirilməsi, infrastrukturun və xidmətlərin müasirləşdirilməsinə hər zaman xüsusi həssaslıqla yanaşır.

Hazırda iki ölkə arasında münasibətlər yeni inkişaf mərhələsindədir. Çin Azərbaycanla strateji qarşılıqlı etimadı dərinləşdirmək, siyasət sinerjisini artırmaq və Azərbaycan–Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası kimi əməkdaşlıq mexanizmlərindən səmərəli istifadə etmək kimi məsələyə prioritet istiqamət olaraq dəyər verir.

Məhz bütün bunların nəticəsidir ki, cari ilin 7 ayında respublikamızın Çin ilə ikitərəfli ticarət dövriyyəsi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 41,1 faiz artaraq, 1,62 milyard ABŞ dolları təşkil edib. Elə bu göstəriciyə əsaslanılaraq dost ölkə respublikamızın dördüncü ən böyük ticarət tərəfdaşı kimi qeydə alınıb.

Hazırda Çinin Azərbaycana əsas ixracı yüksək texnologiyalı məhsullar, o cümlədən mexaniki qurğular, elektron avadanlıqlar və avtomobillərdir. Onların ixrac payı 50 faizi ötür.

Onu da qeyd edək ki, sadalanan göstəricilərin daha da yüksək rəqəmlərlə ifadə olunması üçün Çin Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi boyunca əlaqəni sürətləndirmək, infrastruktur və xidmətləri təkmilləşdirmək, Çin–Avropa dəmir yolu yükdaşımalarının həcmini artırmaq və regional, habelə beynəlxalq təchizat zəncirləri qarşısında maneələri aradan qaldırmaq kimi mühüm vəzifələri uğurla həyata keçirir. Çin tərəfi, həmçinin, mədəni və humanitar əlaqələri gücləndirmək, iki ölkənin biznes, akademik və qeyri-hökumət sektorları arasında əlaqələri təşviq etmək, ikitərəfli əməkdaşlığı dərinləşdirmək istiqamətində layihələr hazırlayır.

***Vaqif BAYRAMOV***
***XQ***

## Ekspert rəyi

**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**



Azərbaycan tərəfi də, şübhəsiz ki, öz növbəsində yerli infrastrukturu inkişaf etdirmək üçün bu sahəyə geniş həcmdə investisiya qoyur, qonşularla bağlantı körpülərinin qurulmasını diqqətdə saxlayır. Bununla da "Bir kəmər, bir yol" layihəsi ilə bağlı ölkədaxili infrastruktur sistemini yüksək səviyyədə gerçəkləşdirir. Bu fikrin təsdiqi olaraq qeyd edək ki, hazırda Yeni Bakı Ticarət Limanı genişləndirilir. Çünki bununla Şərqdən-Qərbə daşınan yüklərin həcminin artacağı təqdirdə yükaşırma problemlərinin qarşısı alınır. Başqa sözlə, Azərbaycanın mövcud ticarət infrastrukturu bir neçə il əvvəl fəaliyyətə başlayanda onun yükaşırma qabiliyyəti 15 milyon ton idi.

Bu gün isə sözügedən limanın imkanlarını 25 milyon tona qədər çatdırmaq qarşıya mühüm vəzifə kimi qoyulur. Bundan başqa, Xəzər dənizində daha çox gəmi tikintisi diqqətdə saxlanılır. İndi gəmiqayırma zavodunun ildə 20-dək gəmi inşa edəcəyi planlaşdırılır. Bu, həm Azərbaycanda, həm də Xəzər dənizində yükdaşımaya tələbat artması ilə bağlıdır. Ümumiyyətlə, hazırda Azərbaycan Xəzəryanı dövlətlər arasında Xəzər dənizində ən böyük ticarət donanmasına sahibdir. Bu, ölkəmizin daha çox yük daşımaq imkanından xəbər verir.

Ticarət sahəsinə gəldikdə isə, deyə bilərəm ki, dost ölkədə İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin Çin bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərir, bu sahədə əlaqələndirməni uğurla həyata keçirir. İqtisadiyyat naziri Mikayıl Cabbarov həmin Ticarət Evinin açılışında vurğuladığı kimi, dost ölkədə sayca 4-cü ticarət evi fəaliyyətə başlayır ki, bu da ölkələrimiz arasında iqtisadi-ticari mübadilə üçün dinamik platforma rolunu oynayır.



# Bakı kosmik müzakirə orbitinə çıxır

**(əvvəli 1-ci səhifədə)**

"Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" mövzusunda beynəlxalq konqres kosmik sənayenin gələcəyini formalaşdıran yeni ideyalar və qabaqcıl həllərlə bağlı fikir mübadiləsi üçün açıq platforma olacaq. Tədbir bütün qonaqlara və iştirakçılara kosmik sənayesinin inkişafının gücləndirilməsi, qlobal tendensiyalar, kosmos innovasiyaları sahəsində tərəfdaşlıq və əməkdaşlıq yollarını müzakirə etmək imkanı verəcək.

Mötəbər beynəlxalq tədbir ərəfəsində Beynəlxalq Astronavtika Federasiyasının partnyor təşkilatları tərəfindən paytaxtımızda kosmik sənayesinə dair bir sıra tədbir həyata keçirilir. Sentyabrın 28-də öz işinə başlayan 21-ci Kosmik Nəsil Konqresi də bu qəbildən olan tədbirlərdəndir. Xatırladaq ki, "Azərkosmos", Kosmik Nəsil Məşvərət Şurasının və Avropa Kosmik Siyasəti İnstitutunun təşkilatçılığı ilə keçirilən tədbirə dünyanın 50 ölkəsindən 150-dən çox iştirakçı qatılıb.

Konqresin açılış mərasimində çıxış edən Kosmik Nəsil Məşvərət Şurasının icraçı direktoru Valentina Luçetti bildirib ki, tədbir dünyanın yeni nəsil kosmik sənaye mütəxəssisləri üçün katalizator rolunu vurğulamaq məqsədi daşıyır. İcraçı direktor "Bəşəriyyəti ruhlandırmaq, birləşdirmək və dəstəkləmək üçün kosmik icma yaratmaq" mövzusu ilə kosmosun Yer üzündə tərəqqinin və innovasiyanın stimullaşdırılmasında oynadığı əsas rolu vurğulamağa və qlobal problemlərin həllində, beynəlxalq əməkdaşlığın gücləndirilməsində, bütün dünyada sosial-iqtisadi inkişafın təşviqində kosmik texnologiyaların böyük potensialını nümayiş etdirməyə çalışdıqlarını diqqətə çatdırıb.

Kosmik Nəsil Konqresinin tələbələri və gənc mütəxəssisləri müxtəlif mədəniyyətlər, iş təcrübələri ilə birləşdirmək, ünsiyyət, əməkdaşlıq və fikirlərini bölüşmək üçün bir platforma rolunu oynamağa xidmət etdiyini bildirən Valentina Luçetti daha sonra deyib ki, kosmik sektorun təkamülü haqqında düşünərkən aydın olur ki, uzun müddətdir mövcud olan kosmik agentliklər dərin tarixi və mədəni əhəmiyyətə malik olan öz ölkələrinin kosmik təşəbbüslərinə rəhbərlik etməkdə danılmaz rol oynayıblar. "Özəl sektorun kosmik fəaliyyətlərdə artan iştirakı və kosmonavtika ilə məşğul olan yeni ölkələrin meydana çıxması ilə kosmik sektor hazırda yaxın onilliklər ərzində qarşıya qoyulan məqsədlərə çatmaq üçün birlikdə işləməli olan müxtəlif iştirakçıların geniş və mürəkkəb ekosisteminə çevrilir",–deyə o əlavə edib.

Yeri gəlmişkən, ölkəmiz 21-ci Kosmik Nəsil Konqresində böyük nümayəndə heyəti ilə təmsil olunur. Dünyada sayı məhdud olan kosmik ölkələr arasında Azərbaycanın xüsusi yer tutduğunu bildirən "Azərkosmos"un İdarə Heyətinin sədri Saməddin Əsədov deyib ki, Kosmik Nəsil Məşvərət Şurası kosmosla və kosmik elmlə maraqlanan gənclərin bir araya gəldiyi mühüm platformadır.

Onun sözlərinə görə, üç gün davam edəcək konqresdə gənclərin kosmos sahəsində istər elmi, kosmik, startaplar, kosmosda dövlət, özəl, o cümlədən elmi qurumların tərəfdaşlığı ilə bağlı müzakirələr aparılacaq. Tədbir iştirakçıları arasında Azərbaycandan çoxsaylı gənclərin olduğunu vurğulayan S.Əsədov deyib ki, onlar dünyanın aparıcı universitetlərində kosmik sahədə təhsil alan yaşıdları ilə tanış olmaq, təcrübə mübadiləsi aparmaq imkanı qazanacaqlar. Gənclərimizin həm təhsil, həm də biznes sahələrində gələcək karyeralarını müzakirə edəcəklərini vurğulayan "Azərkosmos" rəhbəri, həmçinin 21-ci Kosmik Nəsil Konqresinin Azərbaycanın kosmik sahədə yeni gənclərə və tələbələrə böyük dəstək olacağına ümidvar olduğunu bildirib.

Kosmik Nəsil Məşvərət Şurasının həmsədri Antonino Salmeri isə Bakıda jurnalistlərə açıqlamasında qurumun hər il öz Kosmik Nəsil Konqresini keçirdiyini bildirib. O deyib ki, Kosmik Nəsil Məşvərət Şurasının əsas məqsədi bəşəriyyət naminə kosmik sahənin öyrənilməsi, təbliğ olunmasında gənclərin fikirlərini, səylərini təmsil etməkdir. "Bizim təşkilat gənclərdən ibarət dünyanın ən böyük şəbəkəsidir. Bizim qurum tələbələr üçün 70-dən çox müxtəlif təqaüd təmin edir. Əsasən kosmik mövzuda, Ay səthinin araşdırılması, kosmik dayanıqlılıq, iqlim dəyişikliyi kimi müxtəlif mövzularda araşdırmalara dəstək veririk. Biz BMT-nin kosmosun sülh naminə araşdırılması üzrə daimi komitənin üzvüyük", – deyə həmsədr əlavə edib.

Qeyd edək ki, Beynəlxalq Astronavtika Konqresi Beynəlxalq Astronavtika Federasiyası, Beynəlxalq Astronavtika Akademiyası və Beynəlxalq Kosmik Hüquq İnstitutunun dəstəyi ilə Beynəlxalq Astronavtika Federasiyası milli cəmiyyətinin üzvlərindən birinin evsahibliyi etdiyi ənənəvi illik konqresdir. Beynəlxalq Astronavtika Federasiyası isə 1951-ci ildə yaradılmış qeyri-kommersiya, qeyri-hökumət təşkilatıdır.

Bu mötəbər tədbir ilk dəfə 1950-ci il 30 sentyabr – 2 oktyabr tarixində Fransanın paytaxtı Paris şəhərində keçirilib. Sözügedən tədbirə ən çox evsahibliyi edən ölkə Amerika Birləşmiş Ştatları olub. Ötən müddətdə keçirilmiş 73 tədbirin 6-sı məhz bu ölkədə baş tutub. Azərbaycan isə belə mötəbər tədbirə ikinci dəfə evsahibliyi edəcək. Ən diqqətçəkən məqam ondan ibarətdir ki, keçmiş SSRİ-nin yalnız bircə dəfə evsahibliyi etdiyi Beynəlxalq Astronavtika Konqresi də düz 50 il əvvəl – 1973-cü il 7-13 oktyabr tarixində məhz Bakı şəhərində keçirilib. Yarım əsrdən sonra Azərbaycan paytaxtının yenidən belə bir mötəbər beynəlxalq tədbirə evsahibliyi edəcəyi isə, həqiqətən də, qürurvericidir.

***Mirbağır YAQUBZADƏ,***
***XQ***

# Azərbaycan qazının etibarlı Avropa marşrutu

*Trans-Adriatik Boru Kəməri "qoca qitə"yə 27 milyard kubmetr qaz nəql edib*

**"Trans-Adriatik Boru Kəməri (TAP) Xəzərdən Avropaya birbaşa nəqlin etibarlılığına zəmanət verəcək. TAP kommersiya fəaliyyətinə başladığı vaxtdan Avropaya 27 milyard kubmetrdən çox qaz nəql edib ki, bunun da 23 milyard kubmetrdən çoxu İtaliyaya ixrac edilib".**




Bu fikirləri TAP-ın icraçı direktoru Luka Skieppati İtaliyada keçirilən Enerji Sammitində çıxışı zamanı səsləndirib. "Buna görə biz, mahiyyət etibarı ilə, tədarükün təhlükəsizliyinə və bazar likvidliyinə töhfə vermiş olduq. Bu, uzunmüddətli müqavilələrin istismara verilməsi ilə bağlı görülən işlər nəticəsində baş verdi. Bu müqavilələrə əsasən, ildə 10 milyard kubmetr qaz nəql edilir və onun da 8 milyard kubmetri İtaliya üçün nəzərdə tutulub",–deyə L.Skieppati bildirib. İcraçı direktor onu da bildirib ki, TAP 2022-ci ildə İtaliyanın qaz tələbatının 15 faizini təmin etdiyi üçün tamamilə strateji əhəmiyyət daşıyır.

Qeyd edək ki, TAP kəməri Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından hasil edilən qazın Avropaya nəqli üçün nəzərdə tutulub. 2022-ci ildə Azərbaycan qaz ixracını 18 faiz artıraraq 22,3 milyard kubmetrə çatdırıb. Avropaya isə 11,4 milyard kubmetr (39 faiz artım) mavi yanacaq nəql edilib. Ötən il TAP vasitəsilə İtaliyaya qaz təchizatı 10,325 milyard kubmetr (43,1 faiz artım) təşkil edib.

Yeri gəlmişkən, 2023-cü ildə Azərbaycandan 24,5 milyard kubmetr qaz ixracı planlaşdırılır ki, bunun da təxminən 12-12,5 milyard kubmetri Avropaya göndəriləcək.

***XQ***

# Bu il ÜDM-in 1,9 faiz artacağı gözlənilir

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış 2024-cü il və sonrakı üç il üzrə baza ssenaridə (neftin bir barelinin orta illik ixrac qiyməti 2024-2027-ci illər üçün 60 ABŞ dolları götürülməklə) makroiqtisadi proqnoz göstəricilərinə əsasən, 2023-cü ildə ölkədə ÜDM-in real ifadədə 1,9 faiz artaraq 119,6 milyard manat olacağı gözlənilir.**




Bu barədə Maliyyə Nazirliyinin hazırladığı "2024-cü ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlama" da bildirilib. Sənəddə qeyd edilir ki, qeyri-neft-qaz sektorunun 4 faiz artaraq 77,6 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. 2023-cü ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 0,3 faiz azalacağı gözlənilir.

Proqnozlara əsasən, ortamüddətli dövrdə ölkədə qeyri-neft-qaz ÜDM-in həcminin 2024-cü ilin sonuna 84,2 milyard manat, 2027-ci ildə isə 106,8 milyard manata qədər artacağı və real artım tempinin 4,6–5 faiz olacağı gözlənilir.

***XQ***

# Sahibə Qafarova İrlandiyada

## *Milli Məclisin Sədri bölgədəki durum barədə danışıb*



**İrlandiyada işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova bu ölkənin Parlament Nümayəndələr Palatasının Sədri Şon Oferghail ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İrlandiya Parlamenti Nümayəndələr Palatasının Sədri Azərbaycan parlamentinin rəhbərinin ölkəsinə ilk səfərindən məmnunluğunu ifadə edib və ölkəsində Azərbaycanın Milli Məclisi ilə dostluq qrupunun yaradılması üzərində iş getdiyini diqqətə çatdırıb. O, bunun parlamentlərarası əlaqələrin daha da gücləndirilməsinə töhfə verəcəyinə inamını bildirib.

Ş. Oferghail ölkəsinin xarici dövlətlərə investisiya qoymaqda, iqtisadiyyat və turizm sahələrində əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu qeyd edib, Azərbaycanın regiondakı aparıcı rolu, ölkəmizin Avropanın etibarlı enerji tərəfdaşı olması barədə fikirlərini bölüşüb. İrlandiyalı spiker iki ölkənin parlamentlərarası və digər sahələrdə əlaqələrini daha da inkişaf etdirmək üçün qarşılıqlı səfərlərin vacibliyini vurğulayıb, bu sahədə mövcud imkanlardan danışıb.

Azərbaycan parlamentinin rəhbəri təhsil, mədəniyyət, humanitar sahələrdə və parlamentlər arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu diqqətə çatdırıb. O, Cənubi Qafqazda, o cümlədən Azərbaycanda, xüsusən də Qarabağ bölgəsində vəziyyət haqqında məlumat verib. S. Qafarova xatırladıb ki, Azərbaycan öz torpaqlarını Ermənistanın işğalından azad etməklə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını öz gücünə təmin edib və qarşı tərəfə beynəlxalq hüquqa əsaslanan 5 prinsipdən ibarət sülh sazişi təklif edib. Lakin artıq 3 ilə yaxındır ki, Ermənistanın bu sənədi imzalamadığından təəssüfləndiyni bildirib. Həmçinin diqqətə çatdırıb ki, Ermənistan "blokada", "humanitar böhran" kimi əsassız iddialarla beynəlxalq miqyasda Azərbaycana qarşı siyasi şantajını davam etdirib.

Sahibə xanımın sözlərinə görə, Ermənistan bu müddət ərzində Qarabağdan 10 min hərbçisini çıxarmayıb, onlara maddi dəstək verib, silah-sursatla təmin edib və Azərbaycanın Qarabağ bölgəsindəki qondarma rejimi dəstəkləyib. O cümlədən Ermənistanın ötən dövr ərzində sərhəddə təxribatlar törətdiyini, Azərbaycan ərazilərini minalamaqda davam etdiyini və ötən həftə bu təxribatların sayının daha da artdığını diqqətə çatdırıb. Bütün bunlar Azərbaycanın lokal antiterror tədbirlərinə başlamasına səbəb olub.

Bu tədbirlərin məqsədi regionda qeyri-qanuni erməni silahlı qüvvələrinin mümkün hərbi təxribatlarının və terror aktlarının qarşısını almaq, terrorçu dəstələri regiondan çıxarmaq olmuşdur. Lokal xarakterli antiterror tədbirləri, həmçinin dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədi daşımışdır. O, xüsusilə qeyd edib ki, antiterror tədbirləri zamanı mülki əhali və obyektlər hədəfə alınmayıb və bu tədbirlər beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə reallaşdırılıb.

Sentyabrın 20-də Qarabağın erməni sakinlərinin nümayəndələrinin müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olunduğunu diqqətə çatdıran Sahibə xanım deyib ki, bu razılaşmaya əsasən, Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən, hərbi postlardan çıxmalı və tam şəkildə tərksilah olunmalıdır. O, hazırda bu prosesin həyata keçirildiyini söyləyib.

S.Qafarova hazırda Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiyası ilə bağlı müzakirələr aparıldığını və artıq Qarabağın erməni icmasının nümayəndələri ilə 2 görüş keçirildiyini, Xankəndiyə humanitar yardım və ərzaq göndərildiyini diqqətə çatdırıb. Eyni zamnda, Ermənistana getmək istəyən ermənilərin bölgəni maneəsiz, problemsiz tərk etməsi üçün lazımi şərait yaradılıb, Qarabağda yaşamaq istəyən insanlar orada qalırlar. O, nəhayət, sülh sazişinin imzalanacağına ümid etdiyini bildirib.

* * *

Milli Məclisin Sədri Sahibə Qafarovanın İrlandiya Respublikasına işgüzar səfəri davam edir. Azərbaycan parlamentinin rəhbəri sentyabrın 28-də Parlament Spikerlərinin Avropa Konfransının açılış mərasimində iştirak edib.

"Seçilmiş nümayəndələrə qarşı nifrət nitqi və zorakılıq təhdidləri" mövzusunda konfransöncəsi müzakirələr keçirilib.

Sonra Parlament Sədrlərinin Avropa Konfransının açılış mərasimi olub. Mərasimdə İrlandiya Respublikası Parlamentinin Nümayəndələr Palatasının sədri Şon Oferghail, Parlament Senatının sədri Cerri Buttimer, Avropa Şurası Parlament Assambleyasının Prezidenti Tini Koks, Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç və digərləri çıxış ediblər.

Qeyd edək ki, konfrans müxtəlif mövzularda çıxışlar və müzakirələrlə öz işini davam etdirir.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Hayastanın yeganə ixrac yolu Türkiyədən keçirmi?

**Dünən Türkiyənin ingilis dilində nəşr olunan "The Daily Sabah Newspaper" qəzetində tanınmış yazar Məlik Altinokun "Ermənistanın yeganə ixrac yolu Türkiyədən keçir?" adlı məqaləsi dərc olunub. Yazıda irəli sürülən bir çox fikir və mülahizələrin aktuallığını nəzərə alaraq, kiçik ixtisarlarla "Xalq qəzeti"nin oxucularına təqdim edirik.**



"Azərbaycanın bu günlərdə cəmi 24 saat ərzində Dağlıq Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror addımlarında parlaq uğur əldə etməsi İrəvan üçün gözlənilməz olub və bütün Ermənistanı şoka salıb.

Bu ölkədəki qatı millətçilər Qarabağdan gələn ermənilərin "qaçqınların acınacaqlı vəziyyətini əks etdirən şəkilləri" ilə uydurma 1915-ci il deportasiyası arasında müqayisə apararaq cəmiyyətdəki ajiotajı daha da qızışdırırlar.

Son günlər paytaxt İrəvanı kütləvi etiraz aksiyaları bürüyüb. Nümayişçilər baş nazir Nikol Paşinyanı korafəhmlik və ətalətdə günahlandırır. Etirazçılar, həmçinin hökumətin başçısını həmçinin "xalqı satmaqda" ittiham edirlər.

Paşinyan hakimiyyətə gəldiyi zaman ona sələflərindən miras qalan ağır problemləri "rasional yolla" həll edəcəyini vəd etmişdi. Bu, əvvəlcə cəmiyyətdə ümidlər yaratmışdı. Bununla belə, tezliklə baş nazirin səriştəsizliyi üzə çıxdı, belə ki, onun Rusiya ilə Qərb arasında "müvazinət" yaratmaqda çətinlik çəkdiyi bəlli oldu.

Məqalədə qeyd olunur ki, Azərbaycan 2020-ci ilin sentyabrında Qarabağda uğurlu hərbi əməliyyat həyata keçirə bildi və tarixi zəfər qazandı. Burada qardaş Azərbaycanın hünərvər əsgər və zabitlərinin qeyri-adi qəhrəmənlığını zərrə qədər belə azaltmadan vurğulanmalıdır ki, işğalçı Ermənistanın 44 günlük müharibədə ciddi uğursuzluğa düçar olmasının əsas səbəblərindən biri də məhz Paşinyanın xarici siyasətdəki kobud səhvləri və səbatsızlığı idi. Moskva Paşinyandan narazı idi və İrəvanı Türkiyənin hərtərəfli dəstəyini alan Azərbaycan qarşısında müdafiə etmədi.

Müəllif sonra bunları yazır: "Paşinyan başa düşürdü ki, Ermənistan 1990-cı illərin əvvəllərində işğal etdiyi ərazilərdən geri çəkilməlidir. Əks təqdirdə, Ermənistan dövlətinin mövcudluğu sual altına düşə bilər. Lakin Paşinyanın bu mövqeyi erməni cəmiyyətində baş nazirə qarşı etimadsızlığı gücləndirdi. Paşinyan artıq cəmiyyətdə ciddi problemlərlə üzləşirdi, lakin siyasi arenada baş nazirə alternativ görməyən erməni elektoratı sonda onu öz vəzifəsində saxladı.

Paşinyan Ermənistana uzun müddət mane olan "Böyük Ermənistan" kimi xülyalardan, digər tarixi yanlışlıq və məhdudiyyətlərdən qurtulmaq əzmində qətiyyətli görünürdü. Hətta Prezident Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimində iştirak etmək üçün Ermənistanın "əbədi düşməni" hesab edilən Türkiyəyə də gəlmişdi. Eyni zamanda, o, müttəfiqi Rusiyanı əvəz etmək üçün Qərbdə alternativ ittifaqlar axtarırdı, hətta ABŞ ilə birgə hərbi təlimlər keçirməyə qərar vermişdi.

Paşinyanın ABŞ-a arxalanaraq, regional aktyorları özündən uzaqlaşdırması səhv addım idi və bu məntiqi başa düşmək çətindir. Çoxsaylı şərhçilərin fikrincə, bu, ilk baxışda baş nazirin təcrübəsizliyi kimi görünürdü. Bununla belə, İrəvanın xarici siyasəti Ermənistan daxilindəki kəskin hakimiyyət mübarizəsini əks etdirirdi.

Paşinyan üçün rəqiblərinin zərərsizləşdirmək arzusu hər şeyin fövqündə dururdu və indi də belədir. Bu, onun stixiyasıdır. 30 ildən artıqdır ki, Dağlıq Qarabağda möhkəmlənmiş hakimiyyət Ermənistanın "dərin dövləti"ni təmsil edir. Paşinyan isə, faktiki olaraq millətçi ictimaiyyətin mənəvi lideri kimi fəaliyyət göstərir. Heç kəsə sirr deyil ki, İrəvanda hazırkı iqtidarın hər bir addımı Dağlıq Qarabağın müqaviməti ilə üzləşib.

Status-kvonun əbədiləşdirilməsini özünün həyati məqsədi hesab edən erməni diasporasu və lobbisi də baş naziri dəstəkləməkdən imtian etdi. Bütün qüvvələr cinayətkar "Qarabağ klanı"nın hakimiyyətə qayıdışı üçün səfərbər olunurdu. Lakin Ermənistan əhalisi vaxtilə koçaryan və sarkisyanların qəddar və korrupsioner siyasətindən təngə gəldiyi üçün Paşinyanı hakimiyyətdən qovmağa tələsmədi.

Xülasə, Paşinyanın Azərbaycanın Dağlıq Qarabağdakı antiterror addımlarına qarşı çıxmaq istəməməsinin kökündə onun özünün bir düşməni digərinə qarşı qoymaq strategiyası dayanırdı və ədalət naminə demək lazımdır ki, o, bu hiyləgər siyasəti hələlik "uğurla" həyata keçirir, yəni hakimiyyətini qoruyub saxlaya bilir.

Baş nazir bir çox digər məkrli manevrlərə də əl atırdı. Belə ki, o, həyat yoldaşı Anna Akopyanı dəstək üçün Ukraynaya göndərdi və regionda gərginliyin tüğyan etdiyi bir vaxtda Ermənistan parlamentinə Rusiya Prezidenti Vladimir Putinin həbsini nəzərdə tutan Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma statutunu ratifikasiya etmək təklifi göndərdi. Bütün bunlar Moskvanın qəzəbinə tuş gəlməyə bilməzdi.

Azərbaycan ordusu mümkün qətiyyətli hərəkətlərə hazırlaşarkən, Paşinyan bu təxribat xarakterli addımlar ilə Kremli hadisələrə müdaxilədən çəkindirdi. Doğrudan da, Paşinyanın səriştəsizliyi yoxlanıla bilər, amma o, axmaqlıqdan uzaqdır. Bu tezisin etibarlılığını onun Zəngəzur dəhlizinin açılması ilə bağlı mövqeyi müəyyən edəcək. Erməni millətçilərinin müqavimətinə baxmayaraq, bu yol layihəsi regional ticarəti əhəmiyyətli dərəcədə canlandırmaq potensialına malikdir və ölkənin yoxsul əhalisinə rifah bəxş edə bilər.

Hazırda Türkiyədə 100 mindən çox erməni işləyir və Ermənistandakı ailələrinə maddi yardım göndərir. Sərhəd açılsaydı, kiçik bir türk şəhəri qədər əhalisi olan Ermənistanda iqtisadi canlanma yaşana bilər.

Bu arada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Ermənistan buna (Zəngəzur dəhlizi nəzərdə tutulur - müəllif) yol açmasa, İrandan keçəcək" deyərək Ankaranın rəsmi mövqeyini bəyan edib. Bir sözlə, vaxt gözləmir. Paşinyan düzgün seçim etməlidir".

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

KÖŞƏ

# Ermənistan iqtisadiyyatı hansı yolla "tərəqqi" edir?

## Qərb mallarını başqa bir ölkəyə satmaq nə vaxtdan istehsal sayılır?

**Erməni xislətinə bələd olan hər kəs yaxşı bilir ki, bu toplumun nümayəndələri yalan danışmağı özlərinə lap qədimdən peşə seçiblər. Tarix boyu harada yaşamalarından asılı olmayaraq, ermənilər çirkin əməllərini işə keçirmək üçün hər kəsi aldadıb və onlara inananlara xəyanət ediblər.**



***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru, professor***
**yfikrat1957@gmail.com**

Onlar Osmanlı hakimiyyəti dövründə Anadoluda, XX əsr boyu isə Azərbaycanda hiylə ilə yalanlara söykənərək davamlı təxribatlar törədiblər, xalqımıza zaman-zaman faciələr yaşadıblar. İndi ermənilərin yalan, qəsd və xəyanət növbəsi onlara Azərbaycan torpaqlarında dövlət yaratmış Rusiyaya çatıb. Hiyləgər erməni başbilənləri Rusiyanı şantaj edib, Qərbə sığınmaq yolunu seçiblər. Bu millət üçün müqəddəs heç nə yoxdur. Sabah lazım gəlsə Qərbi yenidən Şərqlə əvəz edəcəklər...

Son bir neçə ildir ki, Ermənistan ideoloqları israrla bütün dünyanı iqtisadiyyatının analoqu olmayan bir sürətlə inkişaf etdiyinə inandırmağa çalışırlar. Hətta Ermənistanın baş naziri Nikol Paşinyan bir qədər öncə Moskvada keçirilmiş Avrasiya İqtisadi İttifaqının toplantısında cari ilin birinci rübündə ölkəsinin iqtisadiyyatının 12,2 faiz artdığını bəyan etdi. Bugünlərdə isə Ermənistan Dövlət Statistika Komitəsinin yaydığı məlumatlarda cari ilin 7 ayı ərzində bu ölkənin iqtisadiyyatında 10,4 faiz artımın qeydə alındığı bildirilir.

Məsələni araşdırmaq məqsədilə biz Ermənistan Dövlət Statistika Komitəsinin rəsmi saytına daxil olub bu ölkənin iqtisadiyyatında bəyan edilən "artımların" köklərini araşdırdıq. Aydın oldu ki, 2020-ci ildə Ermənistan iqtisadiyyatı 2019-cu illə müqaisədə 7,5 faiz geriləsə də, 2021-ci ildə iqtisadiyyatda 5,8 faiz, 2022-ci ildə 14,2 faiz, cari ilin 7 ayı ərzində isə 10,4 faiz artım qeydə alınıb.

44 günlük müharibədə ağır məğlubiyyətə düçar olmuş, ordusu darmadağın edilmiş, daxilində siyasi çəkişmələr səngiməyən bir ölkədə iqtisadiyyatın az zaman kəsiyində bu qədər sürətlə inkişaf etməsi mümkündürmü? Apardığımız araşdırmalar göstərdi ki, "Ermənistan iqtisadiyyatının sürətli inkişafı" haqqında yaradılan fikirlərin heç bir əsası yoxdur. Bu ölkənin iqtisadiyyatında son 3 il 7 ay ərzində qeydə alınan "yüksəliş", ilk növbədə, xarici ticarət dövriyyəsinin ağla sığmayan bir sürətlə artması nəticəsində baş verib. Belə ki, 2020-ci ildə Ermənistanın ixracı 2 milyard 537 milyon, 2021-ci ildə 3 milyard 16 milyon, 2022-ci ildə 5 milyard 419,1 milyon, cari ilin 7 ayı ərzində isə 3 milyard 843,6 milyon ABŞ dolları təşkil edib. Bu ilin sonuna ixrac həcminin 6 milyard 590 milyon ABŞ dollarına çatacağı gözlənilir ki, bu da 2020-ci illə müqayisədə 2,6 dəfə (ötən ilin eyni dövrü ilə müqaisədə 162,1 faiz) artım deməkdir.

Eyni qayda ilə idxalın həcmi 2020-ci ildə 4 milyard 564 milyon, 2021-ci ildə 5 milyard 362,2 milyon, 2022-ci ildə 8 milyard 775,9 milyon, cari ilin 7 ayı ərzində 6 milyard 534 milyon ABŞ dolları (ötən ilin eyni dövrü ilə müqayisədə 163 faiz) olub. Cari ilin sonuna idxalın həcminin 11 milyard 200 milyon ABŞ dollarına çatacağı gözlənilir ki, bu da 2020-ci illə müqayisədə 2,5 dəfə artım demək olacaq.

Diqqətçəkən bir fakt isə Ermənistandan Rusiyaya ixracın son bir neçə ildə görünməmiş sürətlə artmasıdır. Belə ki, əgər Ermənistandan 2021-ci ildə Rusiyaya cəmisi 840,7 milyon ABŞ dolları dəyərində məhsul ixrac edilmişdisə, 2022-ci ildə bu rəqəm 3 dəfəyə qədər artaraq 2 milyard 462,8 milyon ABŞ dolları təşkil edib. Bu ilin sonuna Ermənistandan Rusiyaya ixracın həcminin 2020-ci illə müqayisədə 4 dəfədən çox artaraq 3 milyard 470 milyon ABŞ dollarına çatması gözlənilir.

Hərbi-siyasi avantüralarda uduzmuş bu başabəla ölkədə nə baş verir? Doğrudanmı, hərtərəfli çöküş dövrü yaşayan Hayastan tərəqqi edir? Gerçək olan budur ki, Ermənistan iqtisadiyyatındakı "yüksəliş" Rusiya–Ukrayna müharibəsi başladıqdan sonra, bu ölkənin fantastik sürətlə artan idxal və ixracının hesabına əldə olunur. Daha dəqiq desək, əgər Ermənistan iqtisadiyyatı 2022-ci ildə 2020-ci illə müqaisədə 5,8 milyard dollar artmışdısa, həmin dövrdə bu ölkədə idxal və ixracın həcmi də eyni səviyyədə, yəni 5,8 milyard dollar artmışdır. Düşünürəm ki, göstərdiyimiz bu ələhəzrət faktlardan sonra əlavə şərhə ehtiyac qalmır. Budur, Ermənistan iqtisadiyyatında baş verən "sıçrayışlı inkişaf".

Gəlin, diqqət yetirək: Ermənistan bu "tərəqqi" dövründə nəyi haradan idxal, nəyi haraya ixrac edib? Məsələ burasındadır ki, Amerika Birləşmiş Ştatları başda olmaqla, Qərbin Rusiyaya və ilk növbədə onun hərbi sənayesinə tətbiq etdiyi sanksiyalar Rusiya bazarında bir çox məhsulların, o cümlədən hərbi sənaye üçün lazım olan elektrotexnika və digər məhsulların ciddi çatışmazlığını yaradıb. Təbii ki, bu yerdə Ermənistan Rusiyanın "köməyinə" gəlib. Yəni Ermənistan artıq 1 il 6 aydan çoxdur ki, Rusiyaya lazım olan həmin məhsulları xaricdən öz ölkəsinə idxal edib, sonradan onları müxtəlif məhsul adları altında Rusiyaya ixrac etməklə məşğuldur. Artıq ABŞ və Almaniya kimi ölkələr bununla bağlı Ermənistan hökumətinə bir neçə dəfə xəbərdarlıq edib. Ancaq hələ ki, erməni həyasızlığı davam edir.

Yeri gəlmişkən, əgər Ermənistanın əvəzinə, Rusiyaya bu "ayı xidməti"ni Azərbaycan göstərmiş olsaydı, bizimlə bağlı bütün məsələlərdə, ilk növbədə, Qarabağ məsələsində ikili standartlara söykənib haqsızlıq edən Qərb Azərbaycana qarşı ən sərt sanksiyalar tətbiq edərdi. Ancaq bu gün Qərb hələ ki, bu məsələ ilə bağlı Ermənistana yüngül xəbərdarlıq etməklə öz vəzifəsini yerinə yetirmiş hesab edir. Görünür, xristian qardaşlar ermənilərin bu alqı-satqıdan qazanc götürməsini ona çox görmürlər. Qərbin bu "aldadılmaya" yumşaq yanaşılması başadüşüləndir.

Təəssüf doğuran, həm də anlaşılmayan məsələ isə odur ki, "sapı bizdən olan", daxildə və xaricdə Azərbaycanın uğurlarında "əmma" axtaran bəzi boşboğazlar Ermənistanın bu "uğurlarını" bayraq edib, ondan "iqtisadiyyatında inqilab etmiş bir ölkə" obrazı yaratmaq istəyirlər. Həmişə belə olur – bütün yalançıların sözləri də əməlləri kimi üst-üstə düşür.

# "Xunta naziri" Vardanyan məsuliyyətə cəlb olunub

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələri tərəfindən ötən müddət ərzində törədilmiş çoxsaylı terrorçuluq cinayətlərinin araşdırılması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində ibtidai istintaq aparılır.**

Toplanılmış sübutlarla, hazırda Ermənistan Respublikasının vətəndaşı olan 1968-ci il təvəllüdlü Ruben Karlenoviç Vardanyanın Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak etmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə nəzərdə tutulan cinayət əməllərini törətməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Ona qarşı irəli sürülən ittihama əsasən, müəyyənləşdirilmişdir ki, Ruben Vardanyan xarici ölkə vətəndaşı olduğu halda terror-təxribat əməlləri törətmək məqsədilə 2022-ci ilin sentyabr ayında Azərbaycan Respublikasının dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənar, qanunsuz keçərək, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi əraziyə daxil olmuş, həmin ərazidə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılması və fəaliyyətinin təşkilində, habelə idarələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə insanların ölümünə və digər ağır nəticələrə səbəb olan basqınlar etmiş sözügedən qanunsuz hərbi birliklərin silah, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchizatında iştirak etmişdir.

Bundan başqa, o, pul vəsaitlərini həmin qanunsuz silahlı birləşmələrin terrorçuluq fəaliyyətinin təşkil olunmasına yönəltməklə terrorçuluğu maliyyələşdirmişdir.

Törətdiyi qeyri-qanuni əməllərə görə Ruben Vardanyan 27 sentyabr 2023-cü il tarixində saxlanılaraq, ittiham elan edilməklə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunmuş, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***XQ***

# Kilsənin Paşinyanı devirmək planı

## Qarabağ ermənilərı “hərəkətə gətirilir”

(əvvəli 1-ci səhifədə)

Bəli, kilsə ermənilər üçün təkcə dini deyil, eyni zamanda, elmi, ictimai-siyasi mərkəz olub. Maraqlı məqamlardan biri də budur ki, tarix boyu erməni kilsəsi heç zaman bəşəriliyi təbliğ və təlqin etməyib. Onun əsasını hər zaman millət anlayışı təşkil edib. Başqa sözlə desək, bu kilsə



dini məbəd olaraq digər dinlərdən olanlar üçün müqəddəs məkan funksiyasını daşımayıb. Sadəcə ermənilər üçün məbəd olub. Belə bir dar təfəkkürə əsaslanmış baxış günümüzdə də dəyişməz olaraq qalır.

***

Görünür, erməni katolikosu II Qaregin də özünü bu “fövqəltəbii” ənənənin davamçısı qismində görür. Nəinki görür, onun artıq “hərəkətə” keçdiyi də bildirilir. Sən demə, II Qaregin Ermənistanda hakimiyyət çevrilişi etmək istəyirmiş. Onun paytaxt İrəvandakı mitinqə adam göndərilməsini təşkil etdiyi deyilir. Əslində, bununla bağlı xəbərlər bir müddətdir ki, erməni mediasında və sosial şəbəkə seqmentində dolaşmaqdadır. Mövcud xüsusda Paşinyan tərəfdarlarının katolikosun mənəvi pozğun simasını canlandırdıqları da məlumdur. İddiaların birində, hətta, II Qareginin kilsədə gənc oğlan uşaqlarına qarşı cinsi təcavüz etdiyi də bildirilməkdədir. Özü də onun bu kimi murdar əməlləri o qədər çoxdur ki, məsələnin Ermənistanda hər kəsə yaxşı məlum olduğu ikrahla vurğulanır.

İndi katolikos Ermənistanda müxalifət liderlərindən olan Avetik Çələbyanı, keçmiş baş nazir və Qarabağ avantürasının ideoloqlarından sayılan Vazgen Manukyanı və digər din xadimlərinin başına toplayıb. Toplantı iştirakçıları son günlər baş verən siyasi aksiyaların uğursuzluğuna görə bir-birlərini ittiham ediblər. Sonra Qarabağı tərk etmiş erməniləri hakimiyyətə qarşı qaldırmaq planları müzakirə olunub. Bu xüsusda onlara maliyyə dəstəyi göstərilərək, küçə aksiyalarına cəlb edilmələri məsələsi üzərində dayanılıb. Belə qənaətə gəlinib ki, bu, katolikosların da başlıca rol oynadığı keçmiş rejimin baş nazir Nikol Paşinyanı devirmək və hakimiyyətə qayıtmaq üçün son şansıdır.

Eyni zamanda, bildirilir ki, katolikosun başçılıq etdiyi dəstə Ermənistana gəlmiş Qarabağ sakinlərinin telefon nömrələrinə çıxış əldə edib. İkincilərin Rusiyaya qarşı mənfi münasibətini dəyişmək üçün mesajlar göndərmək, zənglər etmək və hökumət əleyhinə əhval-ruhiyyəni qızışdırmaq planlaşdırılır. Ən sonda isə zorakılığa əl atmaq və məsələnin qanla həlli üzərində dayanılır.

***

Paşinyan hakimiyyətini devirmək istəyinə düşmüş erməni kilsəsinin “fəallıq” indiqatorunu müəyyənləşdirən amillər çoxdur. Son dövrlər isə lap çox. Məsələn, Azərbaycan və Ermənistan liderlərinin bu il mayın 14-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş görüşündən əvvəl Eçmiədzin kilsəsinin ali ruhani şurası deyilən ekstremist yığını bəyanat yaymışdı. Dini qurum baş nazir Nikol Paşinyanın güzəştə getməməyə və Bakının şərtlərini qəbul etməməyə çağırmışdı. “Biz Ermənistan hakimiyyətini güzəştli mövqelərindən əl çəkməyə, qətiyyət nümayiş etdirməyə və Artsax xalqının öz doğma torpaqlarında müstəqil, təhlükəsiz və ləyaqətli həyatın təminatına çevriləcək vəziyyətin həllini əsaslı şəkildə təmin etməyə çağırırıq”.

Bəli, bu sayaq həyasız fikirlər Eçmiədzin kilsəsinin bəyanatının ana xəttini təşkil etmişdi. Sənəddə, həmçinin Qarabağda humanitar vəziyyətin, guya, ağırlaşdığı, Azərbaycanın davamlı anti-erməni fəaliyyət həyata keçirdiyi və bölgənin tam blokadası nəticəsində yerli əhalinin vəziyyətinin çətinləşdiyi vurğulanmışdı. Rusiya sülhməramlı qüvvələrinin səylərinin nəticəsizliyi, Bakının təcavüzünün yeni miqyaslar aldığı diqqətə çatdırılmışdı. Beynəlxalq ictimaiyyətə aciz yalvarış-ların əksini tapdığı bəyanatda, eyni zamanda, Avropa İttifaqına üzv dövlətlərə də müraciət ünvanlanmış və “Laçın dəhlizi”nin qısa müddətdə açılması üçün kömək istənilmişdi. Sənədin ən absurd məqamı isə orada ATƏT-in artıq canını tapşırmış olan Minsk qrupunun adının çəkilməsi idi. Baş erməni kilsəsinin yalvarışında bu ölü qrupda təmsil olunan ölkələrə də üz tutulmuşdu.

***

İndi “Laçın dəhlizi” məntiqi qalmayıb. Belə gedişlə, heç Qarabağda da erməni əhali qalmayacaq. Amma Paşinyan özünün hakimiyyət kreslosundadır. Diqqət yetirək, 44 günlük müharibə məğlubiyyəti, 23 saat 43 dəqiqə davam etmiş lokal xarakterli antiterror tədbirləri, – heç biri Nikolu devirmək üçün əsas yarada bilmədi. Həm də ona görə ki, erməni xalqı elə bu katolikosların əlindən də boğaza yığılıb. Bunların saxtakarlıqlarından, ikiüzlülüklərindən, din adı altında çıxardıqları min bir oyunlardan təngə gəlib. Erməni xalqı onu da yaxşı başa düşür ki, düşdükləri bəlaların kökündə elə kilsə dayanır.

***Ə.RÜSTƏMOV***
***XQ***

**Replika**

# Cinayətin cəzası statusdan asılı deyil

## Vardanyanı həbs edən Azərbaycan, söyülən isə Ermənistandır

**Ermənilərin və erməniпərəstlərin “DQR”-in keçmiş “dövlət naziri”, milyarder Ruben Vardanyanın Azərbaycanın Laçın nəzarət-buraxılış məntəqəsində həbsi (onlar bunu oğurlanma kimi hallandırırlar) ilə bağlı maraqlı, bir çox hallarda gülüş doğuran reaksiyaları yayılmaqdadır. Rusiyanın məlum rəsmi təbliğatçılarının səhifələrinə nəzər yetirmək kifayətdir ki, “Vardanyan ajiotajı”nın miqyası və xarakteri barədə aydın təsəvvür yaransın.**



Əvvəlcə diqqəti cəlb edən medial-spektral təmayül ondan ibarətdir ki, paylaşımlarda Vardanyanın keçən il Rusiya pasportundan imtina edərək, yaşamaq üçün “Dağlıq Qarabağa” getmək qərarını özünün verdiyi qeyd olunur. Sərvəti milyard dollarla ölçülən bu erməni əsilli rusiyalı “iş adamının” qərarının motivləri barədə məşhur Marqonun (Marqarita Simonyan) gəldiyi qənaətə diqqət yetirək:

“On illər ərzində özünə böyük kapital toplayan, xaricdə nüfuzlu və zəngin dostlara malik, müxtəlif festivallarda gur alqışlara “qonaq edilən” Vardanyanın həyatında erməni xalqının milli maraqlarından savayı maraqlı heç nə qalmamışdı...” – yazan Simonyanı bundan daha çox Rubenin Rusiya vətəndaşlığından imtinası hiddətləndirir. Hə də, əgər belə etməsəydi, indi Marqonun qulluğunda canla-başla durduğu siyasi Kreml “yerli milyarderini” darda qoymazdı.

Simonyanın yaxın rəfiqələrindən biri, Tina Kandelaki “X”-də belə yazır: “Dostlar, mənim yaxın dostumu, Dağlıq Qarabağın (?) sabiq dövlət naziri (?) Ruben Vardanyanı Azərbaycan hərbçiləri həbs ediblər. İndi Vardanyanın həyat yoldaşı onunla birlikdə dua etməyi mi xahiş edir”. Tanrıya dua etmək məsələsinə qarışa bilmərik, amma bu paylaşıma yazılan şərhlərdə və reaksiyalarda əsl bayram əhval-ruhiyyəsi hiss olunmaqdadır.

* * *

Qabrielyanov soyadlı birisinin məlum hadisəyə münasibəti isə, yəqin, erməniəsilli izləyiciləri “dərin düşüncələrə” qərq edib: “Ruben Vardanyanı həbs ediblər, Samvel Babayanı isə böyük məmnuniyyətlə buraxıblar. Paşinyanın dövləti cinayətkar olduğunu və İlham Əliyevin çaldığına oynadığını göstərmək üçün sizə daha hansı sübutlar lazımdır?”. O, şərhinin sonunda Vardanyanla yanaşı, Babayanın da həbs olunmadığına görə “qanının qaraldığını” vurğulayır.

Həbs hadisəsi ətrafında “dərin və hərtərəfli təhlil” aparan Rıbar belə bir məntiqi nəticəyə gəlir ki, ümumiyyətlə, Vardanyanın birmənalı şəkildə rusiyapərəst mövqedə dayandığı barədə danışmağa dəyməz. Onun fikrincə, “Bakıda kimsə Vardanı oğurlamaqla (?) (həbs etməklə - red.) hadisə ilə bağlı Moskvanın mümkün reaksiyasına ciddi ümidlər bəsləyib və bu, özlüyündə daha çox nümayişkaranə şəkildə peysərə vurulan silləyə bənzəyir. “Amma yeri gəlmişkən onu da yada salaq ki, formal olaraq Azərbaycan Rusiya tərəfinə heç nə irəli sürə bilməz. Ona görə ki, il yarımdır ki, Ruben Vardanyan Rusiya vətəndaşı deyil. Hə, böyük ehtimalla son nəticədə Vardanyanı buraxacaqlar. Burada Azərbaycan hakimiyyəti üçün əsas və vacib məsələ yerli əhaliyə və beynəlxalq ictimaiyyətə onu göstərməkdir ki, Artsaxın (?) bütün keçmiş funksionerləri, statuslarından asılı olmayaraq, məsuliyyətə cəlb ediləcəklər”, – Rıbar yazıb. Əlbəttə, maraqlı olduğu qədər də yanlış ehtimaldır. Bakının “həbs səhnələrini daxilə və xaricə nümayiş etdirməyə” ehtiyacı yoxdur. Azərbaycan sadəcə onun ərazisində onun qanunlarına zid fəaliyyət göstərən ünsürlərin layiq olduqları cəzaya çatmalarında maraqlıdır. Həmin ünsürlərin hansı ölkəyə, hansı dairələrə mənsub olmalarından asılı olmayaraq. Və törədilən cinayətə görə cəzada baiskarın statusu nəzərə alınmır. Vəssalam!

Karnauxov Vardanyanın saxlanması ilə bağlı Paşinyanın ünvanına təhqirlər yağdıran naməlum “erməni donuzunun” qeydlərini paylaşıb.

Solovyev Simonyanın yazdığını profilində yerləşdirməklə kifayətlənib. Yəni, necə deyərlər, ağrımayan başına dəsmal bağlamaq istəməyib.

Bütün bu paylaşımlarda, şərhlərdə diqqəti ən çox çəkən bilirsiniz nədir? “Qanunsuz sərhəd postunda” erməni biznesmeni “oğurlayan” Azərbaycanın ünvanına senzuradan kənar bir kəlmənin belə olmaması. Buna heç bir platformada rast gəlmədik! Mətnlərin hamısı ya quruca xəbərdən, ya da Ermənistanın ünvanına hətta yazılması mümkün olmayan təhqiramiz ifadələrdən ibarətdir.

Kremlə yaxın media “carçılarının” bir qismi susur. Bu isə o deməkdir ki, “Ermənistanın ünvanına yeni ittihamlar yağdırmaq üçün düzgün tezislər üzrə təlimat” hələ dövriyyəyə daxil olmayıb. Deməli, “Vardanyan media-tamaşası”nın ikinci hissəsi irəlidədir.

***İ.HƏSƏNQALA***
***XQ***

**KÖŞƏ**

# Arzu təzə, əməl təzə – hədəf də bəlli

## Yeni reallıqlar qarşımıza daha mühüm vəzifələr qoyur

**Doğrudur, geridə qalan otuz ildə də hamı bilirdi ki, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti regional inkişafı və ikitərəfli münasibətlərdəki tərəqqini ləngidir. 2020-ci ilin payızından sonra isə artıq bütün dünya bu həqiqəti qəbul edir. Hamı etiraf edir ki, Azərbaycan ərazilərinin işğalda saxlanılması nəinki Şimal – Cənub və Şərq – Qərb istiqamətli beynəlxalq iqtisadi layihələrin, hətta, ikitərəfli əməkdaşlıqlara aid olan lokal miqyaslı layihələrin icrasına da əngəl törədirdi. Ona görə də indi beynəlxalq aləmdəki mütərəqqi qüvvələr Azərbaycanın qazandığı uğurları alqışlamaqla yanaşı, hərtərəfli əməkdaşlığın genişləndirilməsi üçün yeni üfüqlərin açıldığını da xatırladırlar.**



İttifaq MİRZƏBƏYLİ
i-mirzebeyli@mail.ru

### Bəs yeni reallıqlar bizim qarşımızda hansı üfüqləri açır?

**Birinci:** Azərbaycanın əsas məqsədlərindən biri beynəlxalq nəqliyyat – logistika mərkəzlərindən birinə çevrilməkdir. Doğrudur, həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev bu istiqamətdə kifayət qədər sanballı addımlar atmışlar. Ancaq Zəngəzur dəhlizi açılmadan həmin işlərin yarımçıq qaldığı da məlumdur. Həmin dəhlizin açılmasına isə öz himayədarları hesabına hegemonluq etmək istəyən Ermənistan mane olur. Odur ki, 44 günlük İkinci Qarabağ müharibəsinin nəticələri Zəngəzur dəhlizinin reallaşdırılmasına mühüm zəmin yaratmışdır.

**İkinci:** Beynəlxalq aləmdə davam edən ictimai-siyasi proseslər çox ciddi şəkildə qütbləşmə tendensiyasının yaranmasına səbəb olmuşdur. Əslində qütbləşməni tənqid etmək istəmirik. Çünki Azərbaycanın özü də dünyada gedən qütbləşmələrin nəticələrini görüb. Yəni, İkinci Qarabağ müharibəsinin getdiyi günlərdə bədxahlarımız mötəbər beynəlxalq təşkilatlarda anti-Azərbaycan məzmunlu sənədlərin qəbul edilməsinə çalışanda bizim də daxil olduğumuz qütbün – Qoşulmama Hərəkatının təmsilçiləri ölkəmizin maraqlarını ciddi şəkildə qorumuş və istəklərinə nail olmuşdular. Bu faktdır.

O da faktdır ki, rəsmi Bakının əsas məqsədlərindən biri də tarixi, siyasi, mədəni və mənəvi baxımdan tamamilə mütəşəkkil olan Türk dünyasının coğrafi baxımdan da birləşməsinə nail olmaqdır. Bu isə Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikası arasındakı nəqliyyat yollarının açılması ilə mümkündür. Bizim yaratdığımız yeni reallıqlar həmin məsələnin həllini də yaxınlaşdırır. Bir çox siyasi dairələr bu faktı Turan birliyinin yaradılması kimi qiymətləndirir və hürkürlər. Ancaq nə desələr, neyləsələr də, həmin həqiqətlə razılaşmalı olacaqlar. Artıq bir çox bədxahlarımız etiraf edirlər ki, dünyanın siyasi xəritəsində Turanın addım səsləri eşidilməkdədir.

Yeri gəlmişkən, dövlət başçımız ötən il noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında xatırlatmışdır ki, Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir: “Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq”.

**Üçüncü:** Azərbaycanın qarşısında duran əsas hədəflərdən biri də ölkəmizdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının qorunması istiqamətində lazımi addımlar atılmasıdır. Dövlət başçımız xatırladır ki, Türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir. Hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatmışdır.

**Dördüncü:** Azərbaycanın sentyabrın 19-da başladığı lokal xarakterli antiterror tədbirlərindən təşvişə düşən Fransa rəhbərliyi dərhal bu məsələnin BMT səviyyəsində müzakirəyə çıxarılmasına nail oldu. Həmin müzakirələrdə çıxış edənlərin böyük əksəriyyəti “xristian klubu” təmsilçisi kimi danışdı və açıq-açığına səlibçi mövqeyi nümayiş etdirdi. O zaman azərbaycanlı ekspertlər “İlham Əliyevin İslam dünyası ilə əməkdaşlığı genişləndirmək siyasəti necə də uzaqgörənliklə atılmış addımlardır” – deyə məmnunluq ifadə etdilər. Yəni Azərbaycanın qarşısında duran növbəti yeni hədəf İslam ölkələri ilə dostluq, tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin daha da genişləndirilməsidir.

**Beşinci:** Əsas hədəflərdən biri də ölkənin bütün ərazilərində suverenliyimizin təmin edilməsindən sonra Qarabağda yaşayan erməni əsilli vətəndaşlarımızın reinteqrasiyasına nail olmaqdır. Bəlkə də kimsə deyə bilər ki, ən əvvəl bu hədəf barədə söz açılmalıydı. Doğrudur. Ancaq o da doğrudur ki, biz dəfələrlə demişik, kim Azərbaycan qanunları ilə yaşamaq istəyirsə, ölkəmizdəki digər azsaylı xalqların təmsilçilərinin istifadə etdiyi bütün hüquqlardan bəhrələnəcəklər. Kim Azərbaycan Bayrağı altında yaşamaq istəmirsə, ona yol açıqdır, istədiyi ölkəyə gedə bilər. Yəni biz kimsə məcbur etməyəcəyik ki, gəl, Azərbaycan pasportu al, bizim qanunlarımıza tabe ol. Odur ki, bu istiqamətdəki fəaliyyətimizi hələki humanitar yardımlar göstərilməsi ilə davam etdiririk.

**Altıncı:** Bu gün bizim əsas hədəflərimizdən biri də işğaldan azad edilmiş bütün ərazilərimizin ən müasir dünya standartları səviyyəsində bərpası və tamamilə yenidən qurulmasıdır.

Dövlət başçımızın bu il iyulun 21-də “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində beynəlxalq beyin mərkəzlərinin və mətbuat təmsilçilərinin suallarını cavablandırarkən dediyi kimi, bu iki il yarım ərzində gördüyümüz işlər təkcə onu göstərmir ki, bizim maliyyə imkanlarımız var. Onu göstərir ki, bizim çox ciddi təcrübəmiz və peşəkar kadrlarımız var: “Bu miqyasda layihələri iki il yarım ərzində həyata keçirmək, məncə, heç kimin ağlına gəlməzdi. Heç kim təsəvvür edə bilməzdi ki, cəmi iki il yarım ərzində bu qədər genişmiqyaslı işlər görüləcək, özü də böyük ərazidə – 10 min kvadratkilometri əhatə edən ərazidə durmadan gecə-gündüz işlər gedir. Azərbaycan ictimaiyyəti də vaxtaşırı məlumatlandırılır, həm planlar haqqında, həm də görülmüş işlər haqqında. Şəhərlərin baş planları təsdiq olunanda həmin şəhərlərdə yaşamış insanların rəyi də nəzərə alınmışdır. Şəhərlərin bərpasının təməlqoyma mərasimini də mən keçmiş köçkünlərlə birlikdə həyata keçirmişəm. Yəni, biz çox istəyirik ki, otuz il ərzində mənəvi və fiziki əzablar çəkmiş insanlar ən yaxşı şəraitlə təmin olunsunlar və buna doğru gedirik və gedəcəyik”.

“Xalq TV”-nin qonaqları

**Bugünlərdə Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində dünya şöhrətli bəstəkar Arif Məlikovun 90 illik yubileyi münasibətilə “Məhəbbət əfsanəsi” baletinin Heydər Əliyev Sarayında təntənəli təqdimatı ölkənin mədəni həyatında sənət hadisəsi oldu. Müsahibimiz tamaşada Üzeyir Hacıbəyli adına Dövlət simfonik Orkestrini idarə edən drijor, Xalq artisti, professor Yalçın Adıgözəlovdur.**

# “İndi dünya bizi yaxşı tanıyır”

***– Əvvəlcə, dünyanın bir çox səhnələrində çıxış etmiş bir sənətkar kimi deyin: bu gün kənardan Azərbaycan necə görünür?***

– Dünya artıq bizi tanıyır. 20 – 25 il əvvəl hansısa bir ölkəyə gedəndə soruşurdular ki, Azərbaycan harda yerləşir, sənətkarlarınız kimdir? Mədəniyyətimizlə maraqlanırdılar. Son 25 ildə çox böyük işlər görülüb. 20 il əvvəl Heydər Əliyev Fondu fəaliyyətə başlayıb, bu qurum mədəniyyətimizi xaricdə tanıtmaqla bağlı çox işlər görüb. Dünya konsert salonlarında, operalarda, antik teatrlarda mədəniyyətimiz uğurla təqdim edilib. Mədəniyyət və din ocaqları bərpa edilib.

Azərbaycan bəstəkarlarının notlarının uzun illər gözlədiyimiz nəşri gerçəkləşdi və qələbədən sonra Şuşada Cıdır düzündə ilk “Xarıbülbül” festivalında təqdimatı oldu. Bunlar çox böyük işlərdir. Artıq dünya Üzeyir bəy Hacıbəylini də, Niyazini də, Soltan Hacıbəyovu da, Arif Məlikovu da, Vasif Adıgözəlovu da tanıyır. Avropada dəfələrlə konsertimiz olub. Şəhərlərdə təkrar konsertlərimiz olanda salon dolur. Deməli artıq bizi tanıyır və konsertlərimizə gəlirlər. Azərbaycan Bəstəkarlıq məktəbinin səviyyəsi çox yüksəkdir. Bizim qürurverici böyük əsərlərimiz var.

Dəfələrlə demişəm, yenə təkrar edirəm, keçmiş sovet məkanında, Rusiyadan başqa, musiqi mədəniyyəti baxımdan bizimlə müqayisəyə gələcək ikinci ölkə yoxdur. Azərbaycanda Üzeyir bəyin özülünü qoyduğu məktəb daim böyüyüb, şöhrətlənib. Təkcə Maestro Niyazi, Qara Qarayev, Fikrət Əmirov bəs edərdi ki, Azərbaycan böyük musiqi ölkəsi sayılsın. Amma baxın, bu nəslin davamı necə möhtəşəm gəldi: Soltan Hacıbəyov, Cövdət Hacıyev, Tofiq Quliyev, Rauf Hacıyev, Arif Məlikov, Musa Mirzəyev, Xəyyam Mirzəzadə, Vasif Adıgözəlov və onlardan sonra gələnlər...

Sovet vaxtı SSRİ Bəstəkarlar İttifaqının qurultaylarında hamı Azərbaycan bəstəkarlıq məktəbinin yetirmələrinə xüsusi hörmətlə yanaşırdı. Dmitri Şostakoviç 3 dəfə Bakıda olub, hər dəfə də deyirdi ki, Qara Qarayevlə, Cövdət Hacıyev mənim övladlarımdır, siz hamınız nəvələrimsiniz, çünki siz onların övladlarısınız.

***– O məktəb, sizcə, davam edirmi, yeni nəsil yetişirmi?***

– Hesab edirəm ki, davam edir. Arada bir az boşluq oldu, bu, həm də Azərbaycanda yox, bütün ölkələrdə hiss edildi. Azərbaycanda müharibə ilə bağlı çətin illərimiz oldu. Musiqi mütəxəssislərimizin çoxu ölkəni tərk etdi. Ən yaxşıları qayıtmadı. İndi o boşluğu bərpa edirik.

***– Qarabağ ağrıları musiqimizə təsirsiz ötüşmədi.***

– Elədir. Mənim gözümün qabağına, ilk növbədə, atam Vasif Adıgözəlovun yaradıcılığı gəlir. Ona görə yox ki, atam qarabağlı idi. Anar Məmmədxanov deyirdi ki, nə qədər Qarabağ işğaldadır, hamımız qarabağlıyıq. Təbii ki, Qarabağ faciələri bəstəkarların əsərlərinə də keçdi. Amma qarabağlı bəstəkarların – Vasif Adıgözəlovun, Süleyman Ələsgərovun yazdıqları ürək ağrısı idi. Atam 90-cı ildən sonra nə yazdısa, hamısı Qarabağ mövzüsunda oldu.

***– Hamısı da nisgilli...***

– Hamısı – həm “Qarabağ şikəstəsi oratoriyası”, həm “Qəm karvanı” kantatası. Mahnısına fikir verin: “Şuşam laylay”. Qarabağ həsrəti, acısı ürəklərindən çıxmırdı ki, başqa musiqi də yaratsın. Ömrünün sonuna qədər atamın əsas mövzusu Qarabağ oldu. Biz çox xoşbəxt nəsilik ki, qələbəni gördük.

***– Atanızın adlarını çəkdiyiniz musiqilərini Şuşada ifa etməyiniz onu Şuşa həsrətli ruhunu şad etdi.***

– O tarixi bir gün idi. “Qarabağ şikəstəsi oratoriyası”nın Cıdır düzündə səsləndirilməsi atamın vəsiyyəti idi. Mənə demişdi ki, mənə qismət olmayacaq, amma sən hökmən Cıdır düzündə “Qarabağ şikəstəsi oratoriyası”nı səsləndir.

***– O gün qeyri-adi bir hadisə baş verdi: ifa zamanı qartalın orkestrin başı üstündə qanad salması mistik bir əhvalla qarşılandı.***

– Mən sonra mütəxəssislərdən soruşdum. Dedilər ki, bu yerlərdə uzun müddət qartal olmayıb, cəmi bir cüt qartal var, az görünər. Niyə məhz “Qarabağ şikəstəsi” oratoriyasının ifası zamanı gəldi və operator necə həmin anı yaxaladı? Elə bil, o qartalın qanadlarında Üzeyir bəyin, Fikrətin, Xanın, Bülbülün, Rəşidin... ruhu bu təntənəni yaxından izləməyə gəldi. Hamımız çox təsirləndik. O Tanrıdangəlmə bir əlamət, işarə idi bizə.

Alim Qasımovla “Qarabağ şikəstəsi” oratoriyasını ilk dəfə Moskvada, 20 Yanvar şəhidlərinin ildönümündə ifa etmişik. Şikəstənin adını çəkmədilər. Aparıcı təqdim etdi ki, Vasif Adıgözəlov “Şikəstə oratoriyası”, Qarabağ sözünü çıxartmışdılar. İfadan sonra Nodar Şaşıqoğlu çıxdı səhnəyə Teymur Elçinin şəhidlərin ruhuna ithaf etdiyi şeirlərini səsləndirdi və dedi ki, xahiş edirəm, hamı ayağa qalxıb ansın 20 Yanvar şəhidlərini. Salon ayağa qalxdı. O vaxt Alim Qasımovla mənim saçlarımız qara idi, indi onunku ağarıb, məndə isə heç yoxdur. Düz 30 il sonra eyni tərkiblə – ikimiz Şuşada “Qarabağ şihəstəsi”ni öz adı ilə ifa etdik. Nələr yaşadıq, bunlar böyük bir tarixdir.

***– Qələbə və uğurlarımız davam edir. Ötən həftə Qarabağda baş verənlər barədə fikriniz?***

– Biz artıq qələbələr gözləyirik. Son illər davamlı qələbələr qeyd edirik. Ölkə başçısına, Ali Baş Komandana sonsuz inam var. Onun nəyi, necə nə vaxt etmək məharəti bizə yeni-yeni uğurlar qazandırır. İndi Azərbaycan intibah dövrünü yaşayır. Xarici ölkələrə gedəndə görürük, bizə münasibət tamam dəyişib. Biz artıq qalib xalq, müzəffər ölkəyik, haqq yerini tutub. Bugünlərdə isə Qarabağda suverenliyimiz bərpa edildi. Bu ikiqat zəfərdir.



Bir ay əvvəl Laçında idik. Son nəsil gənclik Qarabağı görməyib. Lakin onlar Qarabağ sevgisi, ruhu ilə böyüyüblər. Gənc müğənni “Kəsmə şikəstə”ni elə oxudu ki, tüklərim biz-biz oldu. Soruşdum, haralısan? Dedi ki, ağdamlı. Əslən ordan olduğu üçün belə dedi, amma Ağdamı görməyib. Genetika isə öz sözünü deyir. Xalqı qan yaddaşı, genetik yaddaş yaşadır. Üzümü gənclərə tuturam: bizim kimi xalq yoxdur, bu Vətəni, bu bayrağı sevin.

***– Bu günlərin gözəl hadisələrindən biri də Arif Məlikovun “Məhəbbət əfsanəsi”nin bəstəkarın Vətənində təntənəli təqdimatı oldu.***

– Allah Arif Məlikova rəhmət etsin, böyük bəstəkardır. Qara Qarayevin parlaq yetirmələrindəndir. 60-cı illərdə Nazim Hikmət librettonu Arif Məlikova yox, Qara Qarayevə göndərmişdi. O zaman Qara Qarayev “Məhəbbət əfsanəsi” librettosunu verir Arif Məlikova. Möhtəşəm əsərdir və Arif Məlikovun gənc yaşında bu əsərlə ulduzu parladı. Ondan sonra da çox əsərlər yazdı, amma zirvəsi “Məhəbbət əfsanəsi”dir. 40-dan çox ölkədə 60 dəfədən artıq oynanılıb.

Mən ilk dəfə bu tamaşanı İstanbul Dövlət Opera və Balet Teatrında idarə etmişəm. Tamaşa o qədər uğurlu alınmışdı ki, gətirib Arif Məlikova təqdim etdim, dinlədi, çox sevindi, qucaqladı məni. “Məhəbbət əfsanəsi” ölməz əsərdir, hələ çox yaşayacaq.

***– Maraqlı söhbətə görə təşəkkür edirik.***

***Söhbəti apardı:***
***Ramilə QURBANLI***
***XQ***

Mədəniyyət xəbərləri

# Naxçıvan Filarmoniyası Bakı səhnəsində



**Ölkəmizdə və beynəlxalq aləmdə böyük maraqla qarşılanan Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı dünən başa çatıb. Festival çərçivəsində keçirilən bütün tədbirlər musiqisevərlər tərəfindən maraqla qarşılansa da, final ərəfəsində Azərbaycan Dövlət Filarmoniyasında keçirilən konsert daha çox əks-səda verib və bir neçə cəhətdən əlamətdar olub.**

Belə ki, Türk dünyasının iki böyük liderinin – Azərbaycan və Türkiyə prezidentlərinin Naxçıvanda görüşdüyü günlərdə Naxçıvan Dövlət Filarmoniyasının simfonik orkestri Azərbaycan Dövlət Filarmoniyasındakı çıxışı ilə dahi bəstəkarımızın adı ilə bağlı festivala öz töhfəsini verib. Bu tədbiri əlamətdar edən cəhətlərdən biri də konsertin Üzeyir Hacıbəylinin “Koroğlu” operasından “Uvertüra” ilə başlanması idi.

Naxçıvan Dövlət Filarmoniyasının solistləri Mübariz Əsgərov, Gülyanaq Fərzəliyeva, Vəli Səfərov, İlkin Abdullayev, Elçin Nağıyev, Tural Nəcəfov, eləcə də, digərləri dahi bəstəkarın müxtəlif əsərlərindən parçaları səsləndirib və maraqlı ifaları ilə tamaşaçıların rəğbətini qazanıblar. Xatırladaq ki, orkestrin dirijorları Prezident mükafatçıları Orxan Həşimov, Elvin Əliyarlı və Cahangir Qurbanovdur.

***İ.MİRZƏBƏYLİ***
***XQ***

# Üzeyir musiqisinin foto əks-sədası

**Bakı Musiqi Akademiyasının (BMA) nəzdindəki Opera Studiyasında “Üzeyir Hacıbəylinin musiqi şah əsərləri” adlı fotosərgi açılıb.**



Ekspozisiyaya fotomüxbir və jurnalist Rüstəm Qasımovun dahi bəstəkarın “Leyli və Məcnun” və “Koroğlu” operaları, “Arşın mal alan” və “O olmasın, bu olsun” operettaları kimi şah əsərlərinə həsr edilmiş işləri daxil olub.

Rüstəm Qasımov jurnalistlərə bu fotoşəkillər seriyası üzərində iş barədə məlumat verərək deyib ki, onda Üzeyir Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalında paytaxt tamaşaçılarının diqqətinə sərgi təqdim etmək, bəstəkarın opera tamaşalarının və musiqili komediyalarının nümayişi zamanı çəkdiyim fotoşəkilləri ora daxil etmək ideyası studiyanın dəstəyi ilə uğurla gerçəkləşdi.

Müəllifin gələcək planlarına insanların mədəni tədbirlərdə mümkün qədər çox iştirak etmələri üçün müxtəlif tamaşalar, konsertlər və sərgilər haqqında fotoreportajlar vasitəsilə təbliğat işi aparmaq daxildir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Xalq sənətlərimiz Özbəkistan sərgilərində



**Özbəkistanın Mədəniyyət Nazirliyi, Fərqanə Vilayət Hakimliyi və “Hunarmand” (Dulusçuluq) Assosiasiyasının birgə layihəsi ilə bu ölkənin Kokand şəhərində II Beynəlxalq Xalq Tətbiqi Sənəti Festivalı, Riştan şəhərində isə Beynəlxalq Dulusçuluq Forumu keçirilib.**

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzindən (AMM) bildirilib ki, tədbirlərə dünyanın 70 ölkəsindən gələn dulusçular, sənətşünaslar, ekspertlər, saxsı ustaları və biznes nümayəndələri qatılıblar. Ölkəmizi bu tədbirlərdə AMM təmsil edib.

Kokand şəhərindəki qədim Abdullaxan malikanəsinin qarşısındakı mərkəzi parkda təşkil edilən sərgidə hər ölkənin guşəsində iştirakçıların əl işləri nümayiş olunub.

Azərbaycana ayrılmış stenddə dəri rəssamları, miniatür və qurama ustaları Pərvanə və Lalə Eyyubovalar, ağac üzərində oyma üzrə sənətkarlar Ələkbər Məmmədov və Tofiq Əliyev öz əl işlərini nümayiş etdiriblər.

Guşədə Azərbaycan Mədəniyyət Mərkəzinin kitab və suvenirlərdən ibarət sərgisi də yer alıb. Stenddə Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatına dair nəşrlər, habelə ölkəmizin təbliğinə dair Heydər Əliyev Fondu tərəfindən buraxılan kitablar, Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlarla bağlı nəşrlər nümayiş etdirilib.

Açılış mərasimində çıxış edən Özbəkistan Prezident Administrasiyası Sosial inkişaf departamentinin rəhbəri Odil Abdurahmanov qeyd edib ki, son illər bu ölkədə 100-dən çox festival və forum keçirilib, II Beynəlxalq Xalq Tətbiqi Sənəti Festivalı isə incəsənətin, dostluğun və istedadın inkişafına xidmət edir.

Dünya sənətkarlar şurasının prezidenti Səad əl-Qəddumi, Fərqanə vilayətinin hakimi Hayrullo Bazarov festivalın xalqlar arasında dostluğun möhkəmlənməsində mühüm rol oynadığını vurğulayıblar.

Festivalın 2-ci günü Böyük İpək Yolunun üzərində olan qədim Riştan şəhərində dünyada tanınan dulusçu Əlişir Nəzirovun böyük emalatxanasında keçirilən sərgi və “XXI əsrdə dulusçuluq sənəti: ənənə və müasirlik” adlı konfransda da Azərbaycandan gələn qonaqlar iştirak ediblər. Həm Kokand, həm də Riştan şəhərlərində keçirilən sərgilərdə Azərbaycan sənətkarlarının əl işlərinə böyük maraq olub.

Konfransda bildirilib ki, Riştan şəhəri bütün dünyada dulusçuluq və saxsı sənətkarlığı mərkəzi kimi tanınıb. Bu şəhərin sənətkarları beynəlxalq sərgilərdə daim fərqlənirlər. Onların, eləcə də xarici ustalar, dizaynerlər və iqtisadçıların iştirakı ilə “Dulusçuluq və bazar iqtisadiyyatı” adlı dəyirmi masa da maraqla qarşılanıb.

***XQ***

# Qazax teatrı paytaxt tamaşaçılarını “inandırdı”

**Mədəniyyət Nazirliyi və Teatr Xadimləri İttifaqının “Qonaq teatr” layihəsi çərçivəsində Ulu öndərin 100 illik yubileyi və Qazax Dövlət Dram Teatrının 85 illiyi münasibətilə yazıçı-dramaturq, rejissor, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlunun “İnan mənə” tamaşasının paytaxtda təqdimatı uğurla keçib.**

Teatr Xadimləri İttifaqının böyük zalında göstərilən tamaşadan öncə İttifaq Sədrinin vəzifə səlahiyyətlərini icra edən Xalq artisti, “Şöhrət” ordenli, Dövlət mükafatı laureatı Hacı İsmayılov tamaşaçıları salamlayıb. O, İttifaqın “Qonaq teatr” layihəsinin əhəmiyyətini qeyd edib və səhnəni Qazax Dövlət Dram Teatrının aktyorlarının ixtiyarına verib.

Əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru Xəzər Gəncəlinin quruluşunda, yüksək peşəkarlıqla hazırlanmış, “İnan mənə” tamaşa elə ilk dəqiqələrdən maraq doğurub. İstedadlı aktyorlar – Yusif Qoca (Elçin), Zəmanə Dərviş (Aysel), Minayə İbrahimova (Yasəmən), Elşad Əliyev (Vüqar), Aydın Orucov (Professor Əmirov), Əhməd Musayev (Emin), kütləvi səhnələrdə oynayan Məmməd Hacıəliyev, Xəqan Qurbanov, Nizami Aşbazov, Turac Məmmədova əsərin başlıca ideyasını məharətlə tamaşaçılara çatdıra biliblər.



Ötən əsrin 80-ci illərinin sonlarından bəhs edən səhnə əsərində hadisələr özbaşınalıq və hərc-mərcliyin önə çıxdığı xaotik bir durumda Elçin Poladlı kimi dürüst, prinsipial və əqidəsinə sadiq qalan ziyalıların mübarizəsi fonunda baş verir. Polad bir iradəyə malik olan Elçin Poladlı gələcəyə nikbin baxır və öz həmməslәkləri ilə birlikdə mənfiliklərə qalib gəlir.

Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan, peşəkar səviyyəli tamaşa teatr mütəxəssisləri, sənətsevərlər və media nümayəndələri tərəfindən alqışlarla qarşılanıb.

Sonda Qazax Dövlət Dram Teatrı Milli Teatr sənətinin inkişafındakı xidmətlərinə görə və 85 illiyi münasiəbəti ilə, Xəzər Gəncəli “İnan mənə” tamaşasına verdiyi uğurlu quruluşa görə, Ağalar İdrisoğlu ölkə teatrları ilə uğurlu əməkdaşlığa görə, 60 yaşı tamam olan aktyor Aydın Orucov isə yaxşı oyununa görə Azərbaycan Teatr Xadimləri İttifaqının fəxri fərmanları ilə təltif olunublar. Qazax Dövlət Dram Teatrının baş rejissoru, Əməkdar artist Musa Eyyubov, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlu, Əməkdar artist Xəzər Gəncəli və aktyor Aydın Orucov onları ruhlandıran Teatr Xadimləri İttifaqına və tamaşaçılara minnətdarlıqlarını bildiriblər.

***Aida QAFAROVA,***
***Azərbaycan Teatr Xadimləri İttifaqının məsul katibi***

# İnvestisiya qiymətli kağızların emitenti olan “Varidat Şirkətlər Qrupu” Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci il üzrə illik hesabatı

| | |
|---|---|
| 1.Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi; | “Varidat Şirkətlər Qrupu” Qapalı Səhmdar Cəmiyyəti.<br>Qısaldılmış adı: “Varidat Şirkətlər Qrupu” QSC.<br>VÖEN: 1400953811.<br>Qeydiyyat tarixi: 26 iyul 2006-cı il. |
| 2. Emitentin hüquqi ünvanı və olduğu yer; | AZ 1007, Azərbaycan, Bakı şəhəri, Sarabski küçəsi 59-59a. |
| 3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması və həmin hüquqi şəxslərin adları; | Hesabat ili ərzində emitentin adında və təşkilati-hüquqi formasında dəyişikliklər baş verməmişdir. |
| 4. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adları, olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəlikləri mövcud deyil. |
| 5. Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti; | Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş törəmə cəmiyyəti mövcud deyil. |
| 6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı; | Emitent şirkətlər qrupunun bir hissəsi deyil. |
| 7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri; | Kommersiya, idarəetmə və hüquqi məsələlər üzrə sair fəaliyyət. |
| 8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri; | Emitent hər hansı bir lisenziya və ya icazəyə malik deyildir. |
| 9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər; | Kommersiya, idarəetmə, hüquqi məsələlər üzrə ayrı-ayrı fiziki və hüquqi şəxslərə xidmətlərin göstərilməsi. |
| 10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | Cəmi 4 işçi. |
| 11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adları, soyadları, atalarının adları; | Cəmiyyətin aşağıdakı idarəetmə orqanları vardır:<br>1.Səhmdarların ümumi yığıncağı;<br>2.İcra orqanı (baş direktor): Hüseynzadə Elmar Nadir oğlu.<br>3.Direktorlar şurası üzvlər:<br>Şahverdiyev Nail Murad oğlu,<br>Şahverdiyev İlkin Nail oğlu,<br>Şahverdiyev Murad Nail oğlu. |
| 12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı; | bir yerli hüquqi şəxs |
| 13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı; | Fiziki şəxs yoxdur. |
| 14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı); | Hüquqi şəxs- “Varidat Group” MMC, VÖEN: 1401727541,<br>100 ədəd adi, adlı səhm, 100%,175000 manat. |
| 15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: | |
| 15.1. Yığıncağın keçirilmə tarixi və yeri (ünvan); | 2022-ci il iyunun 28-də, Azərbaycan, Bakı şəhəri, Sarabski küçəsi, 59-59a nömrəli ünvanda yerləşən “Varidat Şirkətlər Qrupu” QSC-nin inzibati binasında. |
| 15.2. Ümumi yığıncaqda qəbul edilmiş qərarlar. | 1. “Varidat Şirkətlər Qrupu” QSC-nin 2021-ci il üçün illik və maliyyə hesabatı təsdiq edilsin. “Varidat Şirkətlər Qrupu” QSC-nin icra orqanına qanunla müəyyən edilmiş qaydada kütləvi informasiya vasitəsi ilə “Varidat Şirkətlər Qrupu” QSC-nin illik hesabatını və mühasibat balansını hamının tanış olması üçün dərc etdirməyi, o cümlədən müvafiq icra hakimiyyəti orqanında illik hesabatın və məlumatın verilməsi həvalə edilsin. |
| 16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir): | “Varidat Şirkətlər Qrupu” QSC-nin dövriyyədə olan qiymətli kağızların (səhm) buraxılışı Azərbaycan Respublikası Milli Depozit Mərkəzi tərəfindən qeydiyyata alınmışdır. Dövlət qeydiyyat nömrəsi: AZ1001006175. Hesabat ili ərzində əlavə buraxılışlar aparılmamışdır. |
| 16.1. İnvestisiya qiymətli kağızın növü və forması; | Adi, adlı səhm. |
| 16.2. İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi; | AZ1001006175, 13 fevral 2020-ci il. |
| 16.3. İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri; | Ümumi miqdarı: 100 ədəd.<br>Nominal dəyəri: 1750 manat. |
| 16.4. İnvestisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri; | Məcmu nominal dəyəri: 175000 manat. |
| 16.5. Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir); | Heasbat ili ərzində emitent tərəfindən səhm üzrə dividend ödənilməmişdir. |
| 16.6. Faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi; | Faizli istiqrazlar buraxılışı həyata keçirilməmişdir. |
| 16.7. İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda). | Hesabat ili ərzində emitent tərəfindən investisiya qiymətli kağız emissiya edilməyib, dövriyyədə yoxdur. |
| 17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:<br>17.1. Əqdin məbləği.<br>17.2. Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi. | Hesabat dövru ərzində emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər mövcud deyil. |
| 18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br>18.1. Bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği.<br>18.2. Aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. | Hesabat dövrü ərzində aidiyyəti şəxslərlə bağlanılmış əqdlər mövcud deyil. |
| 19. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi; | 28 iyun 2023-cü il. |
| 20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat. | “Xalq qəzeti”. |

# “Pirallah-çörək” ASC səhmdarlarının nəzərinə!

Məlumat üçün sizə bildiririk ki, “Pirallah-çörək” ASC səhmdarlarının növbəti ümumi yığıncağının 26 noyabr 2022-ci il tarixli qərarına əsasən “Pirallah-çörək” ASC ləğv edilmişdir.

Sahibi olduğunuz səhmlərin dəyəri (hər 1 səhmə görə 1 manat) cəmiyyət tərəfindən “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Xətai filialında açılmış hesaba ödənilmişdir. Sahibi olduğunuz səhmlərin dəyərini əldə etmək üçün ləğvetmə komissiyasına müraciət etməyiniz xahiş olunur.

Ünvan- Bakı şəhəri, Xətai rayonu, 8 Noyabr prospekti 23,
“AMAY” Ticarət Mərkəzi, 3-cü mərtəbə, 10-cu otaq.

# “Savalan” ASC səhmdarlarının nəzərinə!

3 noyabr 2023-cü il saat 12.00-da Bakı şəhəri, Keşlə qəsəbəsi, 1-ci Önünə küçəsi 19 nömrəli ünvanda “Savalan” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:
1. Bağlanmış xüsusi əhəmiyyətli müqavilənin şərtlərinə yenidən baxılması.

Əlaqə telefonu – (012) 567- 41- 09 (daxili-16).

***“Savalan” ASC-nin baş direktoru***

# UNESCO-da Zeynalabdin Tağıyev fotosərgisi

**UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının dəstəyi və UNESCO yanında Daimi Nümayəndəliyimizin təşkilatçılığı ilə qurumun mənzil-qərargahında tarixi şəxsiyyət, mesenat Hacı Zeynalabdin Tağıyevin (1823–1924) anadan olmasının 200 illiyinə həsr edilmiş fotosərginin açılışı olub.**




Fotosərgidə azərbaycanlı mesenatın həyat və fəaliyyətini, eləcə də Milli Tarix Muzeyinin eksponatlarını əks etdirən fotolar nümayiş olunur.

Açılış mərasimində Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva, UNESCO Baş Direktorun Ofisində Gender Bərabərliyi bölməsinin direktoru Mariya Beqona Lasaqabaster, UNESCO yanında akkreditə olmuş səfirlər, daimi nümayəndələr, diplomatlar iştirak ediblər.

UNESCO yanında daimi nümayəndə Elman Abdullayev çıxış edərək böyük xeyriyyəçi, öz dövrünün maarifçisi H.Z.Tağıyevin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib. Fəxrlə adını çəkdiyimiz Hacı Zeynalabdin Tağıyevin Azərbaycanda maarif və mədəniyyət sahəsində xidmətlərini diqqətə çatdırıb.

UNESCO Baş Direktorun Ofisində Gender Bərabərliyi bölməsinin direktoru Mariya Beqona Lasaqabaster bildirib ki, H.Z.Tağıyev qadınların inkişafına verdiyi önəm və töhfəsi ilə bizim hər birimizi ilhamlandırıb.

***XQ***

# “Çağdaş bütöv Azərbaycan”

**Bu günlərdə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi və “Türk dünyası İnfo” İctimai Birliyinin təşkilatçılığı ilə yeni bir poeziya toplusu işıq üzü görüb. Sentyabrın 27-də Azərbaycanda Atatürk Mərkəzində “Çağdaş bütöv Azərbaycan" adlı antologiyanın təqdimat mərasimi keçirildi.**




Tədbirdə çıxış edənlər bildirdilər ki, antologiyanın hazırlanmasında şair-publisist, “Türk Dünyası info” İctimai Birliyinin sədri Dəyanət Osmanlının böyük zəhməti olub. Şair, Bakı Dövlət Universitetinin müəllimi Knyaz Aslan çıxışında bildirdi ki, topluda əsasən Cənubi Azərbaycan şairlərinin şeirlərinə geniş yer verilib. Burada cənublu soydaşlarımızın öz duyğu və düşüncələrinin, eləcə də bütöv Vətən həsrətlərinin geniş ifadə olunduğunu görürük. Onun sözlərinə görə, kitabda Şimali Azərbaycan, eləcə də Türk dünyasını təmsil edən şairlərin də bütöv Azərbaycan mövzulu şeirləri yer alıb.

Çıxış edən müəlliflər mövzu ilə bağlı fikirlərini bildirdi, şeirlərini oxudular.

Şair Dəyanət Osmanlı “Çağdaş bütöv Azərbaycan” antologiyasının rəhbərlik etdiyi QHT tərəfindən hazırlanmış ikinci toplu olduğunu bildirdi. Qeyd etdi ki, kitabda ümumilikdə 45 şairin əsərləri toplanıb.

***Paşa ƏMİRCANOV***
***XQ***

# Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu

## *“Tikinti normalarının ekspertizası və innovasiyalar” şöbəsinə aşağıdakı vəzifələr üzrə vakansiyalar*

## ELAN EDİR

**Baş mütəxəssis – 2 nəfər.**
**Mütəxəssis – 1 nəfər.**

***Baş mütəxəssis vəzifəsinə iddialı namizədə dair tələblər:***

| | |
|---|---|
| Təhsil: | Şəhərsalma (və ya inşaat) istiqaməti və ya ixtisası üzrə PhD diplomuna malik olmalıdır; |
| İş təcrübəsi: | Şəhərsalma (və ya inşaat) sahəsində 10 ildən, həmçinin uyğun təşkilatlarda layihələndirmə üzrə 3 ildən az olmayan təcrübəyə malik olmalıdır; |
| Dillər: | Azərbaycan, ingilis və rus dilləri bilikləri (sərbəst olmaqla minimum 2 dil); |
| Kompüter bilikləri: | “Microsoft” Office və müxtəlif layihələndirmə kompüter proqramlarından istifadə arzuolunandır; |
| Sertifikat: | Şəhərsalma (və ya inşaat) sahəsində müstəqil kvalifikasiya qiymətləndirilməsindən sertifikata malik olması arzuolunandır. |

***Mütəxəssis vəzifəsinə iddialı namizədə dair tələblər:***

| | |
|---|---|
| Təhsil: | Şəhərsalma (və ya inşaat) istiqaməti və ya ixtisası üzrə respublikada və ya xaricdə magistratura təhsili səviyyəsini bitirməsi; |
| İş təcrübəsi: | Şəhərsalma (və ya inşaat) sahəsində təcrübəyə malik olması və ya elmi-tədqiqat, layihə institut və təşkilatlarında təcrübə keçməsi arzuolunandır; |
| Dillər: | Azərbaycan, ingilis və rus dilləri bilikləri ( sərbəst olmaqla minimum 2 dil); |
| Kompüter bilikləri: | “Microsoft” Office və müxtəlif layihələndirmə kompüter proqramlarından istifadə; |
| Sertifikat: | Şəhərsalma (və ya inşaat) sahəsində yerli və xarici elmi-praktik konfranslarda və “startap” layihələrində, müxtəlif vebinarlarda iştirak, eləcə də kompüter layihələndirmə proqramlarına dair sertifikatlara malik olması arzuolunandır. |

**Əlavə məlumatı Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutuna müraciət etməklə əldə etmək olar.**
**Əlaqə telefonları – 012 596 37 60 (dax. 248,252) +994 50 681 78 72.**
**E-mail – nazim.cafarov@arxkom.gov.az**
**İnstitutun ünvanı – Bakı şəhəri, Füzuli küçəsi 65.**

***MÜDİRİYYƏT***

# “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” MMC

## “Vətən Müharibəsi tarixi – Şəxsiyyət faktoru” kitabının ərəb və fars dillərinə tərcümə olunaraq çap etdirilməsinin satın alınması məqsədilə

## TƏKLİFLƏR SORĞUSU ELAN EDİR

Lot – 1. “Vətən Müharibəsi tarixi – Şəxsiyyət faktoru” kitabının ərəb və fars dillərinə tərcümə olunaraq çap etdirilməsinin satın alınması.

Təkliflər sorğusu iştirakçılarına təklif olunur ki, öz təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə, həmçinin elektron portal vasitəsi ilə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. (əlaqələndirici şəxs- Əhməd Məmmədov, 496-52-05) ala bilərlər:

İştirak haqqı – 100,00 manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” Məhdud Məsuliyyətli Cəmiyyəti

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
2. Tender təklifinin qüvvədə olma müddəti zərflərin açılış tarixindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.
3. Tender təklifinin təminatı tender təklifinin qüvvədə olma müddətindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı .
5. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış.
6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.
7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.
8. İddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd (statistika komitəsindən).
9. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.
11. İşin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (subpodratçı cəlb edəcəyi təqdirdə).

İxtisas uyğunluğu sənədləri:

a) Malgöndərənin müvafiq sahədə peşəkarlığı və təcrübəsi.

b) Malgöndərənin texniki imkanları.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə 12 oktyabr 2023-cü il saat 17.00-dək Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana həmçinin elektron portal vasitəsi ilə (əlaqələndirici şəxs – Əhməd Məmmədova, telefon- (012) 496-52-05) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 13 oktyabr 2023-cü il saat 11.00-da açılacaqdır.

***Tender komissiyası***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 211 (30327) 29 sentyabr 2023-cü il, cümə

## İdman xəbərləri

## Voleybolçularımız Türkiyədə



**Dünən Azərbaycanın çimərlik voleybolçuları iki beynəlxalq yarışda iştirak etmək üçün Türkiyəyə yola düşüblər.**

"XQ" Azərbaycan Voleybol Federasiyasının mətbuat xidmətinə istinadən xəbər verir ki, təmsilçilərimiz ilk olaraq 29 sentyabr-1 oktyabr tarixlərində Türkiyənin Mersin şəhərində təşkil olunacaq "Bioderma Pro Beach Tour" açıq çempionatında qüvvələrini sınayacaqlar. Bu yarışda ölkəmizi bir qadın ("Azərreyl") və iki kişi komandası ("MUROV AZ TERMİNAL-1", "MUROV AZ TERMİNAL-2") təmsil edəcək.

Voleybolçularımızın növbəti sınağı isə Türkiyənin Balıkesir şəhərində olacaq. Burada təmsilçilərimiz CEV klublararası Avropa Kubokunda (Beach Volley European Cup) öz qüvvələrini sınayacaqlar. Yarışda ölkəmizi qadınlardan "Azərreyl" və kişilərdən ibarət "MUROV AZ TERMİNAL" komandaları təmsil edəcək. Kubok oyunları 5-8 oktyabr tarixlərində baş tutacaq.

## Hakimlər də transfer olunacaq

**Səudiyyə Ərəbistanı Liqasının oyunlarını digər ölkələrin hakimləri idarə edə bilərlər. "XQ" bildirir ki, bu barədə İngiltərənin nüfuzlu "The Times" nəşri yazıb.**



Məlumatda bildirilir ki, yerli federasiya artıq bir neçə ədalət təmsilçisi ilə danışıqlar aparıb. Qurum ölkə çempionatının daha da inkişaf etdirilməsi üçün hakimləri transfer etmək niyyətindədir.

Nəşr İngiltərədəki Premyer Liqa referilərinin illik 120-300 min funt-sterlinq qazandıqlarını, lakin Səudiyyə Ərəbistanında bu rəqəmin daha yüksək ola biləcəyini vurğulayıb.

Qeyd edək ki, sözügedən ölkə təmsilçiləri yay transfer dönəmində bir neçə ulduz futbolçunu heyətlərinə qatıblar.

## "NTD"–"Xəzri": 70–59



**Azərbaycan Basketbol Liqasında (ABL) 2023–2024-cü illər mövsümü öncəsi, klublarımız hazırlıqlarını davam etdirirlər. Bu barədə "XQ"-yə Azərbaycan Basketbol Federasiyasından məlumat verilib. Bildirilib ki, Azərbaycan Texniki Universitetinin idman zalında, çempionatın debütantı "Xəzri" klubu ilə, "NTD" arasında yoldaşlıq görüşü keçirilib.**

Maraqlı keçən görüşdə hər iki komanda öz yeni basketbolçularının oyununu sınaqdan keçiriblər. Qarşılaşma "NTD" klubunun 70-59 hesablı qələbəsi ilə yekunlaşıb.

***Elçin ABBASOV***
***XQ***

## Texnologiya yenilikləri



## Beyin modemə çevriləcək

***ABŞ alimləri insan orqanizminin enerjisi ilə işləyən beyin implantı hazırlayıblar. Tədqiqatçılar, bu implant sayəsində insanların hər yerdə və istənilən vaxt düşüncələri ilə kompüterləri və ağıllı cihazları idarə edəcəklərini bildiriblər.***

"Beyin interneti" adlanan implant mövcud beyin çiplərindən fərqli olaraq istifadəçinin beyin dalğalarını tutmaq üçün kompüterə və ya cihaza qoşulmağa ehtiyac duymur. Çipləri implantasiya etmək üçün həkimlər kəllənin üzərindəki dərini çıxarır, sonra çip və smart cihazlar arasında əlaqəni yaxşılaşdırmaq üçün orta xətt kəllə sümüyü nazikləşdirilir. Düyü dənəsi ölçüsündə olan implant insanlara harada olmalarından asılı olmayaraq internetə, kompüterlərə və digər ağıllı cihazlara qoşulmağa imkan verir.

Qeyd edək ki, neyron implantlar və geyilə bilən cihazlar arasında məlumatların maksimum ötürülməsi və daşınmasını təmin edən ilk tədqiqatdır.

***ƏFSANƏ***
***XQ***

## "ChatGPT" internetə qoşulacaq

**"OpenAI" şirkəti "ChatGPT"nin internetə bağlanacağını açıqlayıb. Söhbət çatbotu istifadəçilərə ən son məlumatları vermək üçün internetdə axtarış edə biləcək.**




Süni intellektlə işləyən sistem əvvəllər 2021-ci ilin sentyabr ayına qədər olan məlumatlardan istifadə edirdi. Bu yenilənmə sayəsində istifadəçilər AI robotuna cari hadisələr və xəbərlər haqqında suallar verə biləcəklər. Bu xüsusiyyətin bütün istifadəçilər üçün pulsuz olacağı bildirilib.

Qeyd edək ki, "ChatGPT" bu ilin əvvəlində ən sürətlə böyüyən proqram olub və aylıq 100 milyon aktiv istifadəçiyə çatıb.

***AYTƏN***
***XQ***

## Qənirə Paşayeva əbədiyyətə qovuşdu

**Azərbaycan cəmiyyətinə, ictimai fikrinə, jurnalistikasına ağır itki üz verib. Milli Məclisin Mədəniyyət komitəsinin sədri, dəyərli həmkarımız Qənirə xanım Paşayeva vəfat edib.**



Q.Paşayeva 1975-ci il martın 24-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olub. 1998-ci ildən 2005-ci ilədək aktiv jurnalist fəaliyyəti göstərib. Qənirə Paşayeva Heydər Əliyev Fondunun İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri kimi də çalışıb. Üçüncü, dördüncü və beşinci çağırış Milli Məclisin deputatı seçilib.

Q.Paşayeva qısa, amma mənalı ömrünü Vətəninə həsr etmiş yurdsevər ziyalı, xeyirxah ictimai xadim idi.

Həyatdan vaxtsız gedən həmkarımızın işıqlı xatirəsi daim qəlbimizdə yaşayacaq!

**Allah rəhmət eləsin!**

## "Turizm Oskarı" Gürcüstanda veriləcək

**"Turizm Oskarı" kimi tanınan beynəlxalq "World Travel Awards" mükafatının təqdimatı mərasimi ilk dəfə olaraq Gürcüstanda keçiriləcək. Batumi sentyabrın 28-29-da bu nüfuzlu tədbirə evsahibliyi edəcək. Bu barədə Acariya hökumətinin mətbuat xidməti məlumat yayıb.**



Gürcüstanın Qara dəniz sahilində yerləşən bu şəhərində aparıcı turizm şirkətlərinin 300-dək nümayəndəsinin, eləcə də 20-dən artıq ölkənin biznes və dövlət müəssisələrinin iştirak edəcəyi turizm forumu təşkil olunacaq.

Sentyabrın 29-da keçiriləcək tədbirdə Avropanın aparıcı turizm istiqamətlərinin adları açıqlanacaq. "World Travel Awards" mükafatının nominasiyalarından birində Botanika bağı və Batumi bulvarı təmsil olunacaq.

Tədbiri populyar səyahət blogerləri və "Euronews", "Wanderlust", "Emerging Europe" və "EarthPix" kimi beynəlxalq KİV işıqlandıracaq.

## Maraq dünyamız

## Günəş Merkuri və Veneranı udacaq...

**Bristol Universitetinin alimləri kompüter modelləşdirmənin köməyi ilə Günəşin genişlənərək Yer kürəsini məhv edəcəyi dövrü müəyyənləşdiriblər.**



Onların hesablamalarına görə, beş milyard ildən sonra Günəş Merkuri və Venera planetlərini "udacaq" və onun xarici konturları Yerin orbitinə yaxınlaşacaq. Amma alimlər bizim planetimizdə həyatın bundan xeyli əvvəl məhv olacağını qeyd ediblər. Bunu şərtləndirən əsas amil kimi yaxın milyard ildə Günəşdə parlaqlığın 10 faiz artması göstərilir. Məhz bunun nəticəsində Yer dənizlərdən, çaylardan, meşələrdən məhrum olaraq yanan kürəyə dönəcək.

Mütəxəssislər planetin şüurlu ikiayaqlı sakinlərinin isə 250 milyon ildən sonra, Günəşdə hərarət 2,5 faiz artandan sonra yoxa çıxacağını dəqiqləşdiriblər. Onların gəldiyi nəticəyə görə, həmin dövrdə quruda yayın orta hərarəti indiki müsbət 15 dərəcədən 46 dərəcəyə qədər yüksələcək. Bu isə suda və quruda yaşayanların kökünün Yer üzündən silinməsi demək olacaq.

***SEVDA***
***XQ***

## Sağlamlıq

## Təzyiq normal olarsa...

**Tərkibində kversetin flavanoidi olan qida və içkilər arterial təzyiqin dərmanıdır. Bu maddə qırmızı, yaşıl və bənövşəyi meyvə-tərəvəzlərdə olur. Çinin Cənub Tibb Universitetinin alimlərinin araşdırmalarından bəlli olub ki, həmin meyvə-tərəvəzlərdə olan kverset maddəsi təzyiqi aşağı salır. Təzyiqdən əziyyət çəkən 900 insanın sağlamlıq durumu təhlil edilib.**



Tədqiqatçıların tövsiyəsi ilə həmin insanlar tədqiqat müddətində menyularında daha çox tərkibində kversetin olan alma, üzüm, qaragilə, ispanaq, kələm, çay, qırmızı şərab, pomidordan istifadə ediblər.

Alimlər bildiriblər ki, arterial təzyiqin azı 10 mm salınması ürək-damar xəstəlikləri riskini 50 faiz azaldır. Ona görə də qırmızı şərab, qırmızı alma və ispanaq təzyiq xəstələrinin masasında olmalıdır.

***Z.HÜSEYNLİ***
***XQ***

## Ekologiya

## İtmiş "holli" ağacı tapıldı



**Braziliyada əbədi olaraq itdiyi güman edilən "holli" ağacı ("Ilex sapiiformis") yenidən kəşf edilib. Dünyanın tanınmış botanikləri son 186 il ərzində onun axtarışı ilə məşğul olublar. Nəhayət iki əsr sonra bu növdən dörd ədədi tapılıb.**

Sonuncu dəfə bu ağaca 1838-ci ildə təbiətşünas Corc Qardner rast gəlmişdir. Həmin illər ərzində Braziliyanın Atlantik tropik meşələri indiki dövrdən fərqli olaraq daha sıx idi. Bu gün isə həmin ərazidə "təxminən" 85 faiz ağac qırılaraq, məhv olub.

***F. SALMANLI XQ***

## Futbol

## Ronaldinyo XXI əsrin birincisi olub



***Braziliyalı hücumçu Ronaldinyo XXI əsrin ilk onilliyinin ən yaxşı futbolçuları reytinqinə başçılıq edib. Bu, Britaniyanın "FourFourTwo" jurnalının versiyasına görə müəyyən edilib.***

Portalın məlumatına görə, qeyd olunan dövrün digər ən yaxşı futbolçuları siyahısına Zinəddin Zidan (Fransa), Kaka (Braziliya), Terri Anri (Fransa), Kriştiano Ronaldo (Portuqaliya), Xavi (İspaniya) və başqaları daxil ediliblər.

***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Namiq Əhmədova əzizi

**SƏYYAD CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Milli Məclisin deputatı Jalə Əhmədovaya əzizi

**ƏLƏSGƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov "Azərişıq" ASC-nin sədr müavini Ramil Yusifova əzizi

**VAHİD AĞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***✓ Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Rüstəmov Yadiyar Cabbar oğlunun adına verilmiş birinci Qarabağ müharibəsi veteranının vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5028
SİFARİŞ 2497
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00